PAŞAYEV ELBRUS PAŞA OĞLU
HƏSƏNOV FƏRZƏLİ HƏSƏN OĞLU

“AZDÖVSUTƏSLAYİHƏ” İNSTİTUTU – 80

“ŞƏRQ-QƏRB”
BAKI - 2013

Elmi redaktor: **Əliyev Rahib Oruc oğlu**
texnika elmləri doktoru

Redaktorlar: **Qaziyev Yusif Cəbrayıl oğlu**
Novruzov Lətif Qənbər oğlu

Paşayev Elbrus Paşa oğlu. Həsənov Fərzəli Həsən oğlu.
"Azdövsutəslayihə" İnstitutu – 80. Bakı, "Şərq-Qərb", 2013, 200 səh.

"Azdövsutəslayihə" İnstitutu – 80 "Azdövsutəslayihə" İnstitututunun tarixi və inkişaf yolu" kitabının əsasında yenidən işlənib. Kitabda 1917-ci ilə kimi çar Rusiyası hökumətinin Azərbaycanda pambıq bitkisinin yetişdirilməsi istiqamətində apardığı siyasət, Muğan düzünün təbii təsərrüfat şəraiti, Araz və Kür çaylarında su çarxlarından və digər üsullardan istifadə etməklə əkin sahələrinin suvarılması, Muğan düzündə pambıq bitkisinin becərilməsi məqsədilə magistral kanalların tikintisi, onların texniki göstəriciləri və istismar dövründə yaranmış problemlər, bu layihələrin həyata keçirildiyi müddətdə Rusiya ərazisindən gətirilmiş köçkünlərin məskunlaşdırılması, Araz çayında görülmüş sahil bərkitmə işləri və o dövrün mənzərəsini əks etdirən çoxsaylı tarixi fotoşəkillər verilmişdir.

"Azdövsutəslayihə" İnstitutunun əsası qoyulduğu 1930-cu ildən hazırkı dövrə qədər Azərbaycanda meliorasiya və su təsərrüfatı sahəsində həyata keçirilən layihələr, meliorasiya tikintilərinin texniki göstəriciləri, iri suvarma və kollektor-drenaj sistemlərinin foto şəkilləri, sxematik planları, bu sahəyə dövlət rəhbərliyinin ayırdığı diqqət, verilən göstəriş və tapşırıqların həyata keçirilməsi istiqamətində aparılan işlər, institutda fəaliyyət göstərmiş və hal-hazırda çalışan əməkdaşlar haqqında da əhatəli məlumatlar verilmişdir.

Kitab meliorasiya və su təsərrüfatı sahəsində çalışan və bu sahə ilə maraqlanan geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-448-98-6

© Paşayev Elbrus Paşa oğlu, 2013
© Həsənov Fərzəli Həsən oğlu, 2013

MÜNDƏRİCAT

G i r i ş 4

Azərbaycanın Su Təsərrüfatı 1850-1930-cu illər 6

“Azdövsutəslayihə” İnstitutu 1930-1950-cı illər 37

“Azdövsutəslayihə” İnstitutu 1950-1970-cı illər 55

“Azdövsutəslayihə” İnstitutu 1970-1991-cı illər 80

“Azdövsutəslayihə” İnstitutu Azərbaycan Respublikasının müstəqillik dövründə 118

“Azdövsutəslayihə” İnstitutunun fəaliyyət dövrünün qısa xronologiyası 184

Milli qəhrəmanımız.....186

“Azdövsutəslayihə” İnstitutunun direktorları:

Abbasov Mehdi Əli oğlu 188

Səlimbəyov Cəfər Vahab oğlu 190

Musayev Zülfüqar Fətulla oğlu 192

Paşayev Paşa Sirac oğlu 193

Əliyev Rahib Oruc oğlu 195

Paşayev Elbrus Paşa oğlu 197

İstifadə olunan ədəbiyyat 198

GİRİŞ

İnsanların Azərbaycan ərazisində məskunlaşması və əkinçiliklə məşğul olmasının tarixi çox qədim dövrləri əhatə edir. Cənubi Qafqazda aşkar edilmiş Eneolit dövrünə aid 150 erkən əkinçilik maddi-mədəniyyət nümunələrinin 70 faizdən çoxu Kür-Araz düzənliyindədir.

Kür-Araz düzənliyində suvarma aparmadan əkin sahələrindən məhsul götürmək mümkün deyil. Yəni, bu bölgədə su axmayan yerdə əkin sahəsi olmur. Münbit torpaq sahələri əkinçilik üçün istifadəyə yararsızdır. Respublikamızda kənd təsərrüfatı məhsulları bolluğunun yaradılması mövcud su ehtiyatlarından və torpaq sahələrindən səmərəli istifadə olunmasından asılıdır.

Su insanın həyat və fəaliyyətində ən mühüm əhəmiyyət kəsb edən təbii sərvətlərdən biridir. Su canlı aləmdə həyat prosesindəki vacibliyi nəzərə alınmaqla, planetimizin ən qiymətli sərvətidir. Təbiətdə bitki və canlı orqanizmlərdə baş verən bütün proseslər suyun iştirakı ilə həyata keçir. Bütün varlıqların yaradıcısı sudur. Müdrik insanlar su haqqında çox qiymətli sözlər demiş və ya öz fikirlərini yazaraq gələcək nəsillərə çatdırmışlar.

Suyun əhəmiyyəti haqqında deyilmiş fikirlərdən biri də fransız yazıçısı Antuan de Sent-Ekzüperiyə məxsusdur: "Su! Sənin nə dadın, nə rəngin, nə qoxun var. Səni təsvir etmək qeyri-mümkündür. Sənin nə olduğunu bilməyərəkdən səndən həzz alırlar. Sən həyat üçün lazımsan demək azdır. Çünki sən həyatın özüsən. Sən dünyanın ən böyük sərvətisən".

Dünyada minerallığı 1 q/l-dən az yerüstü təmiz su ehtiyatının 1 mln. kub km, 1 km dərinlikdəki yeraltı qatda isə 4 mln. kub km həcmində təmiz və ya az minerallaşmış olduğu proqnozlaşdırılmışdır.

Yer kürəsində olan təmiz su ehtiyatının ümumilikdə 5 mln. kub km həcmində olmasına baxmayaraq, onun dünyada paylanması qeyri-bərabərdir və antropogen təsirlərdən mövcud su ehtiyatları getdikcə azalır. Proqnozlara görə, enerji ehtiyatlarının XX əsrdə oynadığı rolu XXI əsrdə içməli su ehtiyatları oynayacaqdır. Azərbaycan Respublikasında su ehtiyatlarının qorunması və səmərəli istifadəsi daha böyük əhəmiyyət kəsb edir. Ölkəmizin illik yerüstü su ehtiyatı təxminən 32,3 kub km həcmindədir və 70 faizi qonşu ölkələrdə formalaşaraq transsərhəd çaylar vasitəsilə ərazimizə daxil olur. Qonşu ölkələr tərəfindən mövcud su ehtiyatlarımızın məhdudlaşdırılması və keyfiyyətcə dəyişdirilməsi imkanlarının olduğu şəraitdə əhalinin 70 faizdən çoxu transsərhəd sulardan müxtəlif məqsədlər üçün istifadə edir.

Kənd təsərrüfatı məhsullarının 85 faizindən çoxu suvarılan torpaqlardan götürülür. Mövcud əkin sahələrini suvarmaq məqsədilə hər il 8-10 kub km həcmində su tələb olunduğundan şirin su ehtiyatlarımızı qorumaq və səmərəli istifadə etmək ölkəmiz qarşısında duran mühüm problemlərdən biridir.

Torpaq yüz illər ərzində millimetrlərlə mürəkkəb proseslərdən sonra yaranan, bitkilər, heyvanlar, mikroorqanizmlər və başqa canlılarla yanaşı, insanların da yaşayış mənbəyi, bəşəriyyətin varlığında həlledici rol oynayan başlıca sərvətdir.

İnsanların qida mənbəyi "torpaq-bitki-insan" və ya "torpaq-bitki-heyvan-insan" sistemlərinin qarşılıqlı əlaqəsindən yaranır. "Məhsul bolluğunun atası əməkdirsə, torpaq onun anasıdır" deyimini insanlar mədəniyyət tarixləri ilə həmyaşıd olan meliorasiya tədbirlərini həyata keçirməklə gerçəkləşdiriblər. Tarixi mənbələrdən aydın olur ki, məhsul bolluğu yaratmaq məqsədilə müxtəlif dövrlərdə bu bölgədə yaşayan insanlar Kür-Araz düzənliyində suvarma sistemləri yaratmış, əkinəyararlı torpaq sahələrini davamlı olaraq genişləndirmək üçün müvafiq tədbirlər görmüşlər.

Azərbaycan Respublikası ərazisində kənd təsərrüfatında istifadəyə yararlı olan 4,5 mln. hektardan 3,2 mln. hektarı əkinçilik üçün suvarmanın aparılmasını tələb edən torpaqlardır. Kifayət qədər su ehtiyatı olmadığına görə hazırda suvarma aparılan torpaqların ümumi sahəsi

1,433 mln. hektardır ki, bunun da 75 faizi Kür-Araz düzənliyindədir. Hazırda suvarma sistemlərində ümumi uzunluğu 51755 km olan kanallardan, ümumi uzunluğu 29640 km olan kollektor, su toplayanlar və drenlərdən, bu sistemlərdəki 118 min müxtəlif təyinatlı hidrotexniki qurğulardan, istismarda olan 910 ədəd nasos stansiyalarından, 7119 ədəd subartezian quyularından, ümumi su tutumu 21,5 kub km həcmində olan 135 su anbarından, çayların su ehtiyatından səmərəli istifadə etmək üçün müxtəlif konstruksiyalarda tikilmiş 14 hidroqovşaqlardan, Kür, Araz və digər daşqın törədən çayların sahillərində tikilmiş 1700 km uzunluğunda olan mühafizə bəndlərindən və digər qurğulardan səmərəli istifadə edilir.

Xalqımızın gərgin əməyi nəticəsində yaradılmış milli sərvətimiz olan su təsərrüfatı kompleksinin tikintisini və idarə olunmasını Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti həyata keçirir.

Azərbaycan Respublikasında su ehtiyatları dövlətin mülkiyyətindədir. Onların mühafizəsi, istifadəsi və idarə olunması Azərbaycan Respublikasının qəbul olunmuş Qanunlarına və hüquqi normativ sənədlərə əsasən həyata keçirilir.

“AZDÖVSUTƏSLAYİHƏ” İNSTİTUTU – 80” institutunun tarixinə həsr olunmuş “Azdövsutəslayihə” İnstitutunun tarixi və inkişaf yolu, Bakı 2010, kitabının əsasında yenidən işlənib.

AZƏRBAYCANIN SU TƏSƏRRÜFATI

1850-1930-CU İLLƏR

Məlumdur ki, kənd təsərrüfatı bitkilərinin normal inkişafı üçün torpağın üst bitki qatında 4 amil qida maddələri, istilik, hava və su eyni vaxtda tələb olunan miqdardadırsa, bu halda əkin sahələrində becərilən bitkilərdən nəzərdə tutulan məhsuldarlığa nail olmaq olar. Kür-Araz düzənliyində əkinçilik ilə məşğul olan insanların kənd təsərrüfatı bitkilərindən yüksək məhsuldarlıq götürməsi üçün torpaqlarda kifayət miqdarda qida maddələri, əlverişli hava və istiliyi olan təbii şərait mövcuddur. Ancaq bölgədə havalar istiləşdikcə torpağın üst qatında su çatışmadığına görə bitkilərin kök sistemlərinin normal inkişafı dayanır və bitkilər tədricən məhv olur. Yəni, bu bölgədə əkinəyararlı "torpaqlar" yalnız suvarılması mümkün olanda çox qiymətlidir.



Kür-Araz düzənliyində suvarma suyu əkinçilyin əsasıdır

Dünyanın quru iqlimə malik arid regionlarında olduğu kimi Kür-Araz düzənliyində də, su mənbələrindən kanallar çəkməklə əkin sahələrində suvarmanın aparılma tarixi çox qədim dövrlərdən mövcuddur. Ümumiyyətlə, Azərbaycan ərazisində suvarmanın tarixi insanların əkinçiliklə məşğul olduğu vaxtdan başlanmışdır. Yəni bu regionda meliorasiya tədbirlərinin həyata keçirilməsi insanların mədəniyyət tarixi ilə həmyaşıddır.

Tarixi mənbələrdən aydın olur ki, əkin sahələrini suvarma suyu ilə təmin etmək üçün Azərbaycan ərazisində məskunlaşmış insanlar ağır yaşayış və çətin iş şəraitinə baxmayaraq davamlı olaraq çalışıblar. Bəzi dövrlərdə qısamüddətli olsa da, öz istəklərinə yetərincə nail olduqları illər də olmuşdur.

Kür-Araz düzənliyində yaşayan əhali, suvarma suyunun mənbəyi olaraq Kür və Araz çayları ilə yanaşı, başlanğıcını Kiçik Qafqaz dağlarından götürən İncəçayın, Tərtərçayın, Xaçınçayın, Qarqarçayın, Köndələnçayın və digərlərinin suyundan istifadə etməklə Qarabağ və Mil düzlərində, mənbəyini Böyük Qafqaz dağlarından götürən Əlicançayın, Türyançayın, Göyçayın, Girdimançayın və Ağsuçayın suyundan istifadə edərək Şirvan düzündə qədim dövrlərdən başlamaqla əkin sahələrini suvarmışlar.

Azərbaycanın Muğan, Mil və Qarabağ düzlərində, Naxçıvanda əkinçilik e.ə. II minilliyin sonları, I minilliyin əvvəllərində süni suvarmaya əsaslanmışdır.

Mil düzündə V əsrdə inşa edilmiş Gavurarx magistral kanalı Araz çayından qəbul etdiyi suyu 66 km məsafədə Qarqarçaya qədər axıtmışdır. Bu kanalın yerlərdə qalmış izlərini hazır-

kı vaxtda da görmək mümkündür. Mil düzündə 60 km uzunluğunda tikilmiş Daşçayarx kanalının çəkiliş dövrünün VI–VII əsrlərə aid olduğu bildirilir.

Qarabağ xanlığının tarixini yazan Mirzə Camal Cavanşir göstrərmişdir ki, Mil-Qarabağ düzündə Gavurarx, Xanarx və Daşçayarx kanallarından başqa Araz çayından su qəbul edən 14 iri kanal olmuşdur.

Muğan düzündə Araz çayından və Bolqarçaydan su qəbul edən, biri digərini kəsən "Ye-yin-Gavurarx" kanalları olub.



Muğan və Mil düzlərində 1869-cu ildə mühəndis suvarma sistemi olmayıb

Tarixçilər XIII əsrin sonlarında payız və əsasən yazın ilk aylarında Muğan düzünü yaşıl otlu çöl və seyrək əhalisi olan bölgə kimi təsvir etmişlər. Verilmiş xəritələrdə Bolqarçaydan başlamaqla bu bölgə köçəri həyat sürən əhalinin qışlaq yeri kimi göstərilmişdir. Muğan və Mil düzlərində yay aylarında olmuş səlnaməçilər bu bölgələri səhra adlandırmışlar.

İran hökmdarı Nadir şahın salnaməçisi XVIII əsrin ortalarında yazmışdır: "Muğan çölü səthi düz, geniş bir ərazidir. Bütün düzdə xırda daş parçası tapmaq mümkün deyil. Düzün səthi o dərəcədə hamardır ki, yay aylarında yerə düşmüş alma uzaq məsafədən görünür. Su-

varma işləri demək olar ki, yox səviyyəsindədir. Aprel və may aylarında Araz çayında baş verən daşqınlardan sonra geniş ərazilər su altında qalır".

M.Avdeyev 1927-ci ildə Bakıda nəşr etdirdiyi "Muğan və Salyan düzü" əsərində yazmışdır: "1860-1870-ci illərdə Muğanın orta hissələrində əhalinin daimi yaşadığı bir kənd də olmayıb". Digər mənbələrdən aydın olur ki, bu ərazilər heyvandarlıqla məşğul olan əhalinin qış aylarında müvəqqəti yaşayış yeri olmuşdur.

Kür və Araz çaylarının sahilləri boyunca ensiz zolaq şəklində uzanan ərazilərdə yaşayan yerli əhali, çayların suyundan suvarmada istifadə etmək məqsədilə daşqın müddətində əraziyə tökülən suları əvvəlcədən çəkdikləri kanallarla nəzərdə tutulan sahələrə və ya çala sahələrdə yaranmış gölməçələrə axıtmışlar. İlin qalan vaxtlarında susuz qalan bu kanallar "quru-arx" adlandırılıb. İstifadə olunan hər bir "quru-arxın" öz sahibi də olmuşdur. Çalalara toplanmış sulardan və "quru arxlardan" istifadə olunmaqla əkin sahələrini 1 və ya 2 dəfə suvarmaq mümkün idi. Çaylarda güclü daşqınlar olmayan illərdə çalalardan əkin sahəsi kimi də, istifadə olunmuşdur. Tərkibində zəngin qida maddələri olan çay gətirmələri çalalara toplandığından, bu sahələrdə torpaqlar çox münbit olmuşdur. Əlverişli iqlim şəraitində bitkilərin (buğda, arpa, küncüt və digərləri) məhsuldarlığı da yaxşı idi. Qaraçala su tutumunun həcminə və əkin sahəsi kimi istifadəsinə görə çalaların ən böyüyü olub. Muğanda süni yaradılan çalalardan uzun illər geniş istifadə olunmuşdur.

Uzun illər Kür və Araz çaylarının sahillərində quraşdırılmış su çarxlarından və təkərlərdən istifadə etməklə əkin sahələrinə su verilmişdir. Quraşdırılmış çarxlar yerli şəraitdən asılı olaraq, dəvə, at, öküz və ya digər qoşqu heyvanlardan istifadə etməklə və ya suyun axma sürətilə hərəkətə gətirilmişdir. Bir çarxın qaldırdığı su ilə 4 hektar əkin sahəsini suvarmaq mümkün olmuşdur. XIX əsrin ikinci yarısında Cavad qəzasında (İmişli, Saatlı, Sabirabad, Hacıqabul rayonlarının yerləşdiyi ərazilər) təxminən 4 min çarxdan istifadə olunmuşdur.

Çar Rusiyası ilə İran dövləti arasında 1813-cü ildə bağlanmış Gülüstan muqaviləsinə əsasən Şirvan və Qarabağ xanlıqlarının tərkibində olan Muğan və Mil düzlərinin əraziləri Rus

Muğan düzü Araz çayında baş verən daşqın sularının altında qalıb.



Heyvandarlıqla məşğul olan insanların yaşadığı dəyə. 1913*

Ailənin dəyəsi. 1913

* Dəyə – Qarğıdan, ağac çubuqlarından düzəldilmiş komacır, alaçıq

Qışlaq yerindəki obada məskunlaşmış ailələrdən biri. 1913*

Obada məskunlaşmış ailələrdən biri. 1913

* Oba - Bir neçə dəyədən ibarət kiçik ibtidai yaşayış məntəqəsi, kiçik kənd



Qışlaq yerindəki obada məskunlaşmış ailələrdən biri. 1913

Obada keçirilən tədbirlərdən biri. 1913



Qışlaq yeri olan Mil və Muğan düzləri isti yay aylarında səhraya çevrilirdi.

dövlətinin ərazisinə birləşdirildi. Əkinəyararlı torpaq sahələrində pambıq bitkisinin becərilməsinin mümkünlüyünü araşdırmaq məqsədilə Çar hökumətinin yer quruluşu və əkinçilik idarəsinin nümayəndəsi 1813-cü ildə Muğana gəldi. O, bölgə ilə tanış olduqdan sonra məlumat olaraq yazmışdır ki, Muğan çölü əhali yaşamayan səhradır, ərazi ilanlarla doludur. Ot bitkiləri əsasən yovşanlardan ibarətdir. Qış aylarında heyvan saxlayan köçəri əhaliyə də rast gəlmək olar.

Çar Rusiyasında toxuculuq sənaye sahəsinin zəif olması pambıqçılıq sahəsini uzun illər hökumətin diqqətindən kənarda saxlayıb. Bu illərdə Azərbaycan ərazisində su təsərrüfatının inkişaf etdirilməsi istiqamətində işlərin görülməsinə ehtiyac duyulmamışdır. Pambıq bitkisi becərilən bütün Zaqafqaziya ərazisində 1840-cı ildə istehsal olunmuş pambığın miqdarı 39 min put (62,4 ton) olmuş ki, bunun da 30 min putu (48 ton) İrəvan əyalətində toplanmışdır. İstehsal olunmuş pambığın lifləri qısa, keyfiyyəti isə aşağı idi.

Şimali Amerikada 1861-cı ildə başlayan vətəndaş müharibəsi Zaqafqaziya regionunda istehsal olunmuş pambığın satış qiymətinin 1 ay ərzində 4-5 dəfə artırılmasına səbəb oldu. Yüksək qiymət artımını görən Azərbaycan ərazisində yaşayan əhali də mümkün bütün variantlardan istifadə etməklə pambıq əkilən sahələri genişləndirməyə başlamışlar. Bölgədə pambıqçılığın inkişaf etdirilməsi üçün, su təsərrüfatı sahəsində müəyyən işlərin aparılmasına maraq artdı.

Çarın Qafqaz canişini knyaz Baradinski mərkəzi hakimiyyətdən aldığı göstərişə əsasən regionda su təsərrüfatı sahəsini inkişaf etdirmək məqsədilə 1860-cı ildə Bakı-Poti dəmir yolunun çəkilişinə dəvət olunmuş ingilis mühəndisləri Belli və Qabbaya aşağıdakı məsələləri araşdırmağı tapşırmışdır:

- Qafqazda suvarma aparılan sahələrdə su təsərrüfat sistemlərinin mövcud vəziyyəti;
- Əhalinin istifadəsindən sonra çaylarda qalan artıq su həcminin müəyyən edilməsi;

Muğanda oba. 1913

- Çayların su ehtiyatlarından istifadə etməklə yeni əkin sahələrini suvarmaq üçün kanalların layihələndirilməsi.

Belli və Qabba 8 il müddətində regionda olan çayların və əsasən Kür və Araz çaylarının hövzələrində tədqiqat işləri apararaq su ehtiyatlarından suvarmada istifadə olunmasına aid çoxsaylı layihələrin sxemlərini hazırlamışlar. Azərbaycan ərazisində pambığın istehsalını artırmaq üçün Belli və Qabbanın su təsərrüfatı sahəsini inkişaf etdirmək məqsədilə hazırladıqları bu layihələr Rusiya və xarici dövlətlərdən olan kapitalistlərdə böyük marağa səbəb oldu.

Rusiyada fəaliyyət göstərən ingilis suvarma kompaniyası Muğan düzünü 99 il müddətinə icarəyə götürmək istəyində olduğu haqda Çar hökumətinə rəsmi qaydada müraciət etdi. Verilmiş təklifdən aydın olurdu ki, suvarma kompaniyası icarə haqqını ödəyir, Muğanda aparılacaq su təsərrüfatı tikintilərinin xərcini özü çəkir, icarə müddəti bitdikdən sonra əkin sahələrinin suvarılmasını təmin etmiş bütün qurğuları işlək vəziyyətdə təmənnasız olaraq sifarişçi tərəfə təhvil verir. Çar hökuməti ingilis suvarma kompaniyasının bu təklifini qəbul etmədi.

Çar hökumətini bu regionda təmsil edən Qafqaz canişininə Mil düzünü bütövlükdə və ya müəyyən hissəsini, Ələtdən Lənkəran şəhərinə kimi Xəzər dənizi sahilindəki düzən əraziləri icarəyə götürməsi haqqında 1880-ci ildə məmur İlimovun müraciəti olmuşdur.

Tiflis quberniyasının sakinləri, Peterburq şəhərində ticarətlə məşğul olan Mahalov və Şaburov, Mil düzündə tədqiqat işləri gördürən alman Bumqe 1882-ci ildə Mil düzünü müəyyən müddətə icarəyə götürmək istəklərində olduqlarını bildirərək Çar hökumətinə müraciətlər etmişlər. Göstərilən bu təşəbbüslər də nəticəsiz qalmışdır.

Şimali Amerikada vətəndaş müharibəsi sona yaxınlaşdıqca dünya bazarında pambığın satın alınma qiymətinin aşağı düşməsi, iş adamlarının bu sahəyə marağını tədricən azaltdı. Kür-Araz düzənliyində suvarılan sahələrdə becərilən pambıq bitkisi tədricən taxıl və bostan bitkiləri ilə əvəzləndi. Bununla da bölgədə su təsərrüfatı sahəsində nəzərdə tutulan işlər dayandırıldı.

XIX əsrin sonlarına yaxın xarici ölkələrdən Rusiyaya gətirilən pambığın gömrük haqqının ilbəil artması, ölkənin toxuculuq sənayesi sahəsində fəaliyyət göstərən fabrik sahibkarlarının diqqətini yenidən pambıq bitkisinin becərilməsi mümkün olan regionlara yönəltmişdir.



Əkin sahələrini suvarmaq üçün Kür və Araz çaylarında geniş istifadə olunmuş su çarxı. 1913



Araz çayı sahilində quraşdırılmış şu çarxı

Kür çayından su çarxı ilə əkin sahəsinə su verilir. 1913

Car hökuməti və rus burjuaziyası Mil və Muğan düzlərində pambıqçılığa və rus müstəmləkəçilik işinə təkan vermək məqsədilə ilk növbədə bu bölgədə su təsərrüfatı sistemləri yaratmağa çalışdı.

1870-ci ildə Peterburqda keçirilən sənaye qurultayında Moskva manufakturalarında işlədilən Amerika pambığını Azərbaycanın Mil və Muğan düzlərində əkiləcək pambıqla əvəz etmək haqqında məsələ müzakirə edilmişdir. Qurultayda məhşur fabrikant Morozov tərəfindən Mil düzündə aparılmış sınaq təcrübəsinə əsaslanaraq Mil və Muğan düzlərini pambıqçılığın vətəninə çevirmək qərarı qəbul edilmişdir. Qərarı həyata keçirmək üçün Mil və Muğan düzlərində aparılan axtarış-tədqiqat işlərinin miqyası daha da genişləndirilmişdir.

Qafqaz canişinin əmri ilə 1879-cu ildə Mil və Muğan düzlərində təbii şəraiti öyrənmək məqsədilə rus mühəndisləri Psariyev və İvanov Azərbaycana göndərildi. Aparılan axtarış-tədqiqat işləri nəticəsində aydın olmuşdur ki, ərazidəki torpaqlardan demək olar ki, əkinçilik üçün istifadə olunmur. Əlverişli iqlim nəzərə alınmaqla qış aylarında ərazidə xırda və iri-buynuzlu heyvanlar saxlanılır. Tədqiqatçıların fikrincə heyvandarlıqla məşğul olan yerli əhalini əkinçiliklə məşğul olmağa vadar etmək və bu bölgəyə rus kəndlilərini köçürməklə qəbul olunmuş qərarı həyata keçirmək olar. Mühəndislər tərfindən Mil düzündə qədim dövrlərdən qalmış Daşçayarx, Xanarx, Sultanbutarx və Govurarx kanallarının bərpa layihələri də tərtib olunmuşdur.

Mil və Muğan düzlərində 1880-ci ildə S.N.Veysenqofun, 1888-ci ildə İ.Jilinkskinin rəhbərdlik etdiyi ekspedisiyalar tərəfindən də geniş tədqiqat işləri aparılmışdır.

Qeyd etmək lazımdır ki, aparılmış bu tədqiqat işlərinin nəticəsi də təklif olaraq kağız üzərində qaldı. Zaqafqaziyadakı hakimiyyət orqanları başa düşürdülər ki, 10-larla arxın təmiri və bərpa olunması bu bölqədə nəzərədə tutulan işlərin həyata keçirilməsi üçün kifayət deyil. Odur ki, milli müstəmləkə siyasətinə uyğun olaraq rus kəndlərinin kütləvi şəkildə bölgəyə köçürülməsi istiqamətində hazırlıq işlərinə başlandı.

Zaqafqaziyada su təsərrüfatı sahəsini inkişaf etdirmək məqsədilə hökumət yenidən tədqiqat işlərinin aparılmasına göstəriş verdi. Hökumətdə Əmlak və Əkinçilik naziri vəzifəsini tutan general-leytenant Jilinskinin rəhbərliyi altında regionlarda işləyəcək komissiya yaradıldı. Muğan düzündə Kür və Araz çayları boyunca suvarma layihələrini tərtib etmək məqsədilə 1895-1896-cı illərdə mühəndis Navrotskinin başçılığı altında tədqiqat-axtarış işləri aparıldı. Muğan düzünün iqlimi, relyefi və torpaq örtüyü haqqında geniş məlumatlar toplanıldı.

Ekspedisiyanın Muğan düzündə işlədiyi 1896-ci ildə Araz çayında tarixdə qeydə alınmamış və bölgəyə fəlakət gətirən güclü daşqın sərfi baş verdi. Çay, indiki Saatlı rayonu ərazisində sağsahil dambasını yararaq öz məcrasından çıxdı və bütün Muğan düzünü su altında qoyaraq Xəzər dənizinə töküldü. Bölgədəki yaşayış məntəqələrinə, əkin sahələrindəki mövcud su təsərrüfatı və meliorasiya sistemlərinə ciddi ziyan vurdu. Muğan düzündə Ağ-çala və Mahmud-çala gölləri yarandı. Tədqiqat işini aparan mütəxəssislər baş vermiş təbii fəlakətlə bağlı nəzərdə tutulmuş işləri dayandırmalı oldular. Daşqından sonra məlum olmuşdur ki, Araz çayı məcrasını dəyişmiş, "Yeni Araz" adlanan məcra yaranmışdır.

Onu da qeyd etmək lazımdır ki, Araz çayında baş vermiş daşqın nəticəsində Muğan düzündə yerin üst hissəsi su ilə birlikdə münbit bərk hissəciklər - asılı gətirmələrlə də örtüldüyündən, müəyyən müddətdən sonra əkin sahələrində torpağın münbitliyinin xeyli dərəcədə artdığı da müşahidə olunmuşdur.

XX əsrin əvvəllərində Muğanda axtarış işləri aparmış tədqiqatçılardan biri baş verənlərə münasibətini bildirərək yazmışdır: "Araz çayı 800 km-ə bərabər uzunluğu boyu hövzəsində olan dağ süxurlarını axımında toplamış, xırdalamış və üyüdərək ən narın və qiymətli hissəciklərini Muğan düzünə gətirmişdir". Mütəxəssislərin hesablamalarına görə, Araz çayı

ilə Kürə gətirilən bərk hissəciklərin tərkibindəki qida maddələrinin miqdarına gübrə kimi baxılsa, qiyməti sabit valyuta ilə milyonlarla hesablanar. Daşqından sonra Muğan düzündə əkilmiş pambıq bitkisinin məhsuldarılığı qonşu ərazilərlə müqayisədə ciddi artımı ilə fərqlənmişdir. Yaranmış əlverişli şəraiti nəzərə alan dövlət və iş adamları Muğan düzündəki əkinəyararlı torpaq sahələrindən istifadə etməyə çalışmışlar.

İ.A.Moyevskinin rəhbərliyi ilə 1899-1900-cü illərdə Muğana gələn mütəxəssislərdən təşkil olunmuş ekspedisiya geniş miqyasda tədqiqat və axtarış işləri apardı. Toplanmış məlumatlar Muğan düzündə yeni suvarma layihələrinin aparılmasına təkan verdi. Bu illərdə başlanğıcını Novonikolayevka kəndinin 3 km-də "Yeni Araz"ın sol sahilindən götürən 5,25 km uzunluğunda mühəndis-hidrotexniki tipli Sarıcalar kanalı tikildi. Sarıcalar kanalı "Yeni Araz"dan su götürərək 19 qışlaq yerində 22 min hektar sahəyə su verilməsini təmin etməli olan Molday və Minbaşılı kanallarının tikilməsinə şərait yaratdı. Bununla da "Yeni Araz"dan su götürən kanalların ümumi uzunluğu 70 km-ə çatdırıldı.

Çar hökuməti Azərbaycanda su təsərrüfatı sahəsini inkişaf etdirməklə yanaşı, müstəmləkəçilik siyasətinə tam uyğun olaraq tikinti işləri apardıqları ərazilərdə rusların sayını artırmaqla, məhsuldar torpağı olan əraziləri bütövlükdə özününküləşdirməyi nəzərdə tuturdu. XIX əsrin sonu və XX əsrin əvvələrində Muğan, Mil və Şirvan düzlərinə rus köçkünlərini yerləşdirməklə nəzərdə tutulmuş genişmiqyaslı işlərin bünövrəsi qoyuldu. Kür çayı ilə Arazın qovuşduğu yerdə 1881-ci ildə Petropavlovka (indiki Sabirabad şəhəri) qəsəbəsi salınmışdır.

Hökumət Muğan düzündə suvarma şəbəkələrinin tikilməsi məqsədilə 1900-cü ildə layihə-axtarış işlərinə dövlət vəsaiti ayırmağa başlamışdır. Geniş miqyasda tədbirlər planını hazırlamaq və nəzərdə tutulan işləri yerinə yetirmək üçün Qafqazda "Su müfəttişliyi" yaradıldı.



Kür çayının sahilində quraşdırılmış nasos. 1913



1920-ci ilə kimi Muğan düzündə tikilmiş mühəndis suvarma kanallarının cxematik planı.

Müfəttişliyin hazırladığı layihə əsasında Şimali Muğanda tikilən ilk mühəndis-hidrotexnika tipli qurğu Gur-gur kanalı olmuşdur. Kanal suyu Sarıcalar kanalından qəbul edərək 1000 hektar sahəni suvarma suyu ilə təmin etmişdir. Qolitsın (Sabir) suvarma sisteminin yaradılmasında bu kanalın tikintisi başlanğıc idi. Suvarma şəbəkəsinin tikintisi aparılan bir vaxtda, Qolitsın kanalı boyunca Rusiya ərazisindən gətirilmiş köçkünlərin məskunlaşdırılmasına da başlandı. Qədim Gur-gur − Qobu suvarma kanalı yenidən quruldu və Aşağı Qolitsın kanalı çəkildi. Çaydan kanala su ötürəcək suqəbuledici Petropavlovka kəndində olmaqla, Aşağı Qolitsın kanalı şimal-şərqdən cənub-qərbə doğru 12,75 km uzunluğunda tikildi. Qolitsın suvarma sistemi tikildikcə, ərazidə 1901-1902-ci illərdə Rusiyadan gətirilmiş köçkünlər yaşayan Nikolayevka, Pokrovka (Qaratəpə) və Mixaylovka qəsəbələri salındı.

Azərbaycanda pambıq istehsalını artırmaq məqsədilə XIX əsrin axırı və XX əsrin əvvəllərində rus köçkünləri üçün Şimali Muğan düzündə 14, Cənubi Muğan düzündə isə 20 qəsəbə tikilmişdir.

Muğan düzünün 1925-ci ildə çəkilmiş xəritəsindən göründüyü kimi:

Şimali Muğanda: Petropavlovka (Sabirabad), Pokrovka (Qaratəpə), Ukrotruba, Novodonetski, Suslovka, Aleksandrovka (Şəhriyar), Vladimirovka (Nizami), Novoye Xersonovka (Nəsimikənd), Krasnoselski (Qara Nuri), Nikonov, Severskoye, Burnaşevko, Tverskoye, Qolovino qəsəbələri;

Cənubi Muğanda: Pervomayskoye (Hacıbabalı), Lenin, Suvorovka (Hacı Rüstəmli), Brusilovka, Romanovka, Novotroisko (Nəsimikənd), Konstantinovka (İsmətli), Kirovka

УСЛОВНЫЕ ЗНАКИ:
Земли тюркских земельных обществ.
Земли русских земельных обществ.
Земли тюркско-русских земельных обществ.
Земли
Ленино.
Остаро-авад
Мурсалиб
Молдаш
Оменбаш
Оклаверино
Оленджалар
Кара-нарадонлыр
Хубарлы
Ов.чахилы
Ордыбаш-кенд
Ордыбаш-кенд
Ордыбаш-кенд

Карта Муганской степи

с обозначением границ фактического землепользования земельных обществ, организованных при землераспределительных работах в 1925 году в Сальянском уезде.

МАСШТАБ:

в английском дюйме 4 версты.


Ленино
гор. Сальяны
Озеро
Ахчала
Дерикчала
Ханкендинская
Ханкендинское
Ханкендинская
Ханкендинское
Ханкендинская
Ханкендинское

(Günəşli), Fioletov (Caylı), Tatyanovka (Çinarlı), Velikoknyajeskoye, Boqoslovka, Arxangelovskoye (Bağbanlı), Abazovka (Zəhmətabad), Puşkino, Qriboyedovo, Baratinskoye, Muralyovka (Muğan kənd), Karyagino (Füzuli), Slepstovo yaşayış məntəqələri salınmışdır.

Kür çayının suyundan mexaniki üsulla suvarmada istifadə olunmasına 1900-cü ildən başlanmışdır. Kür çayı üzərində sayca ikinci nasos stansiyası Salyan şəhəri yaxınlığında yaradılmışdır. 1904-cü ildə Kür ətrafında ayrı-ayrı şəxslərə məxsus Almaniya və İngiltərə dövlətlərindən gətirilmiş 5 nasos stansiyasından istifadə edilirdi. 1915-ci ilin məlumatına görə, Kür çayı üzərində 100-ə yaxın nasos stansiyasının köməkliyilə 50 min hektar sahə suvarılmış, bunun da 25 min hektarında pambıq bitkisi becərilmişdir.

Qeyd etmək lazımdır ki, bölgədə yerləşdilirmiş ruslarla yerli əhali arasındakı münasibətlər bütün dövrlərdə qarşılıqlı anlaşma şəraitində, çox yaxşı olmuşdur. Bölgədə əkinçilik mədəniyyəti yüksəlmiş, heyvandarlıq sahəsi inkişaf edib, qarşıya çıxan bütün problemlər ərazidə yaşayan əhalinin birgə səyi ilə aradan qaldırılmışdır.

Qafqaz Su Müfəttişliyinin mutəxəssisləri tərəfindən, 1902-ci ildə Muğan düzündə heyvandarlıqla məşğul olan əhalinin qış aylarında otlaq kimi istifadə etdikləri 175 min hektar qışlaq yerlərində Araz çayından su götürməklə, yeni əkin sahələrini suvarma suyu ilə təmin edəcək 3 ədəd magistral kanalın layihələri tərtib olunmuşdur. Sonraki illərdə "Yeni Araz"ın cənubunda yerləşən 155 min hektar ərazidə meliorasiya layihələrinin hazırlanması da nəzərdə tutulmuşdur.

1900-1916-cı illərdə Muğanda ümumi uzunluğu 297.2 km olan Yuxarı Qolitsın (Sabir), Aşağı Muğan (Mürsəlli), Yuxarı Muğan (Əzizbəyov) və Orta Muğan (Nərimanov) magistral kanallarının tikilməsi planlaşdırılmışdır. Ancaq bölgədə əkinəyararlı torpaqların mənimsənilməsi üçün əmək ehtiyatlarının az olması hazırlanmış layihələrə bəzi dəyişiklik edilməsi ilə nəticələnmişdir. Layihələrə edilmiş dəyişikliklər nəzərə alınmaqla 1910-1917-ci illərdə Muğan düzündə 4 magistral kanal tikilmişdir.

Yuxarı Qolitsın (Sabir) magistral kanalının uzunluğu 84 km, layihə sərfi 21,3 m^3/san nəzərdə tutulsa da, istismara verilində apardığı sərf 2,5 m^3/san, suvarma suyu ilə təmin etdiyi əkin sahəsi 16,3 min hektar (ilkin varianda 21,3 min hektar) olmuşdur. Kanal 1905-1908-ci illərdə tikilmişdir. Araz çayından suqəbuledicinin yeri, hazırkı Saatlı rayonunun ərazisində idi. Kanalın çəkilişində 1,8 mln. m^3 həcmində torpaq işi görülmüşdür.

Aşağı Muğan (Mürsəlli) magistral kanalının uzunluğu 70,3 km, layihə sərfi 36,8 m^3/san nəzərdə tutulsa da, kanal istismara verilində apardığı sərf 10 m^3/san, kanalın suvarma suyu ilə təmin etdiyi sahə 7,3 min hektar (ilkin variantda 41,4 min hektar) olmuşdur. Kanal 1910-1916-ci illərdə tikilmişdir. Araz çayından suqəbuledicinin yeri Mürsəlli kəndində idi. Kanalın tikintisində 3,58 mln. m^3 həcmində torpaq işi görülmüşdür.

Orta Muğan (Nərimanov) magistral kanalının uzunluğu 76,7 km, layihə sərfi 41,9 m^3/san, suvarma suyu ilə təmin etdiyi sahə 66,9 min hektar olmuşdur. Kanal 1912-1917-ci illərdə tikilmişdir. Araz çayından suqəbuledicinin yeri Qaradonlu kəndində idi. Kanalın çəkilişində 5,08 mln. m^3 həcmində torpaq işi görülmüşdür. Əmək ehtiyatlarının olmadığına görə, bu kanaldan əkin sahələrinin suvarılmasında istifadə olunmamışdır.

Yuxarı Muğan (Əzizbəyov) magistral kanalının uzunluğu 66,2 km, layihə sərfi 30,9 m^3/san planlaşdırılsa da, istismara verilində apardığı sərf 2,9 m^3/san, su ilə təmin etdiyi sahə 1,5 min hektar (ilkin variantda 32,7 min hektar) olub. Kanal 1910-1913-cü illərdə tikilmişdir. Araz çayından suqəbuledicinin yeri Bəhramtəpə idi. Kanalın tikintisində 2,55 mln m^3 həcmində torpaq işi görülmüşdür.

Muğanda 1917-ci ildə 42 min hektar əkin sahəsi suvarılmışdır ki, bunun da 26,5 min hektarında pambıq bitkisi becərilmişdir.

Orta Muğan kanalının tikintisi. 1913



Kanal kənarında salınmış binə. 1913



Araz çayından kanala su qəbul edilir. 1913



Orta Muğan kanalında şlüz. 1913



Kanal üzərində hidrotexniki qurgu.1913

Suqəbuledici qurğunun tikintisi. 1914

Suqəbuledici qurğu tikilir. 1914



Kanal tikintisində ekskovatordan istifadə olunur. 1915

Bütün magistral kanalların tikintisi bel, külüng, xərək və s. alətlərdən istifadə olunmaqla yerli və qonşu bölgələrdən gətirilmiş insanların çox ağır şəraitdə işlədilməsi nəticəsində başa çatdırılmışdır.

Muğanda tikilmiş kanalları istismara verildiyi ilk illərdən başlamaqla, çoxsaylı səbəblərə və əsasən də, layihə axtarış işlərində yol verilmiş qüsurlara görə layihədə nəzərdə tutulmuş göstəricilərə uyğun işlətmək mümkün olmamışdır.

Araşdırmalardan aydın olur ki, insanların ağır əl əməyi nəticəsində ümumi uzunluğu 297,2 km olan 4 magistral kanalın tikintisi başa çatdıqdan sonra layihədə nəzərdə tutulduğu kimi, 162,3 hektar əkin sahəsini suvarma suyu ilə təmin etməli olan kanalların nəql etdirdikləri su ilə cəmi 25,1 min hektar əkin sahəsi suvarılmışdır.

Lebedev N.A. 1918-ci ildə Tiflisdə nəşr etdirdiyi "Muğanın suvarma təsərrüfatı" əsərində Aşağı Muğan magistral kanalı haqqında yazmışdır: "Aşağı Muğan kanalının təsir zonasındakılar bədbəxt və xoşbəxt olmayandırlar…,su çatışmır, əkin sahəsinə istənilən həcmdə suvarma suyunun vaxtında verilməməsi xroniki hala çevrilmiş, elə bir il olmamışdır ki, burada suvarmalar normaya uyğun aparılsın".

Yuxarı Muğan kanalı istismara verildiyi ilk ildə kanalın istiqaməti boyu sahələrdə torpaqların şorlaşması baş verdi. Kanallara su qəbulunda fasilələr yarandı. Hər il Araz çayında gursulu dövr başa çatdıqda məlum olurdu ki, çay məcrasının çox su aparan hissəsi suqəbuledicidən uzaqlaşmışdır. Suqəbuledici qurğuların qarşısı çay gətirmələri ilə dolmuşdur. Məcranın bu hissəsi lillərdən təmizləndikdən sonra tələb olunan suyu kanala vermək mümkün olurdu. Bununla da əkin sahələrinə tələb olunan suvarma suyu vaxtında çatdırılmadığına görə bitkilər qismən və təmamilə məhv olurdu.

Muğanda torpaq məcrada yeni tikilmiş kanallardan sızmaya gedən suların, sahələrə suvarma normalarından dəfələrlə artıq həcmlərdə verilmiş suvarma suyunun, Araz və Kür çaylarında gursulu dövrlərdə baş verən daşqın sularının və digər amillərin təsirindən bölgədəki münbit torpaq sahələri bataqlaşmaya və şorlaşmaya məruz qalmışdır. Beləliklə bu illərdə Muğan düzündə müəyyən sahələrdə becərilən bitkilərin məhsuldarlığı kanallar çəkilməmişdən əvvəlki göstəricilərdən də aşağı olmuşdur.

Bölgədə yaşayış səviyyəsi ağır olduğuna görə və Rusiyada Çar hökumətinin devrilməsindən istifadə edən köçkünlər 1917-ci ildən sonra Muğanı tərk etməyə başladılar.

Muğanda su təsərrüfatı sahəsində aparılan işlərin gözlənilən nəticə verməməsinin səbəblərindən biri kimi, mühəndis-hidrotexnik ixtisası üzrə milli mütəxəssis kadrların olmadığını da göstərmək olar.

Qeyd etmək lazımdır ki, XIX əsrin ikinci yarısından başlamaqla Azərbaycan ərazisinin digər bölgələrində də, su təsərrüfatı sahəsində müvafiq işlər görülmüşdür.

Qarayazı düzündə 31 min hektar sahəni suvarmaq məqsədilə, 1864-1868-ci illərdə Paşa Qala qalası yaxınlığında Kür çayından suqəbuledən Qarayazı magistral kanalı tikildi. Kanalın Gürcüstan ərazisində 20 min hektar, Azərbaycan ərazisində isə 11 min hektar əkin sahəni suvaracağı nəzərdə tutulmuşdur.

Başlanğıcını indiki Ermənistan ərazisinin Əliməmməd kəndi yaxınlığından, Araz çayından götürən, sahibkar Kaxanov tərəfindən tikdirilən Kaxanov magistral kanalı 1872-ci ildə istismara verildi. Kanalın uzunluğu 36 km, suvardığı sahə isə 12 min hektardan artıq olmuşdur. Məmur A.P.Şan-Qreem 1870-ci illərdə Naxçıvan bölgəsinin Şərur düzənliyində 1500 hektar ərazidə əkin sahələrinin suvarılmasını təşkil edir. Magistral kanal suyu Arpa çayından götürürdü. Çayda su qıtlığı yaranan müddətlərdə Bazarçaydan tikilmiş tunellə Arpaçaya suvarma suyu axıdılırdı.

Daşqına qarşı sahil bərkitmə tədbiri

Azərbaycan ərazisində 1913-cü ildə 550 min hektar sahədə suvarma aparılıb ki, bunun da ancaq 50,6 min hektarında mühəndis-hidrotexniki suvarma sistemləri olmuşdur. Suvarılan sahələrin 347 min hektarında taxıl bitkiləri, 103 min hektarında isə pambıq bitkisi becərilirdi. Pambıq əkilən sahənin 1 hektarından orta hesabla 8 sentner məhsul götürülməklə, Azərbaycan ərazisində 82,4 min ton pambıq istehsal olunmuşdur.

Hələ çox qədim dövrlərdən Azərbaycan ərazisində kəhrizlərdən (yeraltı su kanalı) əkin sahələrinin suvarılmasında geniş istifadə olunmuşdur. 1917-ci ildə Yelizavetpol (Gəncə),



Mürəkkəb hidrotexniki qurğu olan kəhrizin profili
1 - suvarilan sahə, 2 - dağətəyi düzənlik, 3 - havadəyişdirici gözlər, 4 - baş quyu,
5 - üfiqi qalereya, 6 - atmosfer yağıntısı, 7 - sulu lay, 8 - su keçirməyən lay

Araz çayında daşqına qarşı sahil-mühafizə tədbirlərindən biri.

Şuşa, Cəbrayıl və Naxçıvan bölgələrində mövcud olan 1500-dən çox kəhrizlərin suyu ilə 40 min hektar sahə suvarılmışdır.

1921-ci ildə Azərbaycan ərazisində 552,7 min hektar suvarılan sahələrdən 124 min hektarında pambıq bitkisi becərilmişdir. Muğan düzündə 104 min hektar əkin sahəsinin 36 min hektarında, Şirvan düzündə 66 min hektar əkin sahəsinin 35 min hektarında, Mil-Qarabağ düzlərində 38 min hektar əkin sahəsinin 23 min hektarında pambıq bitkisi becərilmişdir.

Qeyd olunduğu kimi, Kür və Araz çaylarında baş verən daşqınlar müəyyən illərdə çay ətrafı ərazilərə fəlakət gətirirdi. Sahil dambalarını aşan daşqın suyu yaşayış məntəqələrinə, əkin sahələrinə, su təsərrüfatı sistemlərinə, kanallara, suötürən qurğulara və digər təsərrüfat sahələrinə ciddi ziyan vururdu. 1908-ci ildə Zərdab şəhəri sahəsində Kürün sol sahil dambasını yaran daşqın suları Şirvan düzündə 90 min hektar ərazini su altına almışdır.

1915-1919-cu illərdə Kür və Araz çayları müxtəlif hissələrdə məcrasından çıxmış, qoruyucu dambaları da aşaraq əkin sahələrini basmış, su təsərrüfatı sistemlərini dağıtmışdır.

Daşqınlara qarşı mübarizə məqsədilə 1900-cü ilə kimi Kür çayında Zərdabdan Salyana kimi, Araz çayında İran sərhəddindən başlamaqla Kürə kimi ümumi uzunluğu 270 km olan qoruyucu torpaq sahil bəndləri düzəldilmişdir.

1912-ci ildə Kür və Araz çaylarında daşqına qarşı mübarizə işləri aparan Qafqaz Su Müfəttişliyinin şöbəsi yaradılmışdır.

Başlanmış I Dünya müharibəsi, arxasınca Rusiyada Çar hökumətinin devrilməsi və V.İ.Lenin başda olmaqda bolşeviklərin hakimiyyətə gəlməsi, bu dövrdə Azərbaycanda gedən proseslərin mürəkkəbliyindən yaranmış qeyri-sabitlik, su təsərrüfatı sahəsinə baxımsızlıqla nəticələndi. 1915-1920-ci illərdə Muğan düzündə geniş əkin sahələrində torpaqlar şorlaşmış, suvarma sistemindəki kanallar yararsız hala düşmüşdür.

Daşqın suları nəticəsində dəmir yolunun bir hissəsi qəza vəziyyətinə düşüb



Kür-Araz çaylarının qovuşduğu yerdə sahil mühafizə qurğuları. 1913

Əkin sahələri daşqın sularından mühafizə edilir. 1915

Araz çayında daşqına qarşı sahil bərkitmə işləri

Araz çayı sahilində daşqınlara qarşı mühafizə qurğuları. 1913



Ağac konstruksiyasından mühafizə bəndi

Qeyd olunmalıdır ki, 1921-ci ildə Azərbaycan SSR XKS-nin sədri N.Nərimanovun təşəbbüsü ilə RK(b)P MK-nın Qafqaz bürosunda Muğan düzündə suvarma sistemlərinin bərpası, torpaqların meliorasiya olunması müzakirə edilmiş və mühüm qərarlar qəbul edilmişdir. Muğanda Rusiya Əmək və Müdafiə Şurasının tabeçiliyində Meliorasiya Tikintisi İdarəsi ("Muğanmeltikinti") yaradıldı. Moskvadan verilmiş sərəncamla "Muğanmeltikinti" idarəsinin rəisi S.Boqdatiyev təyin olundu. Qısa vaxt ərzində Muğan düzü ümumxalq tikintisinə çevrildi. Kür və Araz çaylarının sahillərində mühafizə bəndlərinin tikintisi dövlət əhəmiyyətli obyektə çevrildi. Ətraf bölgələrdən 18-45 yaşlarında olan əməkqabiliyyətli əhali, Rusiyadan və başqa respublikalardan gətirilmiş işçi qüvvələri, hərbi hissələrin əsgərləri də Muğanda aparılan tikinti işlərinə cəlb olunmuşdurlar.

Suvarılan torpaqlarda traktorlardan istifadə edilməsinin əsası Muğanda qoyulmuşdur. 1923-1925-ci illərdə Amerikadan, Almaniyadan, Çexoslovakiyadan gətirilmiş traktorlardan istifadə olunmaqla 18 min hektar sahə şumlanmışdır. Sovetlər ölkəsində ilk traktor bazası Muğanda yaradılmışdır. 1926-ci ildə "Muğanmeltikinti" idarəsi, 1923-ci ildən fəaliyyət göstərən Azərbaycan Su Təsərrüfatı Baş İdarəsinin tabeçiliyinə verildi. 1925-1930-cu illərdə Muğanda suvarma sistemlərində yararsız vəziyyətə düşmüş kanallar bərpa olunmuşdur. Sabir adına kanal yenidən qurulmuş, suqəbuledicilər bərpa olunmuş, kanalların suaparma qabiliyyəti artırılmış, torpaqların duzlardan təmizlənməsi və şorlaşmaya qarşı mübarizə tədbirləri həyata keçirilmişdir.

XX əsrin əvvəlindən Muğan düzündə əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə olunduğu bir vaxtda, becərilən bitkilərin məhsuldarlığının ilbəil azalması müşahidə olundu. Bu məsələni araşdırmaq, torpaqlarda münbitliyi müəyyən etmək məqsədilə 1901-1904-cü illərdə İ.A.Mayevski, M.F.Kalinin, E.A.Kamenetse, Kossoviç, Tulaykov, S.A.Zaxarov və digər mütəxəssislərin daxil olduğu xüsusi komissiyalar yerlərdə tədqiqat-axtarış işləri apararaq müəyyən etdilər ki, əkin sahələrində torpaqlar şorlaşmışdır. Şorlaşmanın səbəbi isə əkin sahələrinin suvarılması ilə əlaqəlidir. Torpaqlarda şorluq dərəcəsi yüksəldikcə bitkilərin də məhsuldarlığı aşağı düşmüşdür. Şorlaşmanı doğuran səbəb kimi qrunt suyunun səviyyəsinin yer səthinə yaxın dərinlikdə olması göstərilmişdir. Beləliklə, Muğan düzündə şorlaşmış torpaqların meliorasiya olunması kimi, yeni, daha mürəkkəb və həlli çətin olan problem yarandı.

Şorlaşmış torpaqların meliorasiya olunması üçün hazırlanmış tədbirlər planını həyata keçirmək məqsədilə 1914-cü ildə Şimali Muğanda sınaq-təcrübə sahəsinin yaradılması nəzərdə tutulsa da, I Dünya müharibəsinin başlanması bu layihənin həyata keçirilməsini dayandırdı. Kollektor drenaj sistemi tikməklə qrunt sularının səviyyəsini nizamlamaq, torpaqların meliorasiya olunma vəziyyətini öyrənmək məqsədilə Şimali Muğanda "Cəfərxan drenaj sistemi" adlı, elmi ədəbiyyatlarda ilkin məlumatlar kimi daima istifadə olunmuş layihə 1928-1931-ci illərdə həyata keçirildi. Cəfərxan kəndinin 700 hektar ərazisində orta dərinliyi 2,44-4,0 m, ara məsafələri 328-814 m, ümumi uzunluğu 5,620 m olan 6 ədəd örtülü dren, orta dərinliyi 2,15 m, uzunluğu 3077 m olan açıq dren və dren sularını ərazidən kənarldaşıran orta dərinliyi 4,0 m, uzunluğu 7800 m olan kollektor tikildi.

Aparılmış elmi-tədqiqat işlərinin nəticəsində məlum oldu ki, qrunt sularının səviyyəsini tələb olunan səviyyələrdə saxlamaq və şorlaşmış torpaqlarda duzların yuyulmasını təmin etmək üçün Muğanda irriqasiya sistemləri ilə birgə, kollektor drenaj sistemləri də tikilməlidir. Beləliklə, Kür-Araz düzənliyində və bütövlükdə Azərbaycan ərazisində su təsərrüfatı sahəsində layihə-axtarış işlərini həyata keçirəcək bir təşkilatın yaranmasına tarixi şərait yarandı.

Muğan düzündə torpaqların öyrənilməsi məqsədilə 1926-cı ildə Moskvada, SSRİ Xalq Komissarlar Sovetinin əmək və müdafiə komissarı yanında xüsusi komissiya yaradıldı. Ko-

missiya sonralar “Zaqafqaziya regionunda pambıqçılığı öyrənən komissiya” adlandırıldı. Komissiyanın rəhbəri, tanınmış irriqator, professor V.A.Vasilyev oldu. Əsas tədqiqat işləri Muğan, Mil və Şirvan düzlərində aparıldı. Bölgədə fəaliyyət göstərən komissiya Tiflis şəhərində 1928-ci ildə yaradılan Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının Kür-Araz hövzəsində su eytiyatlarının sxemini hazırlayan xüsusi idarənin tabeçiliyinə verildi. Bu idarə 1932-ci ildə Zaqafqaziya Su Təsərrüfatı Layihə-Axtarış Tresti adlandırıldı.

“AZDÖVSUTƏSLAYİHƏ” İNSTİTUTUNUN TARİXİ VƏ İNKİŞAF YOLU. “AZDÖVSUTƏSLAYİHƏ” İNSTİTUTU

1930-1950-Cİ İLLƏR

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nəzdində fəaliyyət göstərən Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi üzrə Azərbaycan Dövlət İnstitutu “Azdövsutəslayihə”, 1930-cu il yanvar ayının 15-də Azərbaycan Su Təsərrüfatı İdarəsində “Su təsərrüfatı obyektlərinin layihələndirilməsi və axtarışı” üzrə xüsusi “Layihə şöbəsi” kimi yaradılmışdır. Azərbaycan Su Təsərrüfatı İdarəsinin yerləşdiyi binanın 2 otağında 5 nəfərlik layihə qrupunun şöbədə işə başlaması ilə “Azdövsutəslayihə” İnstitutunun əsası qoyulmuşdur. Layihə qrupunun ilk işçiləri: şöbə rəhbəri E.İ. Zdobnov, mühəndislər Z.Litinski, M.Voronin, qrafiki cizgiləri çəkənlər N.Əzizova və başqaları olmuşdurlar.

Fəaliyyətinin ilk aylarında “Layihə şöbəsində” SSRİ Xalq Əkinçilik Komissarlığından verilən göstərişlərə və Azərbaycan Su Təsərrüfatı İdarəsi ilə bağlanmış müqavilələrə əsasən kanalların, kanallar üzərindəki qurğuların, gözətçi binaların layihələri hazırlanırdı.

Meliorasiya və Su Təsərrüfatı sahələrində görülən tikinti işlərinin həcmi 1930-cu ilin ilk illərindən başlamaqla sürətlə artmışdır. 1931-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirmiş Tağı Əbdülrəhimov, Moskva Su Təsərrüfatı Mühəndisləri İnstitutunun məzunu Mehdi Abbasov və digər gənc mütəxəssislər İ.Rudman, M.Qdovin, D.Muradov, Q.Kadagidze, Jirinov, Riko layihə şöbəsinə işə qəbul edilmişlər. Şöbədə görülən işlərin həcmlərinin artması ilə yanaşı layihələrin məzmunu da mürəkkəbləşmişdir. Yeni əkin sahələrində suvarma sistemləri layihələrinin, yararsız vəziyyətə düşmüş köhnə kanalların bərpası layihələrinin, çaylarda daşqın sularına qarşı tikilməsi tələb olunan mühafizə bəndlərinin layihələrinin, müxtəlif təyinatlı hidrotexniki qurğuların layihələrinin və digər layihə-axtarış işlərinin hazırlanmasına başlanmışdır. Layihə-axtarış işləri, əsasən Muğan-Mil düzlərində, Kür çayı ətrafında və digər bölgələrdə aparılırdı.

Meliorasiya və Su Təsərrüfatı sahəsində görüləcək işlərin həcmlərinin artacağını nəzərə alaraq, üç layihə-axtarış bürosu əsasında 15 yanvar 1933-cü ildə «Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi və Axtarışı» üzrə müstəqil idarə yaradıldı. İlkin mərhələdə rəhbərlik Nəzirova tapşırıldı. Abbasov M. Ə. 08.04.1933-cü ildə layihə idarəsinin müdiri, Zdobnov E.İ. isə Baş Mühəndis vəzifəsinə təyin olundular.

Yeni təşkil olunmuş layihə-axtarış idarəsində ilkin olaraq Mil düzündəki qədim suvarma sistemlərinin bərpası layihəsi, Şimali Muğan ərazisində suvarma və kollektor-drenaj sistemlərinin layihə sənədləri hazırlandı. Xudat massivində topoqrafiya işləri görüldü və s.

Qısa vaxt ərzində “Salyan düzündə suvarma sisteminin sxematik layihəsi və kollektor suyığıcı sisteminin texniki iqtisadi layihəsi”, “Qaraçala sovxozunda suvarmanın əsaslı yenidən qurulmasının texniki-iqtisadi layihəsi”, “Lənkəran və Yevlax düzənliyində bataqlığın qurudulması layihələri”, “Ağçala və Mahmudçalada şorlaşmış bataqlıqların qurudulması layihəsi”, “Kür çayı sahillərində daşqınlara qarşı mühafizə bəndlərinin layihələri” və digər layihələr işlənildi.

Araz çayından su qəbul etməklə Mil düzündə və Qarabağın düzən hissəsində əkin sahələrini suvarmaq məqsədilə Köhnə Xanqızı kanalın yenidən qurulması, dağılmış suvarma sisteminin bərpa layihəsi E.İ.Zdobnov tərəfindən işlənmiş və tikintisi 1933-cü ildə başa çatdırılmışdır.

Köhnə Xanqızı suvarma sistemi şimaldan Qarqarçay, cənubdan Araz çayı ilə həmsərhəd olan Mil düzünün orta hissəsində yerləşirdi. Köhnə Xanqızı kanalının IV-VI əsrlərdə tikildiyi güman olunur. Tarixi mənbələrdə bu kanalın adı Borlos kimi də çəkilirdi. Sonrakı illərdə Gavurarx adlandırılmışdır. Araz çayından təxminən eyni hissədə su götürməklə, çayın sağ sahili boyunca İranın Muğan düzündə əkin sahələrini suvarmaq məqsədilə çəkilmiş magistral kanalın adı da Gavurarx olmuşdur. Yararsız hala düşmüş kanal XIV əsrdə Teymurləng tərəfindən bərpa olunmuş, qarabağlı Əhməd bəy Cavanşir tərəfindən 1866-cı ildə Araz çayından 8 km uzunluğunda olan dağılmış hissə tikinti-bərpa işlərindən sonra Gavurarx adıyla kanal yenidən istifadəyə verilmişdir. Sonrakı illərdə suvarma sistemini bərpa etmək üçün təşəbbüslər olsada da, tikinti-bərpa işləri 1927-1933-cü illərdə görülmüşdür. Kanal istifadəyə veriləndə dövrünün tanınmış bolşeviklərindən biri, gürcü millətindən olan Qriqori Konstantinoviç Orconikidzenin şərəfinə Orconikidze kanalı adlandırılmışdır. Torpaq məcrada tikilmiş kanalın uzunluğu 64,5 km, su nəqletdirmə qabiliyyəti 33 m^3/san idi. Əmirzeyitli kəndi yaxınlığında Araz çayında tənzimləmə işləri görməklə kanala su qəbul edilmişdir.

Sovetlər ölkəsində Q.K.Orconikidze adına kanalın istifadəyə verilməsi irriqasiya tikintisi sahəsində böyük nailiyyət kimi qeyd edildi. Suvarma sistemindəki 33 min hektar əkin sahəsində pambıq bitkisinin becərilməsi üçün əlverişli şərait yaradıldı. İşçi qüvvəsi olaraq bu əraziyə digər bölgələrdən köçkünlərin məskunlaşdırılmasına, yeni kənd və qəsəbələrin salınmasına başlanıldı.

Layihə-axtarış idarəsində 1934-cü ildən Azərdaycanda torpaqların şorlaşma xəritəsinin tərtib olunmasına başlandı.

Yevlax şəhərinin ərazisindəki bataqlığın qurudulmasında ilk dəfə hidromexanizasiya üsulundan istifadə olundu.



Orconikidze (Xan qızı) kanalı. Füzuli rayony. 1933

AZƏRBAYCAN RESPUBLİKASININ
MİLLİ ARXİV İDARƏSİ

AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT ARXİVİ

НАЦИОНАЛЬНОЕ АРХИВНОЕ
УПРАВЛЕНИЕ АЗЕРБАЙДЖАНСКОЙ
РЕСПУБЛИКИ

ГОСУДАРСТВЕННЫЙ АРХИВ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Az 1122, Bakı, Zərdabi pr., 593

Тел: 433-86-84
Факс: 533-06-69

№ 14 «24» мая 2012

Директору Азербайджанского Государственного
Проектного института водного хозяйства
Азербайджанского Акционерное Общества
Мелиорации и водного хозяйства
Э. Пашаеву

Архивная справка

На Ваш запрос за № 16/126 от 12.04.2012г. сообщаем, что в документах архивных фондов «Совет Министров Азербайджанской ССР», «Азербайджанский Государственный Плановый Комитет (Госплан)» и «Управление Азербайджанского Водного хозяйства (Азводхоз)» за 1933-1935гг. имеются следующие сведения об организации Азводпроиза:

В протоколе совещания при начальнике Азводхоза от 19 января 1933г.; в пояснительных записка директора Азводпроиза к годовым отчётам за 1934, 1935гг. было отмечено, что Азводпроиз - проектно-изыскательная организация по крупным водохозяйственным объектам Азербайджанской ССР был организован 15 января 1933 года на базе трёх отдельных проектно-изыскательских бюро, существовавших до этого времени в различных управлениях Азводхоза (проектно-изыскательское бюро крупного строительства, проектно-изыскательское бюро мелкого строительства и проектно-изыскательское бюро Упрмехора).

Организованный Азводпроиз являлся Управлением Азводхоза с самостоятельной и законченной отчётностью и производил все проектно-изыскательские работы по крупным титульным объектам.

Руководство Проектно-изыскательскими партиями было возложено на директора Азводпроиза Назирова.

Осн: ф. 796, оп. 2, д. 1328, л. 4;
ф. 1732, оп. 1, д. 672, лл. 18-19;
-«- -«- д. 669, л. 34;
-«- оп. 11, д. 96, л. 1
ф. 411, оп. 30, д. 498, лл. 51-54.

Зам. директора архива С. К. Бабаева

Зав. отделом Л. А. Акперова

1. АЗВОДПРОИЗ был организован в январе 33 года на базе трех отдельных проектно-изыскательских бюро, существовавших до этого времени в различных управлениях АЗВОДХОЗА (проектно-изыскательское бюро крупного строительства, проектно-изыскат.бюро мелкого стр-ва и проектно-изыск.бюро Упрмехсора). Организованный АЗВОДПРОИЗ является Управлением АЗВОДХОЗА самостоятельной и законченной отчетностью и производит все проектно-изыскательские работы по крупным титульным об"ектам за счет союзного бюджета, а также выполняет работу по договорам с различными хозяйственными орга-

Общее. Азводпроиз - проектно-изыскательская организация по крупным водохозяйственным об"ектам АССР. Организован Азводпроиз 15 Января 1933г. За период своего существования Азводпроиз вел работы по Муганской степи, по Прикуринской полосе мехорошение /Сальяны, Карачаев и Юго-Восток Ширвани/, по Мильской степи и по ряду других мелких об"ектов АССР /Евлах, Хачмас-Худат, НахССР, Ленкорань и др./.

СВЕДЕНИЯ.

О штатах и фонде заработной платы по Азводпроизу.

Представляется Сект. Сов. строит. Аз.РКИ.

ПРИМЕЧАНИЕ: Азводпроиз организован с 1/I-33г. в 1932 г. таковой входит в оперативный штат Упр.Крупн.Стр-ва

ДИРЕКТОР АЗВОДПРОИЗА. ИНЖЕНЕР / НАЗИРОВ/

ГЛАВБУХ / ТОРОСОВ/.-

ПРОТОКОЛ

Совещания при Начальнике Азводхоза.-

от 19-го Января 1933 г.-

ПРИСУТСТВОВАЛИ:- т.т.Галилов, Гусейнов, Гоберт, Мирзоев, Гаврилов, Назиров, Торосов, Тер-Оганесов, Имшенецкий, Трипольский, Здобнов, Семенов, Кошко, Терентьев, Резчиков.-

Layihə-axtarış idarəsində Qız qalasından Daşburuna kimi Araz çayı sahilində olan düzən ərazilərdə əkin sahələrini suvarmaq üçün texniki-iqtisadi layihələr və Sabirabad şəhərindən başlamaqla, Xəzər dənizinə kimi Kür çayı ətrafı sahələrdə mexaniki üsulla suvarmanın texniki-iqtisadi layihələri hazırlandı.

1934-cü ildə Azərbaycan Su Təsərrüfatı Layihə-Axtarış İdarəsində 273 nəfər işçi çalışırdı ki, bunun da 120 nəfəri mühəndis-texniki heyət, 56 nəfəri qulluqçu, 97 nəfəri isə müxtəlif işləri yerinə yetirən fəhlələr idi.

Layihə-axtarış işlərini yerinə yetirərkən idarənin əməkdaşları nəqliyyat vasitəsi olaraq əsasən, icarəyə götürülmüş atlardan istifadə edirdi. Layihəçilər ilk dəfə 1936-cı ildə maşınlardan istifadə etməyə başlamışlar.

Hazırlanan irriqasiya-meliorasiya layihələrində yeni texnikaların tətbiq edilməsinə xüsusi diqqət ayrılmışdır. İlk dəfə, 1935-ci ildə layihə şöbəsinin əməkdaşı mühəndis M.S.Yaşin tərəfindən hazırlanmış DDA-100 yağışyağdıran maşından Qaraçala sovxozunda əkin sahəsinin suvarılmasında istifadə olunmuşdur.

1930-1937-ci illərdə layihə-axtarış işlərinin yerinə yetirilməsində mühəndislərdən Nəzirov, Abbasov M.Ə, Zdobnov E. İ., Qovord A.R., Siromyatnikov S.İ., Səlimbəyov C.V., Rudman İ.A., Voronin İ.M., Leşev N.A., Kələntərova E.F., Quluzadə S.İ., Muradov D.M., Kadagidze Q.S. və digərlərinin, texniki işçilərdən Əzizova N.A., Bakunin R.İ., Allahverdiyeva R.S., Valyayeva Z.V., Kuzanova T.Q., Dolqova A.N. və başqalarının xüsusi əməyi olmuşdur.

Layihə-Axtarış İdarəsi keçmiş Hüsü Hacıyev küçəsi 11-də yerləşən binanın, əsasən I, az hissəsi isə II mərtəbəsində yerləşmiş, bir masa ətrafına 2-3 əməkdaş yığılmaqla çətin şəraitdə işləməli olmuşlar.

Layihə idarəsi (Azdövsutəslayihə İnstitutu) 1930-1940-cı illərdə bu binada fəaliyyət göstərib



Paylayıcı kanalda şülüz. Beyləqan rayonu. 1933

1936-cı ilin sonunda SSRİ Əkinçilik Xalq Komissarlığının əmri ilə Zaqafqaziya Su Layihə İdarəsi "(Закгипровод)" rəhbər texniki işçilər də daxil olmaqla, Tiflis şəhərindən Bakı şəhərinə köcürülmüşdür. Azərbaycan Su Təsərrüfatı Layihə-Axtarış İdarəsinə birləşdirilməklə, yeni adla, Zaqafqaziya Su Layihə "(Закгипровод)" idarəsi yaradıldı və SSRİ ƏXK-nın Baş Pambıqçılıq İdarəsinin tabeçiliyinə verilmişdir. Zaqafqaziya Su Layihə Trestinin Tiflis şəhərindən Bakıya köçürülməsi 1937-ci ilin fevral ayında tam başa çatdırılmışdır.

Layihə-axtarış işləri aparılacaq obyektlərin rəhbərləri və layihələrin baş mühəndisləri təyin edilmişdir. Birləşmədən sonra fəaliyyət göstərən idarənin tərkibi əsasən aşağıdakılardan ibarət idi:

1. Rəis
2. Baş mühəndis
3. Mühasibat
4. Mingəçevir hidroqovşağı şöbəsi
5. Aran şöbəsi
6. Aqroiqtisadi büro
7. Müqavilə işləri şöbəsi
8. Arxiv
9. Texniki kitabxana
10. Mərkəzi anbar
11. Mingəçevirdəki mərkəz

1938-ci ilin may ayından idarə Zaqafqaziya Su Layihə-Axtarış "(Закводпроиз)" adlandırıldı və Azərbaycan, Gürcüstan, Ermənistan Respublikalarında su təsərrüfatı sahəsində layihə-axtarış işlərini həyata keçirirdi. İdarə "Zaksulayihəaxtarış" adlandırıldıqdan sonra tərkibində bəzi dəyişiklik edilmişdir: rəhbərlik ümumilikdə əsasən idarənin işini təşkil edir,

Çınqıl karxanası. 1933

Paylayıcı kanalda şlüz tikilir. 1933

Əkin sahəsində yeni texnika



Meliorasiya maşınlarının səyyar emalatxanası. 1933

Daşburun qəsəbəsi. 1933

Kanal üzərində şlüz. 1933

Miltikinti idarəsi. Daşburun 1933

Ağac konstruksiyalı körpü. 1933

texniki rəhbərliyi isə müavini – baş mühəndis vasitəsilə həyata keçirilir. İdarənin inzibati-təsərrüfat aparatını əsasən aşağıdakılar təşkil edir:

1. Ümumi dəftərxana, makinə bürosu ilə birlikdə
2. Mühasibatlıq
3. Plan şöbəsi
4. Xüsusi bölmə
5. Təsərrüfat hissəsi

İstehsalat aparatı 2 şöbədən ibarət olub:

1. Layihə-axtarış şöbəsi

1.1 Topoqrafiya
1.2 Hidrogeologiya
1.3 Hidrologiya
1.4 İstehsalat işi və smeta
1.5 Texniki layihəçilər qrupu

2. Aqroiqtisadi şöbə

2.1 Torpaq-meliorasiya
2.2 Mühəndis-meliorasiya
2.3 Su-torpaq laboratoriyası
2.4 Aqroiqtisadi layihəçilər qrupu

Bu şöbələrdə xidmət işlərini həyata keçirən tərtibat bürosu: cizgiləri hazırlayan qrup, layihə cizgilərinin üzçıxarma üsulu ilə artırılması, torpaq və qruntun analizi üçün laboratoriya və cildləmə işlərini yerinə yetirən qruplar fəaliyyət göstərmişdir. Layihə idarəsinin texarxivi, kitabxanası, anbarı, çöl tədqiqat işlərini həyata keçirən axtarış bazası və qarajı olmuşdur.

Bu illərdə Mingəçevir su anbarının və Kür çayı üzərində tikiləcək hidroqovşağın yerinin topoqrafiya işi görülmüşdür. Gürcüstanda Rioni çayı üzərində tikilən hidroqovşağın yerində



Orconikidze (Xan qızı) kanalı. Beyləqan rayonu. 1933



"Azdövsutəslayihə" İnstitutu 1940-1963-cı illərdə bu binada fəaliyyət göstərib

və tikilməsi nəzərdə tutulan Samur-Dəvəçi kanalının trasında, Tərtər çayı sahillərində daşqınlara qarşı tikiləcək mühafizə bəndlərinin yerində, Respublika ərazisində axan çayların suyundan irriqasiya sistemlərində istifadə etmək məqsədilə çay hövzələrində əlverişli yerin seçilməsi üçün geniş topoqrafiya işləri aparılmışdır.

Layihə-axtarış idarəsi 1940-cı ildə əməkdaşları üçün normal iş şəraiti olan Kommunist küçəsi 5-dəki (indiki İstiqlaliyyət küçəsi, 5) binaya köçürülmüşdür.

Mingəçevir su anbarının tikintisi ilə bağlı geotexniki tədqiqatların aparılması üçün tələb olunan cihaz və avadanlıqlarla təmin olunmuş geniş laboratoriya, tədqiqat bazası və maşın mexanizmlər saxlanılan park yaradılmışdır.

Mingəçevir bəndi tikildikdən sonra su altında qalacaq 1248 km^2 çala sahənin 1:50000 miqyasında geoloji xəritəsi tərtib olunmuşdur. Ərazidə çoxsaylı şurflar, qazılmaqla tikiləcək torpaq bənd üçün tələb olunan inşaat materialının yeri müəyyənləşdirilmişdir. Tikintisində inşaat materialı kimi istifadə olunacaq qruntun fiziki-mexaniki, kimyəvi və su xüsusiyyəti laboratoriya şəraitində yüksək dəqiqliklə öyrənilmişdir. Hidroqovşaqdakı bütün qurğuların ayrı-ayrı hissələri elmi baxımdan geniş tədqiq edilmişdir. Layihədə su enerjisindən istifadə və su təsərrüfatı hesabatları, aparılmış elmi-tədqiqat işlərinə əsaslanaraq yüksək dəqiqliklə yerinə yetirilmişdir. Mingəçevir su anbarının tikintisi ilə paralel, ilk növbədə tikiləcək yeni magistral kanalların, suvarma sistemlərinin layihə sənədlərinin işlənməsinə başlanılmışdır.

Kür-Araz düzənliyində geniş meliorasiya tədbirlərinin həyata keçirilməsi istiqamətində işlər görülmüşdür. Bu dövrdə Şimali Muğan, Cənubi Muğan və Salyan düzlərində başlanmış layihə-axtarış işləri də davam etdirilmişdir. Salyan-Akuşin ərazisində 4 min hektar və 7 min hektar sahələrin, Bolqarçay ərazisindəki 12 min hektar sahənin suvarılması üçün layihələr hazırlanmışdır.

Salyan və Muğan düzlərində, çənub-şərqi Şirvan ərazisində qrunt sularının səviyyəsinin dəyişmə dinamikasını öyrənmək məqsədilə müşahidələrin aparılmasına da başlanılmışdır. Bu

ərazilərdə qazılmış müşahidə quyularının ümumi sayı 600-ə qədər idi. Muğan və Salyan düzlərinin su balansı və görüləcək meliorasiya tədbirlərinin sxemi tərtib olunmuşdur.

"Azdövsutəslayihə" İnstitutunun fəaliyyət göstərdiyi bu dövrdə aşağıda adları çəkilən layihə işləri görülmüşdür:

1. Muğanda hidrogeoloji şəraiti öyrənmək məqsədilə Mürsəlli kəndində dərin quyu qazılması;
2. Şirvan düzünə axan çayların aşağı hissəsinin düzəldilməsi layihəsi (layihə müəllifi S.F.Koropkin);
3. Muğan düzündə yığılan suyun kənarlaşdırılması layihəsi (layihə müəllifi M.A.Leşev);
4. Mingəçevir hidroqovşağında layihə işləri (layihə müəllifləri Q.M.Lomidze və başqaları);
5. Kür-Araz düzənliyində suvarma layihələri (layihə müəllifi B.A.Dobronravov);
6. Azərbaycan çaylarından və Araz çayından əkin sahələrinin suvarılmasında istifadənin öyrənilməsi layihələri;
7. Mingəçevir düzənliyində suvarma sxemləri (layihə müəllifi N.A. Leşev);
8. Xaçmaz ərazisində 5300 hektar sahədə təsərrüfat ərazisinin təşkili və irriqasiya sistemlərinin yenidən qurulması;
9. Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) Madaqiz hidroelektrik stansiyasının (HES) texniki layihəsi;
10. Naxçıvanda Uzunoba su anbarının texniki layihəsi;
11. Mövcud "Baş Akuşa" nasos stansiyasının yenidən qurulması;
12. Abşeron yarımadasının Binə-Hövsan ərazisində yeraltı suların hidrogeoloji tədqiqi;
13. Quba rayonundakı 12 saylı sovxozda suvarma sisteminin yenidən qurulmasının texniki layihəsi;
14. Naxçıvan hidroelektrik stansiyası (HES) layihəsi;
15. Zaqatalada çayçılıq sovxozunun layihəsi;
16. Lənkəran və Astara rayonlarnda Mortso-lyadj və Kaladagiya bataqlıqlarının qurudulması və s.

1938-ci ildə Samur çayından Ataçaya kimi Samur-Abşeron kanalının birinci növbəsi olan hissənin, Samur-Dəvəçi kanalının layihə-axtarış işlərinə başlandı. Uzunluğu 110 km, sərfi 26 m^3/san olan Samur-Dəvəçi kanalının layihəsinin baş mühəndisi Səlimbəyov Cəfər Vahab oğlu idi. Layihənin hazırlanmasında və tikintisində N.A.Leşov, N.Dikov, İ.Voronin, B.Pılnik, V.Kələntərova, B.Silovtsev, B. Vorobyov, İ.Quluzadə, B.Tabasaranski, İ.Kuloşvili və başqaları yaxından iştirak etmişlər.

Özbəkistanda Böyük Fərqanə kanalının tikintisində istifadə olunmuş "Xalq tikintisi" metodundan istifadə etməklə, 1939-cu ildə xalq tikintisi adlandırılan Samur-Dəvəçi kanalının tikintisinə başlandı. Bu tikintidə 30 min yerli əhali çalışmışdır.

Layihəçilər demək olar ki, iş yerlərini Quba şəhərinə dəyişmişdilər. Kollektivin əsas işçiləri Quba şəhərində yaşamış və kanalın layihə sənədlərini də orada işləmişlər. Layihəçilərin böyük bir qrupu C.V. Səlimbəyov və B.Q Vorobyovun rəhbərliyi ilə kanalın tikintisini aparan təşkilatın sərəncamında olmuşlar. Layihənin işçi cizgiləri birbaşa tikinti aparan inşaatçıların istifadəsinə verilirdi. Tikinti aparılan müddətdə yaranmış çoxsaylı mürəkkəb texniki məsələlər layihəçilərin gərgin əməyi nəticəsində vaxtında öz müsbət həllini tapırdı.

"Su – hidrotexniki qurğulara təsir baxımından, sutkanın 86400 saniyəsində də, işləyir" məntiqini qəbul edən layihəçilər hamılılıqla çox böyük fədakarlıqla çalışmışlar. Elan olunmuş xalq tikintisində topoqrafiya və geodeziya qrupunun işçiləri xüsusilə fərqlənmişlər. Tikintisi başa çatmış Samur-Dəvəçi kanalı 28 aprel 1940-cı ildə istifadəyə qəbul edildi. Həyat



Samur-Dəvəçı kanalının açılışı. 1940

mənbəyi olan su, Xaçmaz, Xudat, Dəvəçi və Siyəzən rayonlarının ərazisinə axdı. Kanalın tikintisində xüsusi əməyi olan çoxsaylı inşaatçılarla yanaşı, layihə idarəsinin əməkdaşları da dövlətin yüksək orden və medalları ilə təltif olunmuşlar.

Samur-Abşeron kanalının ikinci növbəsi, Ataçay-Abşeronun tikintisi 1946-cı ildə başa çatdırılmalı idi. 1941-ci ildə müharibənin başlanması kanalın tikintisində işlərin dayandırılmasına səbəb olmuşdur.

1938-ci ildə Gürcüstan SSR-nın Kolxida düzənliyində hidroloji tədqiqat işləri aparılmışdır. Ermənistan SSR-nın ərazisində də, bəzi obyektlərin layihələri hazırlanmışdır.

1939-cu ildə əməkdaşlar tərəfindən hazırlanmış layihə cizgiləri əsasında SSRİ-də ilk dəfə Kür çayı üzərində üzən nasos stansiyası yaradılmışdır.

1940-cı ildə Şimali Muğanda V.R.Volobuyevin rəhbərliyi ilə 218 min hektar sahədə torpaqların meliorasiya olunması istiqamətində geniş tədqiqat işləri aparıldı. 1941-ci ilin əvvəlində Mingəçevir hidroqovşağının tikintisinə başlanıldı.

1941-ci ildə layihəçilərin sərəncamında yeddisi yük, ikisi minik olmaqla 9 ədəd maşın var idi.

Böyük Vətən Müharibəsi dövründə layihə idarəsi fövqəladə çətinliklərlə üzləşdi. 1941-ci ilin sonunda görüləsi işlərin həcmi kəskin azaldı. 1942-cı il üçün bağlanılmalı müqavilələr dayandırıldı. Əməkdaşların kütləvi olaraq müharibəyə səfərbər olması layihə idarəsinin bağlanması təhlükəsini yaratdı. Layihə idarəsində az sayda mütəxəssislər saxlanıldı. 1942-ci ilin yanvar ayında idarədə cəmi 15 əməkdaş işləyirdi.

Qeyd etmək lazımdır ki, layihə idarəsinin bağlanma təhlükəsi ilə üzləşdiyi bir vaxtda, 15-20 noyabr 1941-ci ildə Abbasov Mehdi Əli oğlu İttifaq Layihə İnstitutunun rəhbərliyi ilə danışıqlar aparmaq üçün çətin dövrünü yaşayan Moskva şəhərinə getmişdir. Axtardığı insanlar-

Kür çayında üzən nasos stansiya

la görüşmək üçün yollarda 38 sutka olmaqla, Baş İdarənin köçürüldüyü Omsk şəhərinə gəlmiş və Azərbaycanda layihə idarəsini saxlamaq üçün cüzi də olsa maliyyə dəstəyi almışdır.

Bu illərdə layihənin tərtib olunması üçün lazım olan materiallar: kalka, kağız, millimetrovka, karton çatışmadığına görə layihə sənədlərinin tələb olunan müddətlərdə sifarişçiyə verilməsində problemlər yaranmışdır.

Layihə idarəsi 1942-ci ilin ikinci yarısında bəzi xırda müqavilələrin bağlanmasına nail olsa da, bu işləri yerinə yetirəcək mütəxəssislər çatışmırdı. 12 ştat vahidindən 7-si kiçik xidmət heyətindən idi. Yerlərdə axtarış işləri aparacaq mütəxəssislər yox idi. Mütəxəssislər isə əsasən müharibə əlillərindən ibarət idi. Ehtiyyat hissələri tapılmadığına görə idarənin sərəncamındakı 2 maşını işlətmək mümkün deyildi. İdarədəki mütəxəssislərin bir hissəsi də aparılan müdafiə işlərinin həllinə cəlb edilmişdir. Bütün bu çətinliklərə baxmayaraq, layihə idarəsi azsaylı əməkdaşları müxtəlif təşkilatlarla 14 müqavilə bağlamağa nail olmuşlar ki, bunlardan da 3-nün həcmi nisbətən böyük idi:

1. Ağçala gölündə balıqçılıq təsərrüfatının meliorasiyasının texniki layihəsi;
2. Muğan-Salyan suvarma sistemlərindəki torpaqların şorlaşma dinamikasınının kameral şəraitdə öyrənilməsi;
3. Kür və Araz çaylarının daşqın sərfinin müəyyən hissəsinin Mil və Şirvan depressiyasında toplanması.

Fəaliyyətinin çətin dövründə layihə idarəsi Gürcüstan və Ermənistan ərazilərində layihə-axtarış işləri aparmamışdır.

1942-ci ilin axırında layihə idarəsində mühəndis - texniki işçilərin sayı 30 nəfər idi. V.R.Volobuyev Azərbaycanda torpaq ehtiyatlarının qiymətləndirilməsi mövzusunda geniş və çox qiymətli tədqiqat işləri aparmışdır. Bu dövrdə layihə idarəsində hidrogeoloq, geoloq, hidroloq üzrə mütəxəssis yox idi. 1943-cü ildə idarədə cəmi 5 topoqraf olub ki, bu da layihə-

axtarış işlərinin tələb olunan müddətlərdə aparılmasına, layihə tapşırıqlarının və texniki layihələrin vaxtında hazırlanmasına ciddi maneçilik yaradırdı.

1944-cü ildə layihə idarəsinin kifayət həcmdə müqavilələri olmuşdur. Ancaq mühəndis texniki işçilər çatışmadığına görə, layihələrin hazırlanmasında problemlər yaranırdı. Mütəxəssis işçilərə tələbat çoxalmışdır. İşə yeni qəbul olunanlar arasında müharibə əlilləri üstünlük təşkil etsə də, az da olsa ali təhsili yenicə bitirmişləri də var idi.

1944-cü ilin oktyabr ayında SSRİ Əkinçilik Xalq Komissarlığının qərarı ilə Zaqafqaziya layihə-axtarış idarəsi Azərbaycan SSR Su Təsərrüfatı Nazirliyinin layihə-smeta şöbəsinə daxil edildi. Bu dövrdə layihə idarəsində 39 əməkdaş çalışırdı. 1945-ci ilin yanvar ayında əməkdaşların sayı 76 nəfər idi ki, bunlardan ancaq 4-ü layihənin baş mühəndisi vəzifəsini tuturdu.

1941-1945-ci illərdə layihə idarəsində əsas mühəndis-texniki işçilər: Abbasov M.Ə., Dobronravov V.A., Rudman İ.A., Leşev N.A., Smirnov V.M., Manzon A.İ., Dolqov A.P., Volobuyev V.R., Radziyevski B.A., Aristova S.Q., Tabasaranski B.A., Qoff N.Q., Romanov M.V.,Bekua E.İ., Valyayeva Z.V., Əzizova P.A., Bakunina R.İ. olmuşdur. Yuxarıda adları çəkilən əməkdaşların gərgin əməyi nəticəsində 1941-1945-ci illərdə 41 obyektin layihə sənədləri hazırlanaraq sifarişçilərə təhvil verilmişdir. Hazırlanmış layihələrdən 32-i Azərbaycan, 6-sı Ermənistan, 3-ü isə Gürcüstan ərazisində olmuşdur.

Bu illərdə layihə işlərinin sayı az olmaqla yanaşı, əsasən xırda iş həcmləri olan obyektlərin layihələri üstünlük təşkil edirdi. Yaşayış binalarının, su təchizatı sistemlərinin, torpaq yolların, meşə zolaqlarının layihələri hazırlanırdı. Əsas məqsəd layihə idarəsini bağlanmaq təhlükəsindən qorumaq idi.

1945-ci ildə layihə idarəsi Azərbaycan Layihə-Axtarış İdarəsi adlandırılmışdır. Müharibəni böyük qələbə ilə başa vuran SSRİ hökumətinin 20 oktyabr 1945-ci il 2664 saylı qərarı ilə "Mingəçevir hidroqovşağının tikintisi və Kür-Araz düzənliyinin suvarılması" layihəsinin həyata keçirilməsinə başlanılmışdır. Azərbaycan Layihə-Axtarış İdarəsinin əməkdaşlarından prof. Lomidze Q.M., Dobronravov V.A., Radziyevski B.A., Babayev R.A., Volobuyev V.R. və başqaları Mingəçevir hidroqovşağının tikintisi üçün layihə sənədlərinin hazırlanmasında yaxından iştirak etmişlər.

Moskva şəhərindən gəlmiş akademiklər Qraftio Q.O., Rizenkampf və Lisenko T.D., professorlar Maslov N.N., Mixaylov, Trombaçev, Quluşkovun Mingəçevir hidroqovşağının tikintisində xüsusi əməyi olmuşdur.

Bu illərdə hazırlanan layihələrdə aparıcı mütəxəssislər olan Mollayev Q.A., Smirnov V.M., Stepa B., Atakişiyev Y.M., Beglyarov S.A., Bibikova K.Z., Dikov N.F. və başqaları yaxşı işləməklə digərlərindən fərqlənmişlər.

Azərbaycan Layihə-Axtarış İdarəsində 1946-cı ildən başlamaqla görülən işlərin həcmi ilbəil artmışdır. Görüləcək işlərin profilinin genişləndirilməsi müşahidə olunurdu. İdarənin əsas vəzifəsi Kür-Araz Su Tikinti İdarəsini su təsərrüfatı obyektlərindəki layihələrin işçi cizgilərilə təmin etməkdən ibarət olmuşdur. Azərbaycan Layihə-Axtarış İdarəsində 1946-cı ilin yanvar ayında 84 işçi çalışırdı.

Kür-Araz düzənliyində irriqasiya və meliorasiya işlərinin geniş miqyasda aparılması ilə bağlı layihələrin obyektlər üzrə tərtib olunmasına başlandı.

Məsələn: Kür ətrafındakı mexaniki suvarmanı elektrik enerjisi ilə təmin edəcək dizellə işləyən elektrik stansiyasının layihələndiridməsi, ekskavatorlar təmir olunacaq zavodun layihələndirilməsi və s.

1946-ci ilin sonunda Layihə-Axtarış İdarəsində işçilərin sayı 217 nəfər idi. Əsasən aşağıdakı bölgələr üzrə layihə-axtarış işlərinin görülməsinə başlanmışdır:



Mingəçevir su anbarında hidroqovşağın (bəndin) sxematik planı

1. Salyan-Akuşa massivi;
2. Şimali Muğan;
3. Gəncə-Qazax massivi;
4. Şirvan düzü;
5. Mil-Qarabağ düzü;
6. Xəzərətrafı düzənlik və Abşeron;
7. Lənkəran düzənliyi;
8. Cənubi-Şərqi Şirvan və digərləri.

Bu bölgələrdə suvarma sistemlərinin yenidən qurulması və torpaqların meliorasiya olunması üçün aşağıdakı obyektlər üzrə layihə tapşırıqlarının hazırlanmasına başlanmışdır:

1. Araz çayı üzərində Bəhrəmtəpə hidroqovşağının;

2. Samur çayı üzərində suqəbuledicinin;
3. Türyançay və Göyçay üzərində hidroqovşağın;
4. Yuxarı Qarabağ kanalının;
5. Yuxarı Şirvan kanalının;
6. Baş Muğan kanalının;
7. Samur-Dəvəçi kanalının davamı, Samur-Abşeron kanalının II növbəsinin (Abşerona kimi);
8. Muğan-Salyan sutullayıcısının;
9. Xaçınçay su anbarı;
10. Pirsaatçay su anbarı;
11. Axıncaçay su anbarı;
12. Ağstafaçay su anbarı və digər obyektlərin.

1946-cı ildən başlamaqla müxtəlif su təsərrüfat layihələrinin sxemləri hazırlanmışdır:

1. Kür-Araz düzənliyindən dren və kollektor sularının dənizə axıdılması;
2. Kürətrafı ərazilərdə nasos stansiyalarının elektrik enerjisi ilə təmin edilməsi sxemi;
3. Kür-Araz düzənliyində tətbiq edilən nasos stansiyalarının seçilməsi sxemi;
4. Şirvan düzündə suvarma sxemi;
5. Gəncə-Qazax massivində suvarma sxemi;
6. Birgə irriqasiya-energetika sxemi və digər layihələr.

Azərbaycan Layihə Axtarış İdarəsində hazırlanmış layihələrin Moskvada, Elmi-Texniki Şurada təstiq olunmasına qarşı olan qüvvələrlə layihə müəlliflərinin çətin şəraitdə mübarizə apardıqları vaxtlar da olmuşdur.

Ümumittifaq Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunun direktoru A.Çarevski və prof. B.Şaumyan Şimali Muğanda suvarılan ərazilərdə kollektor-drenaj sistemlərinin tikintisinin əleyhdarı kimi tanınırdılar və hazırlanmış layihələrin təsdiq olunmasına qarşı çıxırdılar. Şaumyan çıxışlarında Muğan düzündə drenaj tikintisinə vəsaitin ayrılmasını dövlətin pulunu çölə tökmək kimi qiymətləndirmişdir. Onların fikrincə, Şimali Muğanda dövri əkin sistemindən istifadə etməklə torpaqlarda şorluğu aradan qaldırmaq olar.

Elmi-Texniki Şurada 1 aprel 1948-ci ildə Şimali Muğandakı Ehtiyat Torpaq Fondunda "Suvarma və Meliorasiya Layihəsi"nə baxılarkən təşkil olunan müzakirə, sonralar "Drenajın zərərliyi" mövzusunda aparılan və aylarla uzanan müzakirələrə çevrilmişdir. Ağır atmosfer şəraitində keçən bu müzakirələrdə layihə müəllifi və Azərbaycan Layihə-Axtarış İdarəsinin baş mühəndisi Dobronravov V.A., mütəxəssislər Aristov S.Q., Şpanin Q.İ., Rudman İ.A., Kulaşvili İ.S., Polad-zadə A.A., Volobuyev V.R. və digərləri layihənin müdafiəsində sona qədər mübarizə aparmışdılar. Ümumittifaq Kənd Təsərrüfatı Akademiyasının Rəyasət Heyətində 1 və 2 noyabr 1948-ci il tarixlərində akademiklər Lisenko T.D., Palinov B.B., professorlar Antipov, Karatayeva, Brudastov, Kovda, Petrov və digər mütəxəssislərin iştirakı ilə müzakirə edilən layihə əsasən bəyənilmişdir. Elmi Texniki Şuraya təqdim olunmuş layihə 8 ay davam edən müzakirələrdən sonra 15 noyabr 1948-ci ildə təsdiq edilmişdir. Bununla da Kür-Araz düzənliyində geniş miqyasda kollektor-drenaj sistemlərinin tikintisinə yol açılmışdır.

“AZDÖVSUTƏSLAYİHƏ” İNSTİTUTU
1950-1970-Cİ İLLƏR

Tikintisi nəzərdə tutulan obyektlərdə görüləcək işləri sürətləndirmək və əkin sahələrindən yüksək məhsuldarlıq götürülməsini təmin etmək məqsədilə, xüsusi olaraq Kür-Araz düzənliyindəki su təsərrüfatı obyektləri üzrə layihə-axtarış işlərini “Layihə tapşırığı” və “İşci cizgiləri” olmaqla, 2 mərhələdə hazırlanmasına SSRİ Nazirlər Sovetinin 20.05.1950-ci il tarixindəki 2117 saylı qərarı ilə icazə verilmişdir.

1950-ci il iyun ayının sonuna kimi Azərbaycan Layihə-Axtarış İdarəsində görülən işlər, ümumilikdə, Kür-Araz Su Tikintisi Baş İdarəsi və Azərbaycan SSR Su Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqavilələr əsasında aparılırdı.

1950-ci ilin iyul ayından başlamaqla görülən layihə-axtarış işləri dövlət büdcəsindən maliyyələşdirildi. Layihə-axtarış işlərinə görə əmək haqqının ödənilməsi ləğv edilərək əməkdaşlara daimi vəzifə maaşları təyin edildi. Bu layihəçilərin və başqa işçilərin vəzifələrdə yüksəlmək üçün ixtisaslarını daim artırmaq istiqamətində çalışmalarına yeni stimul yaratdı.

1951-ci ildə Yuxarı Qarabağ kanalının, 1954-cü ildə isə Yuxarı Şirvan kanalının layihələndirilməsinə başlanıldı. Tələb olunan müddətlərdə kanalların layihə tapşırıqları və işçi cizgiləri hazırlandı. Eyni vaxtda Yuxarı Qarabağ və Yuxarı Şirvan kanallarının təsir zonalarında mövcud olan suvarma sistemlərinin yenidən qurulması üçün tələb olunan layihə tapşırıqları da hazırlandı.

Meliorasiya və su təsərrüfatı tikintiləri sahəsində yaranmış yeni əlverişli şəraitdə, hazırlanacaq layihələrin müxtəlif profilliyi, mürəkkəbliyi, layihə işlərinin məzmununda istifadə olunan yeniliklər və işin həcmini nəzərə almaqla, Azərbaycan Layihə-Axtarış İdarəsində bəzi struktur dəyişiklikləri aparılmışdır.

Layihə-Axtarış İdarəsinin əməkdaşlarından Q.A.Mollayev, A.M.Cəmşidov, F.F.Kondratyev, B.A.Tabasaranski, E.F.Kələntərova, V.F.Şilovtsev, A.N.Stupin, V.N.Suçkov, E.İ.Hacıyev, M.A. Mustafayev, B.İ.Əskərbəyli, A.D.Rüstəmbəyov, A.B.Tuskayev, M.D.Fomenko, R.L.Bulqak, A.Ələkbərov və başqaları şöbə rəhbəri, bölmə rəhbəri və layihə baş mühəndisi vəzifələrinə təyin olunmuşlar.

SSRİ Nazirlər Sovetinin 6 aprel 1951-ci il 1137 saylı qərarına əsasən kiçik layihə təşkilatlarının ləğv edilməsi ilə bağlı Azərbaycan Layihə-Axtarış İdarəsi əsasında SSRİ Pambıqçılıq Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən Zaqafqaziya Su- Layihə Pambıqçılıq İdarəsi (“Закгидроводхлопок”) yaradılmışdır.

1951-ci ildə layihə idarəsində Kür-Araz düzənliyində apardığı meliorasiya layihə işlərindən əlavə, kəndlərdə və rayon mərkəzlərində elektrikləşmə üçün tələb olunan layihə-axtarış işlərinin hazırlanmasına başlanıldı.

Muğan və Salyan düzlərində suvarılan sahələrdə aparılmış elmi-tədqiqat işləri nəticəsində müəyyən edildi ki, qrunt sularının səviyyəsini tələb olunan dərinliklərdə saxlamaq üçün, irriqasiya sistemləri ilə birgə kollektor-drenaj sistemləri də tikilməlidir. Beləliklə bu bölgədə açıq konstruksiyada kollektor-drenaj sistemlərinin geniş miqyasda tikintisinə başlandı. Əkin sahələrində torpaqların meliorasiya olunması üçün nəzərdə tutulan layihə sənədləri tələb olunan normalara uyğun olaraq, Layihə İdarəsində işlənmiş və vaxtında tikinti təşkilatlarına çatdırılmışdır.



Kür-Araz düzənliyində magistral kanalların və kollektorların sxematik planı. 1970

Muğan və Salyan düzlərində tikilmiş drenlərin əsaslı yuma aparılan sahələrdən və əkin sahələrindən kənarlaşdırdığı duzlu sular 1953-cü ilə kimi ərazidəki digər qonşu sahələrə axıdılırdı. Bu proses Muğan-Salyan sutullayıcının istismara verilməsinə kimi davam etdi. Ərazidə mövcud olan təsərrüfatlararası kollektorların drenlərdən qəbul etdiyi su, 1953-cü ildən başlamaqla istismara verilmiş Muğan-Salyan sutullayıcısı ilə Xəzər dənizinə axıdıldı.

Muğan-Salyan sutullayıcısı 1950-1953-cü illərdə tikilmişdir. Sutullayıcının istismara verilməsi ilə Kür-Araz düzənliyində ilk dəfə dren suları Xəzər dənizinə axıdıldı. Sutullayıcının təsir zonasında 172 min hektar sahə olmuşdur. Sutullayıcı Şimali Muğandan başlayıb Ağçala gölünün qərb sahili boyunca uzadılaraq cənubi-şərqə doğru dönmüşdür. Salyan düzündə Orta Akuşin yaylasını kəsərək, Neftçala rayonu ərazisində, Sarıqamışlı kəndinin yaxınlığında Xəzər dənizinə birləşdirilmişdir. Sutullayıcının mənsəbinə yaxın olan 56 km uzunluğundakı hissəsi yarım qazmada, damba düzəldilməklə tikilmişdir. İstismar müddətində sutullayıcının bu hissəsində ərazilərin təkrar şorlaşması və dambanın bəzi yerlərdə uçması halları da müşahidə olunmuşdur.

Muğan-Salyan sutullayıcısının əsas texniki göstəriciləri aşağıdakı kimi idi: uzunluğu 87,5 km; hesabat sərfi başlanğıcda saniyədə 21 kub m; sonda saniyədə 36 kub m; dibdən eni başlanğıcda 4,5 m; sonda 21,0 m; yamaclığı 1,5; suyun orta sürəti saniyədə 0,47 m; dib mailliyi 0,0005; suyun orta dərinliyi 2,96 m; inşaat dərinliyi 3÷5,4 m; dambanın üstdən eni 5 m; dren modulu saniyədə 0,055÷0,445 litr/hektar arasında dəyişmişdir. Üzərində qoyulmuş nasos stansiyalarının sayı 1 ədəd, dəmir yolu ilə kəsişmədə körpülərin sayı 1 ədəd, suvarma kanalı ilə kəsişən yerlərdə qurğuların sayı 10 ədəd olmuşdur. Dren modulunun maksimum qiymətlərinə Şimali Muğan ərazisində rast gəlinmişdir.

Muğan-Salyan sutullayıcısının istismar olunan müddətdə müəyyən illərdə apardığı sərf, yuma suyunun artıq verilməsi və basqılı yeraltı suların az da olsa təsiri nəticəsində, layihə göstəricisindən nəzərəçarpacaq dərəcədə artıq olmuşdur. Kollektorun üzərində qoyulmuş nasos stansiyasının saniyədə 21 kub m sərfə hesablanmasına baxmayaraq, nasos stansiyasından bəzi vaxtlarda saniyədə 32 kub m su sərfi vurulmuşdur. Mütəxəssislərin verdiyi məlumatlara görə, Muğan-Salyan sutullayıcısı vasitəsi ilə meliorasiya tikinti işlərinin geniş vüsət aldığı 1975-1980-ci illərdə Xəzər dənizinə hər il 930-2383 mln. kub m həcmində minerallaşmış su axıdılmışdır. Suyun minerallıq dərəcəsi 18,2÷20,5 q/l arasında dəyişmişdir.

Layihə sənədləri 1950-1954-cü illərdə hazırlanmış və Muğan düzündə tikilmiş əsas təsərrüfatlararası kollektorlar aşağıdakılar idi:

Cəfərxan kollektoru – 1950-ci ildə istismara verilmişdir, sərfi saniyədə 3 kub m, uzunluğu 22 km, təsir zonasında ərazinin sahəsi 8 min hektar;

I Kürətrafı kollektor – 1952-ci ildə istismara verilmişdir, sərfi saniyədə 3-5 kub m, uzunluğu 29 km, təsir zonasında ərazinin sahəsi 15 min hektar;

II Kürətrafı kollektor – 1953-cü ildə istismara verilmişdir, sərfi saniyədə 2-4 kub m, uzunluğu 18 km, təsir zonasında ərazinin sahəsi 11 min hektar;

Sabir adına kollektor – 1953-ci ildə istismara verilmişdir, sərfi saniyədə 4-6 kub m, uzunluğu 18 km, təsir zonasında ərazinin sahəsi 17 min hektar;

Əzizbəyov adına kollektor – 1954-cü ildə istismara verilmişdir, sərfi saniyədə 2,0-4,0 kub m, uzunluğu 72 km, təsir zonasında ərazinin sahəsi 18 min hektar;

Mansur kollektoru – 1954-ci ildə istismara verilmişdir, sərfi saniyədə 4-7 kub m, uzunluğu 21 km, təsir zonasında ərazinin sahəsi 15 min hektar;

Solsahil kollektoru – 1954-ci ildə istismara verilmişdir, sərfi saniyədə 2-3 kub m, uzunluğu 18 km, təsir zonasında ərazinin sahəsi 11 min hektar;

Sağsahil kollektoru – 1954-ci ildə istismara verilmişdir, sərfi saniyədə 4-6 kub m, uzunluğu 44 km, təsir zonasında ərazinin sahəsi 12 min hektar.

Salyan düzündə ümumi uzunluğu 74,7 km olan əsas təsərrüfatlarası kollektorlar aşağıdakılar idi:

Şimali Akuşin kollektoru – 1950-ci ildə istismara verilmişdir, sərfi saniyədə 2-4 kub m, uzunluğu 26,5 km, təsir zonasında ərazinin sahəsi 9 min hektar;

Orta Akuşin kollektoru – 1951-ci ildə istismara verilmişdir, sərfi saniyədə 3-5 kub m, uzunluğu 14 km, təsir zonasında ərazinin sahəsi 8 min hektar;

Mərkəzi kollektor – 1953-cü ildə istismara verilmişdir, sərfi saniyədə 2-4 kub m, uzunluğu 17,5 km, təsir zonasında ərazinin sahəsi 11 min hektar;

Kürətrafı kollektor – 1953-cü ildə istismara verilmişdir, sərfi saniyədə 1-2 kub m, uzunluğu 9,2 km, təsir zonasında ərazinin sahəsi 4 min hektar;

Cənubi-Şərqi kollektor – 1954-cü ildə istismara verilmişdir, sərfi saniyədə 1-2 kub m, uzunluğu 7,5 km, təsir zonasında ərazinin sahəsi 4 min hektar.

SSRİ Nazirlər Sovetinin 27.05.1953-cü il qərarı ilə Zaqafqaziya Su-Layihə Pambıqçılıq İdarəsi əsasında SSRİ Kənd Təsərrüfatı Nazirliyinin (KTN-nin) Baş Su Təsərrüfatı İdarəsi tabeçiliyində olmaqla, Azərbaycan Su Təsərrüfatı Layihə İnstitutu "Azsutəslayihə" yaradıldı.

SSRİ Nazirlər Sovetinin 10.4.1954-cü il 673 saylı qərarı ilə "Azsutəslayihə" İnstitutu Azərbaycan SSR Su Təsərrüfatı Nazirliyinin tabeçiliyinə verildi.

1955-ci ildən "Azsutəslayihə" İnstitutunda iri hidrotexniki qurğuların ayrı-ayrı konstruksiya hissələrindən yığılmasına və təsərrüfatdaxili sistemlərdə hidrotexniki qurğuların standart cizgilərini geniş tətbiq etməklə layihə sənədlərinin hazırlanmasına başlanılmışdır. Su təsərrüfatı tikintilərində işlətmək üçün dəmir-beton məhsullar istehsal edən mexanikləşdirilmiş poliqonlar layihələndirilmişdir. ET-121 ekskavatoru bazasında drendüzən EŞ-2, kanalın yamacını sıxlaşdırmaq üçün MUQ-3, çalovunun həcmi 1,5 kub m, yükqaldırma qabiliyyəti 3,25 ton olan betondöşəyən maşın və digər yeni maşınların, avadanlıqların cizgiləri layihə institutunun əməkdaşları tərəfindən hazırlanmışdır. Bölgələr üzrə 1946-cı ildən başlanmış müxtəlif su təsərrüfatı sxemlərinin hazırlanması işləri başa çatdırılmışdır.

Bu illərdə layihə institutunda ixtisaslar üzrə kadr hazırlığı sahəsində də böyük işlər görülmüşdür. Təşkil olunmuş 6 aylıq kurslarda nivelirlə işləməyi bacaran 26 nəfər texnik, cizgiləri kalka kağızlarına köçürməyi bacaran 15 nəfər texnik, 15 nəfər texnik-menzulist, 30 nəfər layihəçi-texnik, 30 nəfər texnik və digər sahələr üzrə gənc mütəxəssislər hazırlanmışdır.

Kür çayının su ehtiyatından səmərəli istifadə olunmasına Mingəçevir su anbarının yaradılması ilə başlanıldı. Mingəçevir hidroqovşağı 1955-ci ildən tam istismara verilmişdir. Mingəçevir torpaq bəndi, o dövr üçün hündürlüyünə görə dünyada analoqu olmayan sadə konstruksiyada tikilmiş hidrotexniki qurğu idi. Bəndin hündürlüyü 80 m, üstdən uzunluğu 1559 m, eni 16 m, su anbarında ölü həcm (istifadəsi nəzərdə tutulmayan) 7679 mln. kub m və bu həcmə uyğun su səviyyəsinin yüksəkliyi 68 m-dir. Anbarda faydalı həcm (istifadəsi nəzərdə tutulan) 8051 mln. kub m, faydalı həcm tam yığıldıqda anbarda su səthinin yüksəkliyi 83 m, bu səviyyəyə uyğun anbarda olan suyun həcmi 15730 mln. kub m, su səthinin sahəsi 605 kv km, su anbarının çay boyunca uzunluğu 70 km, orta eni 18 km, maksimum dərinlik 75 m, orta dərinlik 26 m, anbarın perimetri boyunca sahil xəttinin uzunluğu isə 247 km-dir.

Anbarda daşqın suyunun həcmi 340 mln. kub m, bu həcmə uyğun su səthinin yüksəkliyi 83,56 m, anbarda yığılmış suyun həcmi isə 16070 mln. kub m-dir. Elektrik cərəyanı almaq üçün SES-dəki aqreqatların sayı 6 ədəd idi. Bir aqreqatın suburaxma qabiliyyəti saniyədə 130 kub m, aqreqatların hamısı işləyən halda tələb olunan su sərfi isə saniyədə 780 kub m-dir.

Mingəçevir su anbarındakı bəndin görünüşü. 1955

Mingəçevir su anbarının görünüşü. 1955

Mingəçevir SES-nin görünüşü. 1955

Anbar tamam doldurulduqdan sonra (su səviyyəsi 83 m), daşqın baş verərsə, bənddən Kür çayına uzunluğu 1350 m olan dib sutullayıcısından saniyədə 1600 kub m, uzunluğu 600 m olan yuxarı sutullayandan saniyədə 2000 kub m, SES-in aqreqatları vasitəsilə saniyədə 780 kub m, Yuxarı Qarabağ kanalına saniyədə 113 kub m, Yuxarı Şirvan kanalına isə saniyədə 78 kub m su buraxmaq olardı.

Mingəçevir SES-i uzun müddət Zaqafqaziyada ən güclü elektrik mənbəyi olmuşdur. SES-dəki 6 ədəd hidroaqreqatın gücü əvvəllər 371 min kvt, hazırda isə 400 min kvt-dır.

Hidroqovşaqda tikinti müddətində görülmüş işlərin həcmi:

Çıxarılan yüngül qruntun həcmi – 29,2 mln. kub m, çıxarılan qaya qruntunun həcmi – 4,5 mln. kub m, tökülən yüngül qruntun həcmi 17,7 mln. kub m olmuşdur ki, bunun da 15 mln. kub m-i horra şəklinə salındıqdan sonra bəndin gövdəsinə tökülmüşdür. Beton və dəmir-beton işlərinin çəkisi 786 min ton, metalkonstruksiyalarının çəkisi 25,2 min ton idi.

Mingəçevir su anbarının altında qalan, yəni, insanların istifadəsindən çıxan ərazinin sahəsi 252 min hektar, su anbarından aşağıda, Kür-Araz düzənliyində onun təsir zonasında olan ərazilərin sahəsi isə 1270 min hektardır. Anbara hər il təxminən 900 min kub m gətirmələr çökmüşdür.

Texnogen və antropogen amillərin təsirindən, təbii hadisələrin baş verməsi ehtimalından Mingəçevir su anbarının kənarda qalması mümkün deyildir.

Məsələn, Mingəçevir su anbarının sağ sahilində 1999-cu ildə torpaq sürüşməsi baş vermişdir. Hidrotexniki qurğuların normal işləməsinə yaratdığı təhlükəyə görə, sürüşmə baş verdiyi ərazi 3 zonaya bölünərək müvafiq tədbirlər görülmüşdür.

Araz çayı üzərində tikiləcək Bəhrəmtəpə hidroqovşağının layihə sənədləri "Azdövsutəslayihə" institutunda hazırlanmışdır.

Bəhrəmtəpə hidroqovşağı Araz çayı üzərində, çayın mənsəbindən 66 km yuxarıda, İmişli rayonu ərazisində tikilmiş və 1957-ci ildən istismar olunur. Bu qurğu tikilməmişdən əvvəl də Araz çayında mexaniki üsulla tənzimləmə aparmaqla 1912-ci ildə tikilmiş magistral kanala su verilirdi. Qurğunun tikilməsində əsas məqsəd, çayın su ehtiyatından səmərəli istifadə



Bəhrəmtəpə hidroqovşağı. 1957

etməklə Mil və Muğan düzlərindəki əkin sahələrini lillərdən təmizlənmiş suvarma suyu ilə təmin etmək idi. Bu məntəqədə asılı gətirmələrin orta sərfi 38 kq/san, ayrı-ayrı vaxtlarda suda maksimum bulanıqlıq 5600 q/kub m, suyun orta illik bulanıqlığı 360 q/kub m müşahidə olunmuşdur.

Bəhrəmtəpə hidroqovşağına: beton bənd, suqəbuledici, beton və torpaq sudurulducular, magistral kanallara baş suqəbuledicilər, balıqburaxan qurğular və s. daxildir. Çayın suyu sudurulduculardan keçərək bərk hissəciklərdən, asılı gətirmələrdən təmizləndikdən sonra magistral kanallara verilir. Bəndin hündürlüyü 6-7 m-dir. Hidroqovşaqda bəndin qarşısında 5 m basqı yaratmaq məqsədi ilə, eni 15 m olan və qapı ilə bağlanan 6 suötürücü qurğu, sağ sahildə isə eni 1,2 m, hündürlüyü 5 m olmaqla durulduculara su buraxan 4 ədəd şlüz nizamlayıcı işlədilir. Durulducular 9 kameradan ibarətdir. Fövqəladə hallarda hidroqovşaqdan saniyədə 2500 kub m daşqın sularını buraxmaq mümkündür.

Tikintidən sonra hidroqovşaqdan su alan Rəsularx, Baş Muğan, Əzizbəyov magistral kanalları ilə İmişli, Saatlı, Sabirabad, Biləsuvar və Cəlilabad rayonları ərazisində olan 157 min hektar əkin sahəsinə bərk hissəciklərdən təmizlənmiş suvarma suyunu vermək mümkün olmuşdur. Durulducularda gətirmələrdən təmizlənmiş suyu normal şəraitdə kanallara saniyədə 91 kub m, tələbat artarsa, saniyədə 113 kub m sərflə vermək mümkündür.

Yay aylarında Araz çayında axının su sərfi tələb olunan həcmlərdə suyun kanallara verilməsinə imkan vermədiyi hallarda yaranmış şəraitdən çıxmaq məqsədi ilə, Bəhrəmtəpə hidroqovşağından bir qədər yuxarı hissədə Araz çayına Yuxarı Qarabağ kanalından saniyədə 40-45 kub m su sərfinin verilməsi də nəzərdə tutulmuşdur.

Layihə institutunda suvarma kanallarına beton üzlük çəkilməsi və nov kanallardan ibarət suvarma sistemlərinin layihələrinin işlənməsinə də bu illərdə başlanıldı.

"Azsutəslayihə" İnstitutunda aparılan iş təcrübəsini öyrənmək məqsədilə xarici dövlətlərdən və SSRİ-də fəaliyyət göstərən müvafiq layihə təşkilatlarından gəlmiş nümayəndələrin iştirakı ilə 1956-cı ildə geniş müşavirə keçirilmişdir. Çin, Koreya və Çexoslavakiya dövlətlərindən gəlmiş nümayəndələrin xahişi ilə onlara institutda hazırlanmış nov kanalların işçi cizgiləri verilmişdir.

Bu illərdə "Azsutəslayihə" İnstitutu SSRİ-də fəaliyyət göstərən digər layihə təşkilatlarına nümunə olmuşdur. Kanallara beton üzlüklərin çəkilməsi, örtülü drenlərin tikilməsi, mexaniki üsulla suvarmanın aparılması sahəsində əməkdaşların iş təcrübəsi ölkənin digər layihə təşkilatları tərəfindən mütamadi olaraq yaxından öyrənilmişdir.

"Azsutəslayihə" İnstitutunda fəaliyyət göstərən əməkdaşların sayı ilbəil artırdı. 1957-ci ildə 588 nəfər, 1963-cü ildə 1000 nəfər, 01.01.1964-cü ildə isə 1046 nəfər əməkdaş çalışırdı ki, bunlardan da 591 nəfəri mühəndis texniki işçilər, 160 nəfəri fəhlə, 142 nəfəri qulluqçu, 21 nəfəri kiçik xidmət heyəti, 132 nəfəri mövsümi işlərə cəlb edilənlər idi. 1964-cü ilin ilk ayında institutun maşın parkında 85 ədəd müxtəlif markalı maşınlar olmuşdur.

1961-ci ildən başlayaraq institut işçilərinin iştirakı ilə əməkdaşlar üçün yaşayış binasının tikintisinə başlanıldı. Nəzərdə tutulmuş 4 binadan birincisi, 63 ailəlik 01.01.1964-cü ildə, 45 ailəlik bina isə bir qədər sonra əməkdaşların istifadəsinə verildi.

"Azsutəslayihə" İnstitutu 1964-cü ildə istifadə olunan sahəsi 7200 m^2 olan 5 mərtəbəli yeni binaya köçmüşdür.

Şirvan düzü Azərbaycan Respubliksında suvarma aparılan əsas zonadır. A.K.Axundova görə (1966) Şirvan düzünün ümumi sahəsi 730 min hektardır ki, bunun da 450 min hektarında suvarmanın aparılması mümkündür. Ancaq Yuxarı Şirvan kanalı tikilməmişdən əvvəl düzənlikdə 120 min hektar sahədə suvarma aparılmışdır ki, bunun da 80 min hektarı Şirvan düzünə axan 5 çayın suyu ilə, 40 min hektar sahə isə Kür çayı ətrafında mexaniki suvarma tətbiq etməklə həyata keçirilmişdir.

Mingəçevir hidroqovşağı tikildikdən sonra Yuxarı Şirvan kanalının 1959-cu ildə istismara verilməsi ilə Şirvan düzündə 112 min hektar suvarılan sahə, bitkilərin su tələbatına uyğun olaraq su ilə təmin olunmuşdur.

Mingəçevir su anbarı yaradıldıqdan sonra Kür çayının axını nizamlandığına görə, aşağı hissələrdə baş verə biləcək daşqınların qarşısı alındı və məhsuldar əkin sahələrinin suvarılması mümkün oldu.

Mingəçevir dəryaçası yarandıqdan və tikintisi mümkün olmuş Yuxarı Qarabağ və Yuxarı Şirvan kanalları istismara verildikdən sonra Qarabağ, Mil, Muğan və Şirvan düzlərində 234 min hektar sahə su tələbatına müvafiq suvarma suyu ilə təmin edilmişdir.

Yuxarı Şirvan kanalı suyu Xanabat bəndindəki baş qurğudan alır. Su qəbul edilən yerdə kanalın dib yüksəkliyi 65,33 m-dir. Anbardan baş qurğuya su nəql edən kanalın uzunluğu 2,9 km-dir. Bu kanalın su qəbul etdiyi yerdə dib yüksəkliyi 70 m olduğuna görə, son illərdə (2000-2001) anbarda suyun səviyyəsi aşağı olduğundan Yuxarı Şirvan kanalına tələb olunan suyun verilməsində problemlər yaranmışdır. Bunu nəzərə alan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mütəxəssisləri anbardan su nəql edən kanalda dərinləşdirmə və genişləndirmə işləri aparmış və su qəbul edilən yerdə kanalın dib yüksəkliyini 68 m-ə qədər aşağı salmışlar.

Yuxarı Şirvan kanalı Şirvan düzündə, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab, Ağsu, Kürdəmir və Hacıqabul rayonlarının ərazisindəki əkinəyararlı torpaq sahələrini suvarma suyu

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı naziri Tağı Əbdülrəhimov
Çin Xalq Respublikasından gəlmiş mütəxəssislərlə. 1956
(Tağı Əbdülrəhimov soldan birinci)

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı nazirinin müavini Yusif İbadzadə Çin Xalq Respublikasından gəlmiş mütəxəssislərlə görüşdə. 1956

Soldan: Abbasov Mehdi Əli oğlu, İbadzadə Yusif Əliqulu oğlu, Suçkov Viktor Nikolayeviç. 1956

Yuxarı Şirvan kanalında baş suqəbuledici qurğu

ilə təmin edir. Yuxarı Şirvan kanalının üzərində nasos stansiyası tikməklə suvarma suyunun çatışmadığı Ağsu rayonunda əlavə 20 min hektar sahədə su təminatı yaxşılaşmışdır. Kanalın ümumi uzunluğu 123 km, sərfi saniyədə 78 kub m-dir. Hidravlik göstəriciləri aşağıdakı kimidir: dibdən eni b=8÷3 m; suyun sürəti v=0,72÷0,5 m/san; kanalın inşaat dərinliyi h= 4,60÷ 3,75 m; yamaclığı m=2,0; m=1,5.

Kanalın istismara verildiyi ilk illərdə faydalı iş əmsalı aşağı idi. Yuxarı Şirvan kanalından, onun su verdiyi suvarma sisteminin kanallarından sızmaya gedən suların və suvarma texnikasına və suvarılmanın aparılma mədəniyyətinə əməl olunmadığına görə, əkin sahələrinə verilmiş artıq suvarma normalarından və digər səbəblərdən, suvarılan sahələrdə drenaj olmadığı üçün yeraltı qrunt sularının səviyyəsi az müddət ərzində yer səthinə yaxınlaşdığına görə, suvarma aparılan sahələrdə torpaqlarda şorlaşma prosesi başladı.

Məlum olduğu kimi, Şirvan düzündə 1950-ci ildə 96 min hektar suvarılırdısa, 1955-ci ildə 132 min hektar, 1960-cı ildə 156 min hektar, 1965-cı ildə isə 167 min hektar suvarma aparılan sahə olmuşdur. Ərazilərdə drenaj sistemlərinin geniş miqyasda tikilməsinə başlanılmışdır. Kollektor-drenaj sistemləri tikilmiş sahələr 1960-cı ildə 20 min hektar, 1965-ci ildə isə 134 min hektar idi. Şirvan düzündə tikilməsi nəzərdə tutulan drenlərin suyunu Xəzər dənizinə axıtmaq məqsədi ilə Baş Şirvan kollektorunun layihə sənədlərinin hazırlanmasına başlandı.

Baş Şirvan kollektorunun tikintisinə 1960-cı ildə başlanmış və 1964-cü ildə istismara verilmişdir. Kollektorun uzunluğu 216 km, mənsəbdə normal sərfi Q = 36,9 kub m/san (maksimal sərf 44 kub m/san), Baş Şirvan kollektorunun başlanğıcı ilə mənsəbi arasında yüksəkliklər fərqi 24,85 m, orta mailliyi i=0,00013, suyun orta sürəti v=0,5÷0,4 m/s (bəzi sahələrdə 0,85÷0,7 m/s), başlanğıcında suyun sərfi 2 kub m/san, orta dren modulu 0,12 l/san



ŞİRVAN ZONASINDA SUVARILAN TORPAQLAR

S/s	Rayonların adı	Ümumi sahə ha	Suvarma şəbəkəsi torpaqlar ha	Mövcud dövrdə suvarılan torpaqlar ha	O cümlədən: Öz axını ilə suvarılan torpaqlar ha	O cümlədən: Kür çayından mexaniki üsulla suvarılan torpaqlar ha
1	2	3	4	5	6	7
1	Yevlax (Sol sahil)	23003	16839	11097	8417	2680
2	Ağdaş	94729	47762	34521	26150	8371
3	Zərdab	67983	41779	32756	1000	31756
4	Kürdəmir	116190	98298	52843	28379	24464
5	Sabirabad (Sol sahil)	30340	29037	15677	-	15677
6	Hacıqabul	90633	6772	6960	-	6960
7	Ucar	75989	41125	24767	24767	-
8	Göyçay	68252	39181	26291	26291	-
	Cəmi:	567198	313793	204932	115024	89908

KÜR ÇAYINDAN NASOSLARLA SUVARILAN TORPAQLAR

S/s	Rayonların adı	Mövcud dövrdə suvarılan torpaqlar ha	Kür çayından mexaniki üsulla suvarılan torpaqlar ha	Nasos stansiyalarının sayı ədəd	Nasosların ümumi sərfi m^3/san	Verilən suyun illik həcmi Min. m^3/il
1	2	3	4	5	6	7
1	Yevlax (Sol sahil)	11097	2680	4	1.80	41400,0
2	Ağdaş	34521	8371	30	23.95	122220,0
3	Zərdab	32756	31756	59	84.21	584200
4	Kürdəmir	52843	24464	39	54.1	355350
5	Sabirabad (Sol sahil)	15677	15677	18	30.5	227700
6	Hacıqabul	6960	6960	10	11.45	101200
	Cəmi:	153854	89908	160	206.01	1431750

Nasos stansiyaların illik istismar xərcləri

Suvarma ərazisi üzrə	Nasoslarla suvarılan torpaqlar ha	Nasos stansiyaların sayı ədəd	Nasos stansiyalarında aqreqatların sayı ədəd	Nasos stansiyaların illik istismar xərci min. manat	O cümlədən: Enerji sərfi min. kVt/s	Enerji xərci min. manat	Yanacaq sərfi ton	Yanacaq xərci min. manat
Cəmi:	89908	160	313	19248.5	82160	10440.6	5170	4952.1

Yuxarı Şirvan kanalının təsir zonasında ərazinin sxematik planı

ha, dibdən eni b=1,5÷12,0 m, mənsəbdə 2,3 km uzunluqdakı hissədə b=33 m-ə, qazma dərinliyi 3,5÷7,5 m (bəzi sahələrdə 12÷34 m), yamaclıq əmsalı m=1,25÷2,5 idi.

Yuxarı Qarabağ kanalı 1958-ci ildə istismara verilmişdir. Su anbarındakı Yuxarı Portal baş qurğusundan qəbul edilən su, uzunluğu 1072 m, diametri 4,9 m olan tuneldən keçirilərək Aşağı Portal baş qurğusu vasitəsilə kanala verilir. Su qəbul edilən yerdə kanalın dib yüksəkliyi 59 m-dir.

Torpaq məcrada tikilmiş kanalın uzunluğu 172,4 km, normal su sərfi saniyədə 113 kub m, maksimal su sərfi isə saniyədə 138 kub m-dir.

Kanal Qarabağ zonasının, Mil düzünün (az da olsa Muğan düzünün) 122 min hektar sahəsini su ilə təmin edir. Araz çayında su az olan vaxtlarda bu kanala Bəhrəmtəpə hidroqovşağına saniyədə 45 kub m su vermək mümkündür. Eyni zamanda, AzDRES-in (Azərbaycan Dövlət Rayon Elektrik Stansiyası) istifadə etdiyi soyutma suyu da bu kanaldan götürülür. Qış aylarında əkin sahələrinə su lazım olmadıqda belə, AzDRES-ə görə kanala saniyədə 65 kub m su verilir. Soyutma sistemindən çıxan isti su yenidən kanala axıdılır. Bu isə suvarma aparılmayan aylarda AzDRES-in fasiləsiz işi ilə bağlı kanalda təmir-bərpa işlərinin aparılmasına mane olur. Kanala daxil olan isti su torpaq məcrada müxtəlif bitkilərin inkişaf etməsinə şərait yaratdığından, kanalın en kəsik sahəsi azalır və hidravlik parametrlər dəyişir, kanalın su aparma qabiliyyəti 20-30 % azalır.

Yuxarı Qarabağ kanalına su buraxılmamışdan əvvəl kanalın istiqaməti keçən ərazilərdə, kanalətrafı sahələrdə (1955) qrunt sularının orta yatım dərinliyi 10-15 m idi. Kanala su verilən ilin sonunda qrunt sularının orta yatım dərinliyi 5-6 m, təxminən 5-7 il keçəndən sonra isə 3,0÷3,5 m olur. 1962-ci ildə Xaçınçayın yaxın ərazilərdəki kanal keçən sahələrdə qrunt sularının orta yatım dərinliyi 1,0÷1,5 m idi.

Yuxarı Qarabağ kanalında baş suqəbuledici qurgu



YUXARI QARABAĞ KANALINDAN RAYONLAR ÜZRƏ SUVARILAN TORPAQ SAHƏLƏRİ

Sıra	Rayonlar	Ümumi sahə (ha)	Ümumi suvarılan sahə (ha)	O cümlədən: (ha) Yuxarı Qarabağ Kanalından
	I. Qarabağ düzü			
1	Yevlax	141869	38039	9000
2	Bərdə	112207	53949	49000
	Qarabağ düzü üzrə cəmi:	254076	91988	58000
	II. Mil düzü			
1	Ağcabədi	143541	56414	10200
2	Beyləqan	125058	48292	3200
3	İmişli	171221	43551	21000
	Mil düzü üzrə cəmi:	440120	148257	34000
	Ümumi cəmi:	694196	240245	92400

Yuxarı Qarabağ kanalının təsir zonasında ərazinin sxematik planı

Aparılmış araşdırmalardan sonra məlum olmuşdur ki, torpaq məcrada tikilmiş kanala su verilən ilkin vaxtlarda sızmaya gedən itkilər təxminən 50 % olmuşdur. Sonrakı illərdə məcrada gedən təbii kipləşmədən kanalda su itkisi azalmış, məcranın en kəsik sahəsi artdığından, kanalın su aparma qabiliyyəti də yüksəlmişdir.

Qarabağ kanalının təsir zonasında yerləşən əkin sahələrində qrunt sularının səviyyəsini böhran dərinliyində saxlamaq və torpaqların təkrar şorlaşmasının qarşısını almaq məqsədilə, təsərrüfatlardakı kollektor-drenaj sistemlərindən kənar olunan dren sularını ərazidən kənara axıtmaq üçün Mil-Qarabağ kollektoru tikilmişdir.

Mil-Qarabağ kollektorunun tikintisinə 1958-ci ildə başlanılmış, 1966-cı ildə isə tikinti işləri sona çatmışdır. Kollektorun uzunluğu 168 km, Qarabağ və Mil düzlərində xidmət etdiyi sahə 169 min hektardır. Kollektor Kürdəmir rayonu Mollakənd kəndi yaxınlığında, Kür çayının sağ sahilindən düker qurğusu ilə sol sahilə keçirilmişdir. Kollektorun maksimum sərf aparma qabiliyyəti Q=48 kub m/san idi. Kollektorun inşaat dərinliyi 6,0; 5; 3,5, yamaclıq əmsalı 1,5m, dibdən eni 1,8÷1,5 m-dir.

Samur-Abşeron kanalının tikintisi, yuxarıda qeyd edildiyi kimi, iki növbədə həyata keçirilmişdir. 1940-cı ildə istismara verilmiş birinci növbəsinin uzunluğu 108,7 km, sərfi saniyədə 24÷16 kub m, su ilə təmin edilən əkin sahəsi 70 min hektar olmuşdur. Kanal torpaq məcrada inşa edilmişdir.

Dəvəçidən-Abşerona qədər uzunluğu 86,3 km olan ikinci növbəsi 1955-ci ildə istismara verilmişdir.

Samur-Abşeron kanalın sonunda Ceyranbatan su anbarı yaradılmışdır.

Abşeron yarımadasında əkinəyararlı sahələri suvarma suyu ilə təmin etmək, Bakı və Sumqayıt şəhərlərində su təchizatı sahəsində yaranmış problemləri aradan qaldırmaq məqsədilə

Samur-Abşeron kanalında baş suqəbuledici. Samur çayı. 1955

Samur-Abşeron kanalı üzərində hidrotexniki qurğu. 1955

Qudyalçayda sudurulducu



Ceyranbatan su anbarı

Ceyranbatan su anbarında nasos stansiyasının binası



Samur-Abşeron kanalı



Suvarma kanalı



İnstitutun 35 illik yubleyi münasibətilə buraxılmış kitab

Azdövsutəslayihə institutunun yeni binası. 1964



Azdövsutəslayihə institutunun strukturu. 1964

İnstitutun 35 illik yubleyində çəkilmiş şəkil. 1964

İnstitutun aparıcı mütəxəssislərindən bir qrup. 1962

Mütəxəssislər Ceyranbatan su anbarında vəziyyəti araşdırırlar.
Şəkildə sağdan birinci – Azərbaycan Meliorasiya və Su Təsərrüfatı nazirinin müavini Paşa Paşayev, ikinci – Azdövsutəslayihə institunun direktoru Cəfər Səlimbəyov. 1966



Muğan düzü bütün dövrlərdə diqqət mərkəzində olub.
İnstitutun direktoru Cəfər Səlimbəyov mütəxəssislərin suallarına aydınlıq gətirir. 1968

Türyançay üzərində hidrotexniki qurğu. Ağdaş rayonu

Nov kanal. Kürdəmir rayonu

Magistral kanal. Ağsu rayonu

Suburaxan hidrotexniki qurğu. Göyçay rayonu

Yuxarı Şirvan kanalında akveduk

1960-cı ildə Samur-Abşeron kanalının yenidən qurulmasına başlanıldı. Kanalın əyri hissələri düzəldilmiş, Qudyalçay və Vəlvələçayla kəsişən hissədə əlavə su təminatı üçün suqəbuledicilər tikilmiş və bütövlükdə kanala beton üzlük çəkilmişdir. Kanalın sərfi artırılaraq mənbəyə yaxın hissədə saniyədə 55 kub m, sonunda isə 25 kub m-ə çatdırılmışdır. Kanalın tələb olunan rejimdə işləməsini təmin edən müxtəlif təyinatlı 443 hidrotexniki qurğu tikilmişdir. Trapes en kəsik şəkilli kanalın inşaat dərinliyi 3÷4 m, dibdən eni 4-6 m, yamaclıq əmsalı 1,5÷2m, orta maillik 0,003-0,0014 idi.

Abşeron kanalı Abşeron yarımadasının 1600 hektar sahəsini suvarma suyu ilə təmin etmək məqsədilə tikilmişdir. Ceyranbatan su anbarından su qəbul edən və Zirə kəndinə qədər uzanan kanalın uzunluğu 75 km, mənbəydə sərfi saniyədə 9 kub m-dir.

"Azdövsutəslayihə" İnstitutunun 1950-ci illərdən sonrakı fəaliyyəti dövründə Azərbaycanda və SSRİ məkanında meliorasiya və su təsərrüfatı obyektlərinin layihə sənədlərinin hazırlanmasında xüsusi əməyi olmuş mütəxəssislərin:

Topoqrafik-axtarış şöbəsindən: Kərimov Əbilqasım Əşrəf oğlu, Serdikov Vladimir Tixonoviç, Məmmədov Cavad Murtuz oğlu, Hüseynov Surxay Əsəd oğlu, Çernişov Viktor Mixayloviç, Xudaverdiyev Məmməd Mustafa oğlu və Qasımov Qəzənfər Cabbar oğlu,Mayeranov Sergey Vladimiroviç;

Geologiya və hidrogeologiya şöbəsindən: İsmayılzadə İsmayıl Heydər oğlu, Gulaşvili Radion Semyonoviç, Çaxadze Vasili Tarasoviç, Filonov Konstantin Nikolayeviç və Qazızadə Mustafa Vedut oğlu, Məmmədov Zahid Hüseyn oğlu;

Layihə şöbələrindən: Əskərbəyli Brilyant İskəndər qızı, Haqverdiyev Oqtay Qəhrəman oğlu, Suçkov Viktor Nikolayeviç, Şilovtsev Vinyamin Fyodoroviç, Atakişiyev İslam Məmməd oğlu, Mustafayev Mustafa Əli oğlu, Axundov Nadir Muxtar oğlu, Axmerov Rəfael Saleh oğlu, Tabasaranski Bəybala Əlimərdanoviç, Qasımxanov Mahmud Ağarza oğlu, Quluzadə Sitarə İsmayıl qızı, Ağazadə Tahir Cahangir oğlu, Axundov Rza Kutabullayeviçin və başqalarının adlarını böyük ehtiramla xatırlamaq istərdik.

“AZDÖVSUTƏSLAYİHƏ” İNSTİTUTU
1970-1991-Cİ İLLƏR

Azərbaycanda 1970-1982-ci illərdə meliorasiya və su təsərrüfatı sahəsinin geniş miqyasda inkişafı, “Azdövsutəslayihə” İnstitutunda yerinə yetirilən layihə-axtarış işlərinin sayının və həcmlərinin artmasına səbəb oldu.

Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycanın meliorasiya və su təsərrüfatı sahəsinə ayrılmış vəsait, sovet hakimiyyətinin 50 ili ərzində bu sahəyə qoyulmuş ümumi vəsaitdən 2 dəfə artıq olmuşdur.

Heydər Əliyev cənablarının xüsusi diqqət və qayğısı nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, aqrar sahədə yüksək nailiyyətlərə nail olmaq üçün kompleks meliorasiya tədbirləri həyata keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin milli kadrların hazırlanması istiqamətində apardığı uğurlu siyasət bütün sahələrdə olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsində də öz bəhrəsini verdi.

Heydər Əliyev Aşağı Köndələnçay su anbarının açılışında. 1982



Aşağı Köndələnçay su anbarının açılışı. Füzuli rayonu 1982-ci il

Heydər Əliyev Yuxarı Xanbulançay su anbarının açılışında. 1976



Xanbulançay su anbarı. Lənkəran

Heydər Əliyev Yuxarı Xanbulançay su anbarı tikilən ərazidə. 1973

Heydər Əliyev Sərsəng su anbarının açılışında. 1976

Sərsəng hidroqovşağında bənd

Sərsəng hidroqovşağı

Heydər Əliyevə Bəşəriçaydakı hidrotexniki qurğu haqqında məlumat verilir. 1976

İnstitutun fəaliyyət tarixi araşdırılarkən məlum oldu ki, 1970-ci ilə kimi respublika ərazisində tikilmiş irihəcmli meliorasiya və su təsərrüfatı obyektlərinin layihə sənədləri digər millətlərdən olan mütəxəssislərin rəhbərliyi altında işlənilmişdir. Yeni, böyük vəsait qoyuluşu tələb edən layihələrin baş mühəndisləri başqa millətin nümayəndələri olmuşdur.

Araşdırmalar göstərdi ki, 1980-ci ildən sonra respublikamızda tikilmiş və tikilməkdə olan meliorasiya və su təsərrüfatı obyektlərində layihə müəllifləri əsasən Heydər Əliyev məktəbindən bəhrələnmiş milli kadrlar olmuşlar.

"Azdövsutəslayihə" İnstitutunda 1982-ci ildə layihə-axtarış işlərini zonalar üzrə yerinə yetirən 6 istehsalat-layihə şöbəsi fəaliyyət göstərirdi. İnstitutda 1600 nəfərdən artıq işçi çalışırdı. Əməkdaşlardan 17-nin elmi dərəcəsi var idi.

Meliorasiya və su təsərrüfatı tikintilərinin layihələndirilməsində qazanılmış zəngin iş təcrübəsi yüksəkixtisaslı kadrların xarici dövlətlərə dəvət almasına və bu ölkələrdə layihə-axtarış işlərində fəal iştirakına imkan yaratdı.

İnstitutun əməkdaşları Yəmən Xalq Demokratik Respblikasında, Yəmən Ərəb Respblikasında, Kuba Respublikasında, Əlcəzair Xalq Demokratik Respublikasında, Mozambik Xalq Respublikasında, İraq Respublikasında, Suriya Ərəb Respublikasında, Anqola Xalq Respublikasında, İran İslam Respublikasında və digər ölkələrdə meliorasiya və su təsərrüfatı obyektlərinin layihə-axtarış işlərinin hazırlanmasına yardım etmək üçün bu ölkələrə göndərilmişlər.

İnstitutun əməkdaşlarından Mirzəxanov Əli Cəbrayıl oğlu 1969-1970-ci illərdə Yəmən Ərəb Respublikasında, Cavadov Aydın Əhməd oğlu 1970-1971-ci illərdə Yəmən Ərəb Respublikasında, Xasayev Əsgər İsmayıl oğlu 1970-1971-ci illərdə Yəmən Demokratik Respublikasında, 1981-1982-ci illərdə Mozanbik Xalq Respublikasında, Musayev Telman Məsim oğlu 1978-1991-ci illərdə Kuba Respublikasında, Şahməmmədov Şahməddin Bayram oğlu 1978-1981-ci illərdə Kuba Respublikasında, Abdullayev Əlimuxtar Xudaverdi oğlu 1979-1982-cı illərdə Kuba Respublikasında, Məmmədov Adil Məmməd oğlu 1980-1983-cü illərdə Kuba Respublikasında, Əliyev Fikrət Məmmədrza oğlu 1982-1984-cü illərdə Mozambik Xalq Respublikasında, Babayev Vaqif Allahverdi oğlu 1983-1986-cı illərdə Suriya Ərəb Res-

Şəkildə soldan Paşa Paşayev, Zülfüqar Musayev, Nadir Rüstəmov, Ramiz Əbdülrəhimov, Rəfail Axundov. 1974

publikasında, Qafarlı Adil Rzaqulu oğlu 1986-1990-cı illərdə Kuba Respublikasında, Mahmudov Səttar Maqsud oğlu 1986-1990-cı illərdə Yəmən Xalq Demokratik Respublikasında, Mustafayev Rövşən Şakir oğlu 1986-1989-cu illərdə Yəmən Xalq Demokratik Respublikasında, Əliyev Rafiq Məmmədbağır oğlu 1989-1993-cü illərdə Suriya Ərəb Respublikasında, Allahverdiyev Ayət Namaz oğlu 1981-1983-cü illərdə Mozambik Xalq Respublikasında, Məlikov Atakişi Talıb oğlu 1988-1990-cı illərdə İraq Respubliksında, Qasımov Sabir İsgəndər oğlu 1990-1991-ci illərdə Suriya Ərəb Respublikasında, Axundov Murad Bəhram oğlu 1986-1989-cu illərdə Yəmən Xalq Demokratik Respublikasında və 1994-1995-ci illərdə İran İslam Respublikasında çalışmış, səviyyəli mütəxəssis olduqlarını gördükləri işlərlə təsdiq etmiş və "Azdövsutəslayihə" İnstitutunun şərəfini xarici dövlətlərdə də yüksəltmişlər.

Çayların su ehtiyatından səmərəli istifadə etmək məqsədilə Ağstafaçay su anbarı, Araz su anbarı, Sərsəng su anbarı, Arpaçay su anbarı, Yuxarı Xanbulançay su anbarı, Aşağı Köndələnçay su anbarı, Madagiz su anbarı, Zaqalavaçay su anbarı, Cəyirli su anbarı, Salxanqala su anbarı, Şəmkir su anbarı, Əyriçay su anbarı, Viləşçay su anbarı istismara verilmiş və sonrakı illərdə tikintisi nəzərdə tutulan digər su anbarlarının layihə-axtarış işlərinə başlanmışdır.

Bu illərdə Araz çayının su ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə mövcud magistral kanallar yenidən qurulmuş, yeni kanalların və hidroqovşaqların layihə sənədləri hazırlanmışdır.

Tikilən meliorasiya və su təsərrüfatı obyektlərinin demək olar ki, hamısının layihə sənədləri "Azdövsutəslayihə" İnstitutunda hazırlanmışdır.

Rəsularx kanalı İmişli və Saatlı rayonlarının ərazisində 18,3 min hektar sahəni suvarma suyu ilə təmin edir. Uzunluğu 51 km, suburaxma qabiliyyəti 16 m^3/san-dir. Trapes en kəsik şəkilli kanalın dibdən eni 3,4 m, inşaat dərinliyi 1,8 m, yamaclıq əmsalı 2,0m, üstən eni isə 11 m-dir. Kanalın 44,7 km hissəsinə beton üzlük çəkilmiş, 19,5 km hissəsi tam qazmada, 20 km hissəsi tam tökmədə, 11,5 km hissəsi isə yarı tökmədə tikilmişdir. Kanal torpaq məcrada 1960-cı ildə istifadəyə verilmiş köhnə kanalın yerində yenidən tikilərək 1987-ci ildə istismara verilmişdir.

Zülfüqar Musayev və Paşa Paşayev. 1974

Mahmud Əliyev, Məmmədsadıq Quliyev və Paşa Paşayev. 1976

Soldan 1-ci Paşa Paşayev, 3-cü Mahmud Əliyev, 5-ci Əkbər Behbudov, Məmmədsadıq Quliyev

Baş Muğan kanalı 1960-cı ildə istismara verilmişdir. İmişli, Saatlı, Sabirabad rayonlarının ərazisində 65 min hektar sahəni suvarma suyu ilə təmin etmək məqsədi ilə tikilmişdir. Suburaxma qabiliyyəti 60 m^3/san, uzunluğu 34 km-dir. Saatlı rayonu ərazisində kanal iki hissəyə ayrılır. Sağ istiqamətdə tikilmiş, 21 min hektar əraziyə xidmət edən, uzunluğu 65,7 km, suaparma qabiliyyəti 20 m^3/san olan hissəsi **Mürsəlli kanalı** adlanır. Düz istiqamətdə davam edən, uzunluğu 66,3 km, suaparma qabiliyyəti 30 m^3/san olan, 30 min hektar əraziyə xidmət edən hissə isə Sabir kanalı adlandırılır.

Əzizbəyov kanalı hazırda üç hissədən ibarətdir: Köhnə Əzizbəyov kanalı, Yeni Əzizbəyov kanalı və Əzizbəyov kanalının maşın qolu.

Köhnə Əzizbəyov kanalı torpaq məcrada yenidən tikilərək 1960-cı ildə istismara verilmişdir. Əvvəllər İmişli, Biləsuvar və Cəlilabad rayonlarında 69 min hektar əraziyə xidmət etmək üçün tikilmiş, kanalın uzunluğu 65 km, suaparma qabiliyyəti 35 m^3/san-dir. Yeni Əzizbəyov kanalı istismara verildikdən sonra kanal ancaq İmişli rayonunun ərazisində olan 32 min hektar sahəyə xidmət edir.

Yeni Əzizbəyov kanalı 1985-ci ildə istismara verilmişdir. Uzunluğu 46 km, suaparma qabiliyyəti 35 m^3/san-dir. İmişli və Biləsuvar rayonlarının ərazisində 37 min hektar əkin sahələrini suvarma suyu ilə təmin edir.

Əzizbəyov kanalının maşın qoluna su, Yeni Əzizbəyov kanalından nasoslarla verilir. Biləsuvar rayonu ərazisində tikilmiş nasos stansiyasına su, uzunluğu 0,6 km olan beton üzlük çəkilmiş kanalla axıdılır. Nasoslar suyu uzunluğu 3,5 km olan borularla 27 metr yüksəklikdə yerləşmiş kanalın maşın qoluna vurur. Beton üzlük çəkilmiş kanalın uzunluğu isə 41,5 km, Biləsuvar və Cəlilabad rayonları ərazisində xidmət göstərdiyi əkin sahəsi 32 min hektardır.

Boztəpəarx kanalı 1924-cü ildə İmişli rayonu ərazisində tikilmişdir. Araz çayından su öz axını ilə çayda mexaniki tənzimləmə işləri aparmaqla Boztəpəarx kanalına verilir. Başlanğıcında suyun sərfi 8 m^3/san olmaqla torpaq məcrada inşa edilmişdir. İmişli və Beyləqan rayon-



Muğan-Salyan düzündə suvarma
və kollektor-drenaj sistemlərinin sxematik planı. 2006

Haxçıvan MR-də Arpaçay su anbarı. 1977

larının ərazisində 11 min hektar əkin sahəsini suvarma suyu ilə təmin edir. Ümumi uzunluğu 45 km-dir.

Yeni Xanqızı kanalı Xanqızı irriqasiya sistemi, Köhnə Xanqızı və Yeni Xanqızı kanallarının xidmət etdiyi sistemdən ibarətdir. Əkinəyararlı torpaq sahələrində bitkilərin məhsuldarlığını artırmaq və bununla da torpaq sahələrindən səmərəli istifadə etmək üçün Xanqızı irriqasiya sistemində 1970-ci ildən başlamaqla əsaslı meliorasiya tikintilərinin layihələri hazırlanmışdır.

Tərtib olunmuş baş plana əsasən birinci mərhələdə (1971-1975-ci illər) Agcəbədi rayonu ərazisində 13907 hektar sahədə, ikinci mərhələdə (1976-1984-cı illər) Beyləqan rayonu ərazisində 53744 hektar sahədə əsaslı meliorasiya tədbirləri aparılmışdır.

Köhnə Xanqızı kanalına Araz çayından tələbata uyğun həcmdə su götürülməsində müntəzəm olaraq problemlər yaranırdı. Bu problemlər Baş Mil kanalı (1976-cı il) istismara verildikdən sonra həll edildi. Köhnə Xanqızı kanalına suyu Baş Mil kanalından vermək mümkün oldu. Bununla da Araz çayından tələb olunduqda, saniyədə 8-15 kub m su götürülürdü.

Qeyd etmək lazımdır ki, Baş Mil kanalı istismara verildikdən sonra Köhnə Xanqızı kanalına paralel beton üzlük çəkilmiş, uzunluğu 51 km, sərfi saniyədə 40 kub m olan Yeni Xanqızı kanalı tikilib istismara verildi (1985-ci il). Kanal Beyləqan və Ağcəbədi rayonları ərazisində 57,3 min hektar əkin sahəsini suvarma suyu ilə təmin etdi. Üzərində 32 ədəd müxtəlif təyinatlı hidrotexniki qurğu mövcud idi.

Köhnə Xanqızı kanalın suyundan istifadə etməklə, yalnız Beyləqan rayonu ərazisində 34 min hektar sahə suvarılır. Kanalın uzunluğu 64 km, suaparma qabiliyyəti isə 45 m^3/san-dir.

Aparılmış genişmiqyaslı meliorasiya tikinti işləri nəticəsində 1971-1982-ci illər Xanqızı kanalının xidmət etdiyi ərazilərdə beton üzlük çəkilmiş 9 ədəd təsərrüfatlararası kanallar ti-



Baş Mil kanalının təsir zonasının sxematik planı. 1981

kildi. Bu kanalların 5-i Beyləqan rayonunun, 4-ü isə Ağcəbədi rayonunun ərazisində tikilmişdir.

Bu illərdə irriqasiya sistemləri ilə bərabər, adı çəkilən ərazidə kollektor-drenaj sisteminin yenidən qurulmasına başlanıldı.

Mil-Muğan hidroqovşağı Füzuli rayonunun ərazisində, Araz çayının Kürlə qovuşduğu yerdən 160 km yuxarıda, Horadiz qəsəbəsi yaxınlığında 1972-ci ildə tikilib istismara verilmişdir. Hidroqovşağın tikilməsində məqsəd Araz su anbarında çay axınının nizamlanması nəticəsində yaradılmış su ehtiyatından, aşağı hissədə Azərbaycan Respublikası və İran İslam Respublikası arasında bərabər paylanmaqla birgə istifadə olunmasıdır. Belə ki, hidroqovşağın sağ sahilindən İran İslam Respublikası ərazisində Muğan kanalına və sol sahilindən Baş Mil kanalına bərabər həcmlərdə suvarma suyu verilir. Kanalların maksimum suaparma qabiliyyətləri 95 m^3/san-dir. Mil-Muğan hidroqovşağı istismara verildikdən sonra Azərbaycan Respublikası və İran İslam Respublikasının ərazisində 200 min hektar əkin sahəsini bitkilərin suvarma rejimlərinə müvafiq suvarma suyu ilə təmin etmək mümkün olmuşdur. Füzuli, Beyləqan, Ağcəbədi, Xocavənd, İmişli rayonlarının ərazilərində 120 min hektar torpaq

Mil-Muğan hidroqovşağı. Horadiz. 1972

sahəsindən daha səmərəli istifadə olunmasına əlverişli şərait yaranmışdır. Hidroqovşağın bəndi eyni cür qurğulara aiddir. Beton bəndin hündürlüyü 40 m, uzunluğu 1026 m-dir. Bənddə 6 ədəd, hündürlüyü 7 m, eni 12 m olan və seqmentvari bağlayıcılarla bağlanmış suburaxan tikilmişdir. Bənddən yuxarı byefdə hər iki sahildə suyu saxlayan və istiqamətləndirən, ümumi uzunluğu 2,8 km olan istiqamətləndirici beton dambalar inşa olunmuşdur. Fəlakət törədən daşqınlar baş verərsə, hidroqovşaq 2700 m^3/san su sərfini buraxmaq qabiliyyətindədir.

Baş Mil kanalı 1976-cı ildə istismara verilmişdir. Mil-Muğan hidroqovşağından su qəbul edən kanal Füzuli, Beyləqan, Xocavənd, Ağcabədi və İmişli rayonlarının ərazisində təxminən 143,5 min hektar əkin sahəsinə xidmət edə bilər. Uzunluğu 37,1 km-dir. Kanala bütün uzunluğu boyu beton üzlük çəkilmişdir. Üzərində 74 ədəd müxtəlif təyinatlı hidrotexniki qurğular və həmçinin mürəkkəb konstruksiyalı dükerlər və cəldaxıdan tikilmişdir. Baş Mil kanalından Yuxarı Mil kanalına, Yeni Xanqızı kanalına, 22,89 min hektar ərazini suvarma suyu ilə təmin edən Sıfır Paylayıcısı kanalına suvarma suyu verilir. Füzuli rayonunun ərazisində tikilmiş 1 saylı mexaniki üsulla suvarılan 16,7 min hektar sahəyə və 2 saylı mexaniki üsulla suvarılan 12,25 min hektar sahəyə də Baş Mil kanalından nasoslarla su vurulur.

Yuxarı Mil kanalı tam beton üzlük çəkilmiş formada 1985-ci ildə istismara verilmişdir. Uzunluğu 20,5 km, suaparma qabiliyyəti 30,0 m^3/san, Beyləqan və Xocavənd rayonlarında suvarma suyu ilə təmin etdiyi ərazinin sahəsi 19,6 min hektardır. Üzərində 8 ədəd hidrotexniki qurğu, 4 yerdə hidrometrik məntəqə, 6 ədəd körpü və borulu keçid vardır.

Maralyan kanalı torpaq məcrada, Cəbrayıl və Füzuli rayonlarının ərazisində əkinəyararlı münbit torpaq sahəsini suvarma suyu ilə təmin etmək məqsədi ilə 1931-ci ildə tikilmişdir. Kanala su öz axını ilə Cəbrayıl rayonu ərazisində Araz çayından mexaniki tənzimləmə apar-

maqla qəbul edilir. Uzunluğu 24 km, başda qəbul edilən suyun sərfi 12 m^3/san, xidmət etdiyi ərazinin sahəsi isə 8 min hektardır.

Hasanlıarx kanalı Cəbrayıl və Füzuli rayonlarında əkinəyararlı münbit torpaq sahələrini suvarma suyu ilə təmin etmək məqsədi ilə, 1850-ci ildə çəkilmiş və sugötürmə qabiliyyəti az, uzunluğu qısa olan köhnə kanalın yerində 1951-ci ildə tikilmişdir. Kanala su öz axını ilə Xudafərin körpüləri yaxınlığındakı Hasanlı kəndinin ərazisində Araz çayından mexaniki üsulla tənzimləmə aparmaq yolu ilə qəbul edilir. Torpaq məcrada çəkilmiş kanalın uzunluğu 38 km, sugötürmə qabiliyyəti 10 m^3/san, suvarma suyu ilə təmin etdiyi ərazinin sahəsi 9 min hektardır.

Araz çayının ümumi axınının təxminən 50-60%-i aprel-iyun, 28%-i noyabr-mart və ancaq 21%-i iyul-oktyabr aylarında keçir. Çayın su ehtiyatından səmərəli istifadə etmək məqsədilə Araz çayının axınını nizamlamaq kimi mühəndis-texniki tədbirlərin həyata keçirməsi tələb olunurdu. Respublikamızın ərazisində Araz çayının axınını nizamlamaq və bununla da su ehtiyatı yaratmaq məqsədilə Araz su anbarı yaradılmışdır.

Araz su anbarı Araz çayının Kür çayı ilə qovuşan yerdən 422 km yuxarıda, Naxçıvan Muxtar Respublikası ərazisində İran İslam Respublikası ilə birgə tikilərək 1971-ci ildən istismar olunur. Su anbarı yaradılan yerdə çay hövzəsinin sahəsi 54,3 min kv.km-dir. Anbarda yaradılan su ehtiyyatından istifadə olunmaqla İran və Azərbaycan dövlətlərinin ərazisində 400 min hektar əkin sahəsi suvarma suyu ilə təmin olundu. Anbarın tam su tutumu 1,35 kub km, faydalı həcmi 1,15 kub km və bu həcmə uyğun su səviyyəsinin yüksəkliyi 777,5 m, su səthinin sahəsi isə 145 kv. km-dir. Bəndin hündürlüyü 40 m, su anbarının çay boyunca uzunluğu 52 km-dir. Bəndin sol və sağ hissəsində hər birində 2 turbin olmaqla SES-lər istismar



Haxçıvan MR-də Araz su ambarı. 1971



Xudafərin körpüləri

olunur. Bir turbinə verilən su sərfi 66,5 m^3/san-dir. Fövqəladə daşqın sərfləri müşahidə olunarsa, bənddən aşağı hissəyə 3135 m^3/san su buraxıla bilər.

Araz su anbarı iyun-avqust aylarında su tələbatının ancaq 25%-ni ödəmək qabiliyyətinə malikdir. Odur ki, baş verən su çatışmamazlıqlarını aradan qaldırmaq məqsədilə Araz çayı üzərində əlavə su anbarlarının tikilməsi tələb olunurdu. Su anbarı üçün ən əlverişli yer isə Xudafərin körpülərindən yuxarı olan hissə seçildi. Xudafərin su anbarı yaratmaqla Azərbaycan Respublikasının və İran İslam Respublikasının ərazisində 140 min hektar sahə suvarma rejimlərinə uyğun olaraq su ilə təmin ediləcəkdir. Su anbarından kompleks məqsədlər üçün istifadə olunması nəzərdə tutulur. Su, elektrik stansiyasının dörd aqreqatını işlətmək üçün SES-lərə daxil olacaq. Sudan, çayın aşağı hissəsində suvarmada səmərəli istifadə etmək üçün, axının sutkalıq nizamlanması məqsədilə Qız qalası hidroqovşağının tikilməsi planlaşdırılır. Qız qalası hidroqovşağı Mil-Muğan hidroqovşağını lazım olan sərflə təmin etmək üçün, sutka ərzində Xudafərin su anbarından buraxılan 8 mln. kub m suyu nizamlamaq qabiliyyətində olacaqdır. Araz çayı üzərində Xudafərin su anbarı və Qız qalası hidroqovşağı tikildikdən sonra Araz çayının axını demək olar ki, 90% nizamlanacaqdır.

Xudafərin su anbarı axının çoxillik nizamlanmasına hesablanmışdır. Araz su anbarından 196 km aşağıda, Cəbrayıl rayonunun ərazisində yaradılacaqdır. Bəndin üstdən uzunluğu 500 m, inşaat hündürlüyü 70 m, su anbarının tam həcmi 1,61 kub km, faydalı həcmi isə 1,5 kub km olacaqdır. Hər iki sahildə gücü 100 min kvt olan SES tikiləcəkdir. SES-lərə daxil olan 272 m^3/san su sərfi bərabər olacaqdır. Suyu SES-lərə gətirən tunellərin diametri 8 m, uzunluqları isə 400 m-ə bərabərdir. Yəni, hər iki tərəfdə SES-lər işlədildikdə, anbardan buraxılan su sərfi 544 m^3/san olacaqdır.

Xudafərin su anbarının layihəsi 1980-ci ildə Bakı hidrolayihə İnstitutunda işlənilmişdir. Bu layihəyə əsasən Xudafərin su qovşağının bəndi 11 aşırımlı körpünün üstünə düşürdü. İctimaiyyətin haqlı narazılığından sonra 11 aşırımlı və ondan 800 m aşağıda olan 15 aşırımlı Xudafərin körpülərini qoruyub saxlamaq üçün, Xudafərin su qovşağının yeri bir qədər yuxarı çəkilərək, yeni variantda işlənildi. Layihəyə əsasən 11 aşırımlı körpüdən bəndin aşağı byefinə kimi olan məsafə 50 m, bəndin üstündən olan yolun oxuna kimi olan məsafəsi isə 200 m-dir. Hər iki sahildə tikiləcək SES-lərdən çıxan su 11 aşırımlı körpüdən bir qədər aşağıda, Araz çayına tökülləcəkdir. Bu tarixi abidə müasir tikintinin əhatəsində qalacaqdır.

Qız qalası hidroqovşağı Xudafərin su anbarından 13 km, Xələfli dəmir yolu stansiyasından bir qədər aşağıda yerləşmiş Qız qalası tarixi abidəsinin yanında, çox əlverişli bir yerdə tikiləcəkdir. Yuxarıda qeyd edildiyi kimi, Xudafərin su anbarından SES-in sutkalıq və həftəlik iş rejiminə müvafiq olaraq buraxılan axın həcmini, əkin sahəsinə veriləcək suvarma suyunun həcminə müvafiq nizamlamaq üçün yaradılır. Torpaq bəndin üstdən uzunluğu 1050 m, inşaat hündürlüyü 36 m-dir. Hər iki sahildə gücü 40 min kvt olan SES-in tikilməsi nəzərdə tutulmuşdur. SES-lərə verilən maksimum su sərfi 130 m^3/san, anbarın tam həcmi isə 0, 06 kub km olacaqdır. Bəndin üzərində tikilmiş suaşırandan lazım gəldikdə 2650 m^3/san su buraxıla biləcəkdir. Hidroqovşaqdan hər iki sahilə 10 m^3/san su verə biləcək kanalların tikilməsi nəzərdə tutulur. Qız qalası hidroqovşağından kanal vasitəsilə götürülən su ilə Cəbrayıl rayonu ərazisində əkinəyararlı 10 min hektar sahə suvarılacaqdır.

Xudafərin su anbarının və Qız qalası hidroqovşağının tikintisi Ermənistan silahlı qüvvələrinin işğalı ilə bağlı müvəqqəti olaraq dayandırılmışdır. Bu isə Araz çayının su ehtiyatından hazırkı vaxtda səmərəli istifadə olunmasına imkan vermir.

Hal-hazırda ölkəmizin ərazisində irriqasiya sistemləri tikilmiş, 320 min hektar əkin sahələri Araz çayının su ehtiyatlarından istifadə olunmaqla suvarılır.



Çay üzərində hidrotexniki qurğu tikilir

Soldan 2-ci Pasa Paşayev, 4-cü Saleh Hacıyev

Kür çayının su ehtiyatlarından səmərəli istifadə olunması üçün Mingəçevir su anbarından başqa, Varvara (1952), Şəmkir (1983) və Yenikənd (2000) su anbarları tikilmişdir.

Şəmkir su anbarından su qəbul edən Sağ və Sol Şəmkir maşın kanallarının (1989) təsir zonasında 9,4 min hektar əkin sahəsi suvarılır. Kanallara su nasos stansiyasından verilir.

Kür-Araz düzənliyində suvarma sistemlərinin tikintisi ilə bərabər, kollektor-drenaj şəbəkələrinin tikintisi də geniş vüsət almışdır.

Şirvan, Qarabağ, Mil, Muğan düzlərində dren tikilmiş sahələr artdıqca, mövcud magistral kollektorların yenidən qurulmasına ehtiyac yaranmışdır.

Şirvan düzündə irriqasiya sistemləri tikilmiş, 241,4 min hektar əkin sahələrindən 161,9 min hektarında kollektor-drenaj sistemləri tikilib. Şirvan düzünün 125,1 hektarında örtülü drenlərdən istifadə edilir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində toplanmış məlumatlar araşdırılarkən məlum oldu ki, **Baş Şirvan kollektorunun** orta illik sərfi 1970-1977-ci illərdə hər il artmışdır. Kollektorda suyun minerallığı isə ilbəil azalmışdır. Kollektorun təsir zonasında qrunt sularının orta yatım dərinliyinin 1930-1990-cı illərdə dəyişmə dinamikası araşdırılarkən müəyyən edilib ki, baxılan müddətdə qrunt suları ilbəil yer səthinə yaxınlaşmışdır.

Qrunt sularının yatım dərinliyinin yer səthinə yaxınlaşması Baş Şirvan kollektorunun layihə göstəricilərindən artıq su sərfi aparması ilə nəticələndi. Kollektorun bəzi hissələrində suyun səviyyəsi layihə göstəricilərindən yuxarı oldu. Nəticədə bəzi ərazilərdə kollektorun təsirindən torpaqlarda əlavə şorlaşma prosesi başlandı.

Kollektorun təsir zonasındakı ərazilərdə qrunt suyunun yatım dərinliyinin yer səthinə yaxınlaşma prosesini dayandırmaq, əkin sahələrində şorlaşmış torpaqların duzlardan təmizlənməsi üçün mövcud və tikilən drenlərin iş rejimini yaxşılaşdırmaq və bununla da

İnstitutun Müharibə və Əmək veteranlarından bir qrupu gənclərlə birgə. 1980

Ulduz Fərəcova və Faquma Köçərli geotexnika laboratoriyasında. 1989

Geoloji-kəşfiyyat işləri aparılır

İnstitutun bir qrup geoloqları peşə bayramı günündə... 1980

Baş Şirvan kollektorunun Şirvan şəhərindən keçən hissəsi. 1964

kollektordakı suyun minerallığını yüksəltmək üçün tədqiqat-axtarış işlərinə başlandı. Mütəxəssislərin rəyləri nəzərə alınmaqla qərar qəbul edildi ki, Baş Şirvan kollektorunda yenidənqurma-tikinti işləri aparılmalıdır.

"Baş Şirvan kollektorunun yenidən qurulması tikintisinin layihəsi" institutun 3 saylı layihə şöbəsində işlənmişdir. Layihəçilər yenidənqurmada 2 variantı müzakirəyə çıxarmışlar.

1-ci variantda Şəmkir kollektoru Mil-Qarabağ kollektoruna birləşdirilir. Mil-Qarabağ kollektorunun suyu əvvəlki kimi Baş Şirvan kollektoruna axıdılır. Bu variantda nəzərdə tutulan sərfi axıtması üçün Baş Şirvan kollektorunun dibdən eni və dərinliyi artırılır. Kollektorun Şirvan (keçmiş Əli Bayramlı) şəhərindən keçən hissəsində nəzərdə tutulmuş yenidənqurma tikinti işləri ilə bağlı əlavə ciddi problemlər yaranırdı.

2-ci variantda Baş Şirvan kollektoru ancaq Kür çayının sol sahilinə, Şirvan düzündəki ərazilərə xidmət göstərir. Mil-Qarabağ kollektoru Kür çayının sağ sahili ilə uzadılaraq tikintisinə başlanmış Baş Mil-Muğan kollektoruna birləşdirilir.

Mütəxəssislərin yekun rəyi əsasında Baş Şirvan kollektorunun yenidən qurulması layihəsində ikinci variant qəbul edildi.

Layihəyə görə yenidənqurma tikinti işləri 1980-ci ildə başlanmalı və 1989-cu ildə tikinti başa çatdırılmalı idi.

Kollektorun 126 km uzunluğundakı aşağı hissəsində tikinti prosesində dərinləşmə və genişləndirmə işləri aparılmış, ümumi uzunluqda mövcud hidrotexniki qurğular təzədən tikilmiş və ya yenidən qurulmuşdur.

Şirvan (keçmiş Əli Bayramlı) şəhəri içərisində kollektorun yamacları yığma dəmir-beton svaylarla bərkidilmişdir.

Araz çayı üzərində körpü. Saatlı rayonu. 2002

Baş Şirvan kollektorunda yenidənqurma işləri başa çatdırıldıqdan sonra (1994) layihə göstəriciləri aşağıdakı kimi oldu:

Mənsəbə yaxın hissədə normal sərfi saniyədə 72,28 kub m, maksimal sərfi saniyədə 93,45 kub m, kollektorun uzunluğu 251,5 km, dibdən eni 4÷40 m, qazma dərinliyi tras boyu dəyişir 4÷7÷20÷32 m, suyun dərinliyi: normal sərfdə 1,23-3,92 m, maksimal sərfdə 1,32-4,58, mailliyi 0,00003-0,0005; yamaclıq əmsalı 1,5-2,0÷2,5m; suyun axım sürəti saniyədə 0,37-1,1 m, təsir zonasında olan sahə: brutto 305005 hektar, netto 270142 hektar.

Kür-Araz düzənliyində şorlaşmış torpaqların duzlardan təmizlənməsini təmin edən **Baş Mil-Muğan kollektorunun** tikintisini xüsusilə qeyd etmək lazımdır.

Kür çayının sağ sahilində kollektorun təsir zonasında suvarma aparılan 861,9 min hektar netto sahənin, dren tikilmiş 505,7 min hektar brutto sahənin olacağı proqnozlaşdırılmışdır.

Baş Mil-Muğan kollektorunun layihə sənədləri institutun 3 saylı layihə şöbəsində işlənmişdir. Şöbənin rəisi Qurbanov Soltan Əbdüləli oğlu layihənin baş mühəndisi olmuşdur.

Kollektorun tikintisinə 1984-cü ildə başlanıldı. Tikinti 3 mərhələdə aparıldı: 59 km uzunluğunda 1-ci hissə 1994-cü ildə, Araz çayına kimi olan 52,7 km uzunluğunda 2-ci hissə 2000-ci ildə, Mil-Qarabağ kollektoru birləşən yerə kimi 31,7 km uzunluğunda 3-cü hissə 2006-cı ildə istismara verildi. Mil-Qarabağ və Şəmkir kollektorları ilə birlikdə Baş Mil-Muğan kollektorunun ümumi uzunluğu 185,79 km olacaqdır.

Kollektorun 1-ci hissəsinin istismara verilməsi ilə Muğan düzündəki əkin sahələrindən toplanan dren sularının Xəzər dənizinə öz axını ilə tökülməsi təmin edilmiş oldu. Bununla da Muğan-Salyan sutullayıcısı üzərində uzun illər istifadə edilmiş nasos stansiyasına ehtiyac olmadığına görə, məhsuldarlığı saniyədə 33 kub m olan nasoslar ləğv edildi.

Baş Mil-Muğan kollektorun dənizə tökülən hissəsində normal iş şəraitində sərfi saniyədə 107 kub m, maksimal sərfi saniyədə 147 kub m, dibdən eni 24-20÷18 m, suyun dərinliyi normal sərfdə 3 m, maksimal sərfdə 7 m, yamaclıq əmsalı 3,0-2,5 ÷2,0 m, maillik 0,000033, 0,0005, 0,00007, 0,00014; suyun orta sürəti saniyədə 0,41 – 0,48-0,6-0,85 m, kollektorun inşaat dərinliyi 7,5 m, Araz çayı ilə kəsişmə yerindəki dükerin suburaxma qabiliyyəti saniyədə 80 kub m-dir.

Ağstafaçay su anbarı 1971-ci ildə istismara verilmişdir. Respublikanın qərb zonasında yerləşən Qazax, Ağstafa, Tovuz və Şəmkir rayonlarının ərazilərində 135 min hektar əkin sahələrinin su təminatını yaxşılaşdırmaq və yeni tikilmiş irriqasiya sistemlərini suvarma suyu ilə təmin etmək məqsədilə tikilmişdir. Su anbarı illik nizamlanmaya hesablanmışdır.

Bəndin hündürlüyü 52,5 m, üstdən eni 10 m, uzunluğu 2 km-dir. Anbarın su tutumu 120 mln. kub m, faydalı həcmi 111 mln. kub m, faydalı həcm tam yığıldıqda, su səviyyəsi 479,5 m, ölü həcm 9.1 mln. kub m, bu həcmə müvafiq su səviyyəsi 450 m, su səthinin sahəsi 6,38 kv. km-dir.

Hidroqovşaq çınqıllı qruntdan tökülmüş bənddən, bəndin altında yerləşən qülləli suburaxandan, daşqın sutulluyacısından və s. ibarətdir. Anbardan sutullayıcıya 260 m^3/san, qülləli suburaxana 146 m^3/san, sağsahil kanalına 27 m^3/san, solsahil kanalına 12 m^3/san su buraxmaq mümkündür.

Bəndin gövdəsinə 7,72 mln. kub m qrunt tökülmüşdür.

Yuxarı Xanbulançay su anbarı 1976-cı ildə istismara verilmişdir. Lənkəran bölqəsində 22 min hektar əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədi ilə tikilmişdir. Su anbarı illik nizamlanmaya hesablanmışdır. Anbarın su tutumu 50 mln. kub m, faydalı həcmi 45 mln. kub m, su səthinin sahəsi 2,6 kv. km-dir. Hidroqovşağa qruntdan tökülmüş bənd, qülləli suburaxan, daşqın sutullayıcı və s. daxildir. Bəndin gövdəsinə tökülmüş qruntun həcmi 4,34 mln. kub m, bəndin hündürlüyü 63 m, üstdən uzunluğu 550 m-dir.

Ağstafaçay su anbarı. Qazax rayonu. 1971

Baş Mil-Mugan kollektoru. 2000

Yuxarı Şirvan kanalının Ağsu maşın qolu



HİDROTEXNİKİ QURĞULAR

S/S	Hidrotexniki qurğuların adı	Miqdarı, ədəd			
		Ümumi sayı	O cümlədən		
			Təmir olunan	Yenisi ilə əvəzlənən	Yeni verilən
1	Suburaxan	34	18	11	5
2	Səviyyəqaldıran	11	10	–	1
3	Körpü	6	4	–	2
4	Düker	4	4	–	–
5	Kanal üstündən akveduk	13	13	–	–
6	Selötürücü	2	–	2	–
	CƏMİ	70	49	13	8

İŞ HƏCMLƏRİ CƏDVƏLİ

S/S	Kanalın adı	Uzunluğu	Torpaq həcmləri, m^3				Hamarlama, m^2		Monolit beton m^3	Temperatur bloklarının qoldurulması m³/ton	Çınqıl örtüklü istismar yolu m^3
		pm	Bitki qatının kəsilməsi	Qazma	Tökmə	Lilin təmizlənməsi	Əl ilə	Mexaniki üsulla			
1	PK 0+00 ÷ PK40+00 (yağma dib suaparan)	4000	4251	21919	34331	3270	-	34800	186,5	1,4/1,5	1920

Yuxarı Şirvan kanalında Ağsu maşın qolunun təir zonasındakı ərazinin sxematik planı

Yuxarı Şirvan kanalının Ağsu maşın qolunda nasos stansiyası

Su anbarını tələb olunan həcmdə axınla təmin etmək üçün Bəşəriçay üzərində saniyədə 10 kub m sərfə hesablanmış dağ tipli suqəbuledici tikilmişdir.

Əyriçay su anbarı 1986-cı ildə istismara verilmişdir. Əyriçay su anbarı Şəki və Qax rayonlarının ərazisində 17,2 min hektar əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə tikilmişdir. Hidroqovşağın tərkibinə bənd, tunel tipli qülləli suburaxan, daşqın sutullayıcısı və s. daxildir. Anbar illik nizamlanmaya hesablanmışdır. Anbarın su tutumu 80,6 mln. kub m, faydalı həcmi 67 mln. kub m, su səthinin sahəsi 12 kv. km-dir.

Torpaq bəndin hündürlüyü 23 m, üstdən uzunluğu 1,88 km-dir. Bəndin gövdəsinə 1,61 mln. kub m qrunt tökülmüş, 63,7 min kub m beton və dəmir-beton, 265 ton metal konstruksiyaları işlədilmişdir.

Viləşçay su anbarının tikintisi iki növbədə həyata keçirilmişdir (1979-1995-ci illər). Viləşçay su anbarı tikintisinin başa çatması ilə Masallı rayonunda 32,2 min hektar əkin sahələri suvarma suyu ilə təmin edilmişdir. Su anbarının tutumu 130 mln. kub m, faydalı həcmi 122 mln. kub m, su səthinin sahəsi 5,32 kv. km-dir. Torpaq bəndin hündürlüyü 54,3 m, bənd gövdəsində tökmə torpaq həcmi 16,21 mln. kub m, işlədilmiş beton və dəmir-betonun həcmi 228,4 min kub m, metal konstruksiyaların çəkisi 1670 ton olmuşdur.

"Azdövsutəslayihə" İnstitutunun fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmlş 1983-cü ildə SSRİ Ali Sovetinin qərarı ilə Şərəf Nişanı Ordeni ilə təltif olunmuşdu.

ГРАМОТА

Президиум Верховного Совета
Союза Советских Социалистических Республик

за достигнутые успехи в проектировании мелиоративных систем и гидротехнических сооружений Указом от 3 июня 1983 года наградил Азербайджанский государственный институт по проектированию водохозяйственных объектов

ОРДЕНОМ „ЗНАК ПОЧЕТА"

Первый заместитель Председателя Президиума Верховного Совета СССР В. Кузнецов

Секретарь Президиума Верховного Совета СССР

МОСКВА, КРЕМЛЬ. 3 июня 1983 г.

"Azdövsutəslayihə" İnstitutunun fəaliyyət göstərdiyi bu müddətdə meliorasiya və su təsərrüfatı obyektlərinin layihə sənədlərinin hazırlanmasında, tikintiyə müəllif nəzarətinin həyata keçirilməsində xüsusi xidmətləri ilə fərqlənmiş əməkdaşlardan:

Topoqrafiya-axtarış şöbəsindən: Həsənov Alik Həsən oğlu, Ağayev Seyran Fərzəli oğlu, Qasımov Qəzənfər Jabbar oğlu, İsmayılov Faiq Eyyub oğlu, Quliyev Vaqif Müsəlləf oğlu;

Geologiya və hidrogeologiya şöbəsindən: Xasayev Əskər İsmayıl oğlu, Allahverdiyev Ayət Namaz oğlu, İsmayılov Məmmədəli Abbas oğlu, Krasilşikov Leonid Anatolyeviç, Quliyev Əmirhüseyn Ağamir oğlu, Rəşidov Ramiz Məmməd oğlu, Ələkbərov Rafiq Davud oğlu, Sadıxov Aslan Məhəmməd oğlu;

Azdövsutəslayihə institutu. 1983

Şəmkir maşın kanalı. Şəmkir rayonu.



Azdövsutəslayihə institutunun strukturu. 1983



Şəmkir maşın kanalının təsir zonasında ərazinin sxematik plani

Torpaq-meliorasiya şöbəsindən: Məmmədov Arzuman Əşrəf oğlu, Hacıyev Mahmud Hacı oğlu, Bağırov Kamran Cavad oğlu, Əliyeva Şərifə Hadı qızı, Tarasova Valentina Vasilyevna, Cəbrayılov Zakir Teymur oğlu, Əliyev Qərib Fili oğlu, Andreyev Aleksandr Andreyeviç; Əliyev Tofiq Mirzəqulu oğlu;

Layihə şöbələrindən: Ələkbərov Asəf Mikayıl oğlu, Əlizadə Əliağa Qurban oğlu, Qasımov Sadıx Hüseyn oğlu, Əskərbəyli Brilyant İskəndər qızı, Alməmmədov Tarış Müseyib oğlu, Kərimov Yavuz İsmayıl oğlu, Mustafayev Rasim Qara oğlu, Soltanov Qurban Əbdüləli oğlu, Quliyev Zahid Məmməd oğlu, Mirzəxanov Əli Cəbrayıl oğlu, Quliyev İmanqulu Əli oğlu, Dudko Valentin Vasilyeviç, Dibirova Gözəl Müslüm qızı, Qasımov Şamil Kazım oğlu, Haqverdiyev Oktay Qəhrəman oğlu, Ağazadə Tahir Cahangir oğlu, Bulqak Yulian Yulianoviç, Cavadov Aydın Əhməd oğlu, Çernoqlazov Pyotr Qeorqiyeviç, Axundov Nadir Muxtar oğlu, Muxəddis Əsadulla Sadıx oğlu, Musayev Telman Mir Məsim oğlu, Şirinov Ramiz Mərdan oğlu, Əmircanov Əmirxan Məmməd oğlu, Məmmədov Sovet Həsən oğlu, Mezentsova Vera Petrovna, Mustafayev Mansur Məhəmməd oğlu, Əliyev Rafiq Məmmədbağır oğlu, Axundova Xalidə İmran qızı, Novruzov Lətif Qənbər oğlu, Qaziyev Yusif Cəbrayıl oğlu, Qafarlı Adil Rzaqulu oğlu, Bayramov Nəzər Amin oğlu, Sadıxova Zemfira Əli qızı, Sultanov Akif Qara oğlu, Mahmudov Səttar Maqsud oğlu və digərlərinin adlarını bu sahədə çalışan gənc nəslə tanıtdırmaq istərdik.

"Azdövsutəslayihə" İnstitutunun 80 illik fəaliyyəti dövrünün 60 ili artıq tarixə dönmüş keçmiş SSRİ məkanında olmuşdur. Müstəqil Azərbaycan Respublikasında yaşayan əhalinin çox böyük hissəsinin təhsil aldığı və işləmiş olduğu yaxın tariximizdəki bu cəmiyyətdə, müxtəlif ictimai-siyasi təşkilatlar mövcud idi. Ölkənin bütün müəssisələrində yaradılan siyasi təşkilatların əsas vəzifəsi dövlət və hökumət rəhbərliyinin həyata keçirdiyi siyasi kursu rəhbər tutaraq, yuxarıdan verilmiş qərarların və tapşırıqların həyata keçirilməsi istiqamətində apardığı genişprofilli işlər olmuşdur.

Etiraf etmək lazımdır ki, bütün müəssisələrdə qarşıya qoyulmuş plan və tapşırıqların vaxtında yerinə yetirilməsində, görülən işlərin həcminin artırılmasında, keyfiyyətinin yüksəldilməsində müəssisələrdə fəaliyyət göstərən ictimai təşkilatların rolu böyük olmuşdur.

"Azdövsutəslayihə" İnstitutunun fəaliyyəti dövründə institutun müxtəlif ictimai təşkilatlarında çalışmış, müəssisə daxilində sağlam mühitin yaradılmasında, əmək intizamının, haqqədalətin qorunub saxlanılması, layihəçilərin, texniki işçilərin, köməkçi heyətin iş şəraitinin yaxşılaşdırılması, gənc mütəxəssislərin hazırlanması və inkişafında xüsusi əməyi olan Şapçenko Pavel İvanoviçi, Mixail Zabelini, Sadıqova Zenfira Əli qızını, Məmmədov Yasin Bilal oğlunu, Novruzov Lətif Qənbər oğlunu, Qaziyev Yusif Cəbrayıl oğlunu, Qaragözov Rauf Əziz oğlunu, Tağızadə Esmira Məmməd qızını, Novruzov Abbas Qəmbər oğlunu, Həsənov Sabir Mirmövsüm oğlunu, Babayev Xəqani Ədalət oğlunu, Səmədov Cəsarət Qabil oğlunu, Süleymanov Niyazi Ramiz oğlunu, Mustafayeva Elza Saday qızını və başqalarını qeyd etmək istərdik.

Qeyd etmək lazimdır ki, bütün dövrlərdə hazırlanan layihə sənədlərində ölkə alimlərinin apardığı elmi tədqiqat işlərinin nəticələrindən mütəmadi olaraq istifadə olunub. Azərbaycanda meliorasiya və su təsərrüfatı sahəsinin inkişafında xüsusi əməyi olmuş alimlərimizdən professorlar: Abbas Əli oğlu Mustafayevin, Əkbər Qasım oğlu Behbudovun, Yusif Əliqulu oğlu İbadzadənin, Hüseyin Məmməd oğlu Hüseynovun, Saleh Xalıq oğlu Hüseynzadənin, Bala Məmməd oğlu Ağayevin, Fətullah Süleyman oğlu Salahovun, Kamal Heydər oğlu Teymurovun, akademik Vladimir Rodionoviç Volobuyevin və başqalarının adlarını xüsusi ehtiramla yad edirik.

Sovetlər məkanında ölkə iqtisadiyyatında durğunluq, bütün sahələrdə başlanmış yenidənqurma "Azdövsutəslayihə" İnstitutunun fəaliyyətinə də təsirsiz ötüşməmişdir. Respublika-

mızda başqa sahələrdə olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsində də 1985-ci ildən başlamaqla aparılan tikinti işləri ilbəil kəskin şəkildə azalmışdır.

Layihə-axtarış işlərinin həcmi azaldığına görə uzun illər institutda çalışan ixtisaslaşmış mühəndis kadrlar qısa müddət ərzində doğma iş yerlərini tərk etmək məcburiyyətində qalmışlar.

"Azdövsutəslayihə" İnstitutu 1941-1945-ci illərdə olduğu kimi, fəaliyyəti dövründə ikinci dəfə iş həcmlərinin kəskin formada az olduğu şəraitdə çətin günlərini yaşamalı oldu. Sənətinin fədaisi olan əməkdaşların müəyyən hissəsi uzunmüddətli ödənişsiz məzuniyyətə çıxdılar, fəaliyyətini davam etdirən mütəxəssislərin əksəriyyəti isə 0,5 ştatda olmalarına baxmayaraq, bəzən aylarla əməkhaqlarını almadan tapşırılmış layihələr üzərində işlərini davam etdirməli olmuşlar.

Binə hava limanını ətrafının ekoloji bərpası. Sxematik plan

Kollektiv dövlət bayramı tədbirlərində

Axundov N.M.

Çernoqlazov P.Q.

Mustafayev R.Q. əməkdaşlarının əhatəsində



Qasımov S.H.

Ələkbərov A.M və Sultanov A.Q.

Muxəddis Ə.C. və Quliyev Z.M.

İnstitutun direktoru Səlimbəyov C.V. və kollektivin bir qrupu

Əskərbəyli B.İ. bəndin sürüşmə zonasında

İnstitutun rəhbərliyi Rasim müəllimi təbrik edir

Əliyeva Ş.H.

Borisenko Y.V. və
Haqverdiyev O.Q., 1980

Arif Hacıyev, Məmməd Əsədov, Abdulrəhim Hacıyev

"AZDÖVSUTƏSLAYİHƏ" İNSTİTUTU AZƏRBAYCAN RESPUBLİKASININ MÜSTƏQİLLİK DÖVRÜNDƏ

Meliorasiya və su təsərrüfatı obyekytləri bizim sərvətimizdir. Bu sərvətdən səmərəli istifadə etməliyik

Heydər Əliyev

Qeyd olunduğu kimi, 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində Azərbaycanda meliorasiya və su təsərrüfatı sahəsinə laqeyd münasibət olmuşdur. İnstitutda aidiyyatı sahələr üzrə layihə işlərinin həcmi kəskin formada azaldığından mütəxəssislər müxtəlif istiqamətlərdə tikinti-lahiyə işləri yerinə yetirməklə fəaliyyətlərini davam etdirməli olublar.

"Azdövsutəslayihə" İnstitutu 1993-cü ildə İran İslam Respublikasında "Qarasu çayı üzərində Qeybəli su anbarı və onun suvarma massivinin sxemi" layihəsinin və "Gərmrud su anbarı, suvarma massivinin sxemi"nin layihə sənədlərinin hazırlanmasında iştirak etmişdir.

Sovet İttifaqının 1991-ci ildə dağılması ilə qazandığımız müstəqilliyimizin ilk illərində ölkəmiz faktiki olaraq müstəqil dövlət kimi fəaliyyət göstərə bilmirdi. 1991-1993-cü illərdə müstəqilliyimizin gələcəyi şübhə altında idi. Bu illərdə Azərbaycan xalqı 1920-ci ildə olduğu kimi, yenidən müstəqilliyini itirə bilərdi.

"Əsrin müqaviləsi" öz bəhrəsini verdi


TBİLİSİ
RUSİYA FEDERASİYASI
DAĞISTAN
GÜRCÜSTAN
Telavi
Kvareli
Saqareco
Gürcaani
Balakən
Zaqatala
Tsnori
Siqnaxi
Dedoplis-Tskaro
Əliabad
Qax
Rutul
Axtı
Tpiq
Quarx
Marneuli
RUSTAVİ
Qardabani
Candaroğl
Alaverdi
Noyemberyan
Qazax
Ağstafa
Ağstafa su anb.
Tovuz
Qovlar
Şəmkir
Kür
Ellərəyuğu d.
Şəmkir su anb.
Mingəçevir su anb.
Acınohur
ŞƏKİ
Oğuz
Qəbələ
İlçevan
Dilican
Nəbiağalı
MİNGƏÇEVİR
Korçay
GƏNCƏ
Goranboy
YEVLAX
Ağdaş
Goyçay
Ucar
Ləki
Sevan
RAZDAN
Cəmbərək
Şahdağ
Gədəbəy
Xanlar
Daşkəsən
Naftalan
Göyçə gölü
Kamo
Böy. Hinaldağ
Gamış d.
Tərtər
Bərdə
Ağdərə
Zərdab
Vardenis
Martuni
Zod
Sərsəng su anb.
Kəlbəcər
Ağcabədi
Ağdam
Böy. Alagöl
Cermuk
Istisu
Dəlidağ
Xocalı
XANKƏNDİ
Beyləqan
Yeğeqnadzor
Sədərək
Vayk
Şuşa
Xocavənd
Laçın
Füzuli
Pars Abad
Şərur
Gorus
Sisian
Hadrut
Horadiz
Şahbuz
Cəbrayıl
Cubadlı
NAXÇIVAN
Babək
Qafan
Qacaran
Zəngilan
Xudafərin
Culfa
Ordubad
Mehri
Ələmdar
Herher
Düzal
İRAN
Miqyas 1 : 1 500 000

AZƏRBAYCAN RESPUBLİKASI

RESPUBLİKA ÜZRƏ MÖVCUD SUVARMA SAHƏLƏRİNİN YERLƏŞMƏSİNİ GÖSTƏRƏN

SXEM

Xalqımızın müdrikliyi sayəsində Ulu öndər Heydər Əliyevin yenidən respublikaya rəhbərliyə gətirilməsi Azərbaycanı bu bəlalardan qurtardı. Tarix Azərbaycanımızın timsalında belə bir həqiqəti sübut etdi ki, müstəqilliyi əldə etmək bəlkə də bir qədər çətin deyil, nəinki, onu qoruyub saxlamaq, inkişaf etdirmək.

20 sentyabr 1994-cü ildə Xəzər dənizinin neft və qazının işlənməsinə dair "Əsrin müqaviləsi" adını almış sazişlərin imzalanması və prosesin uğurla axıra çatdırılması Heydər Əlivev şəxsiyyətinin nələrə qadir olğunu təsdiq etdi. 1993-2003-cü illərdə Azərbaycanın dövlətçiliyi quruldu, ölkənin işkişaf starteqiyası müəyyən olundu.

Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə qayıdışı ilə meliorasiya və su təsərrüfatı sahəsi öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Ulu öndərin göstərişi ilə respublikaya qoyulan xarici investisiyalar ilk növbədə aşağıda adı çəkilən meliorasiya və su təsərrüfatı sahəsinə yönəldildi:

1. Kür-Araz düzənliyində şorlaşmış torpaqların duzlardan təmizlənməsini təmin edəcək Baş Mil-Muğan kollektorunun tikintisinin davam etdirilməsi;

2. Bakı-Sumqayıt şəhərlərini və Abşeron yarımadasını su ilə təmin edən Samur-Abşeron suvarma sisteminin yenidən qurulması;

3. Vayxır su anbarının tikintisinin başa çatdırılması.

Samur-Abşeron massivinin sxemi Türkiyə Konsorsiumu "SEYAŞ-SUİŞ" və "Azdövsutəslayihə" İnstitutu tərəfindən 1995-1996-cı illərdə hazırlandı.

"Azdövsutəslayihə" İnstitutu Almaniyanın layihə şirkəti ilə birgə 1997-ci ildə "Azərbaycanda İrriqasiyanın və Drenaj İnfrastrukturunun Bərpası və Yaxşılaşdırılması" layihəsi hazırlandı.

Samur-Abşeron kanalı suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində, əsasən aşağıdakı işlərin görülməsi müəyyənləşdirildi:

1. Samur Baş suqəbuledicinin bərpası;
2. Xanarx kanalının tikintisi;
3. Samur-Abşeron kanalının 50 km-lik hissəsinin bərpası;
4. Vəlvələçay-Taxtakörpü kanalının tikintisi;
5. Taxtakörpü su anbarının tikilməsi;
6. Taxtakörpü-Ceyranbatan kanalının tikintisi.

Nəzərdə tutulan tədbirlər həyata keçirildikdən sonra Samur-Abşeron kanalı 180 min hektar əkin sahəsini tələb olunan su ilə təmin edəcək və Bakı-Sumqayıt şəhərlərinə saniyədə 22 kub m su vermək mümkün olacaqdır.

Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinə daxil olan Vəlvələçay-Taxtakörpü kanalının, Taxtakörpü su anbarının və su-elektrik stansiyalarının layihə sənədləri beynəlxalq tenderin qalibi olmuş Türkiyənin "SU YAPI" Mühəndislik Şirkəti ilə birgə, "Azdövsutəslayihə" İnstitutunun 2 saylı şöbəsində Adil Məmməd oğlu Məmmədovun rəhbərliyi altında hazırlanmışdır.

Qeyd etmək lazımdır ki, 1967-1974-cü illərdə Samur-Abşeron kanalının Vəlvələçay-Ceyranbatan hissəsində kanalın suaparma qabiliyyəti Qudyalçay və Vəlvələçayda tikilmiş sugötürmə qurğuları hesabına saniyədə 25 kub m-ə çatdırılmışdır. Yeni layihədə isə bu sərfin saniyədə 40 kub m olacağı nəzərdə tutulmuşdur.

Xanarx kanalının istismara verilməsi Samur-Abşeron kanalının 50 km yuxarı hissəsində bərpa işlərinin problemsiz yerinə yetirilməsinə imkan yaratdı. Xanarx kanalının uzunluğu 67,2 km, su sərfi saniyədə 36-25 kub m-dir.



Samur-Abşeron kanalı keçən ərazinin sxematik planı

Samur-Abşeron kanalının təsir zonasındakı rayonlar

Samur çayından Samur-Abşeron kanalına tələb olunan suyun verilməsində yaranan məhdudluğu və digər ölkədən gözlənilən təsiri aradan qaldırmaq məqsədilə Samur-Abşeron kanalı üzərində su sərfini mövsum ərzində tənzimləyə biləcək su anbarının yaradılması zəruriyyətini gündəmə gətirdi. Əmirxanlıçay (Taxtakörpü) hövzəsində Taxtakörpü su anbarının yaradılması üçün hazırlıq işlərinə başlandı.

Layihəyə görə Taxtakörpü su anbarı məcradan kənarda yaradıldı. Su anbarının əsas su mənbəyi Samur-Abşeron kanalıdır. Regiondakı Qusarçay, Qudyalçay, Quruçay, Ağçay, Caqacuqçay və Vəlvələçayın su ehtiyatlarının müəyyən hissəsi Samur-Abşeron kanalı sisteminə daxil olan Vəlvələçay-Taxtakörpü kanalı ilə Taxtakörpü su anbarına axıdılır.

Üzərində SES olan Taxtakörpü su anbarının tikintisi başa çatdırıldıqdan sonra, yeni tikilən Taxtakörpü-Ceyranbatan kanalı tələb olunan həcmdə suyu öz axını ilə Ceyranbatan gölünə verir. Layihədə Abşeron magistral kanalına suyun Taxtakörpü-Ceyranbatan kanalından verilməsi və Abşeron magistral kanalının suaparma qabiliyyətinin saniyədə 9 kub m-dən 15 kub m-ə qədər artırılması nəzərdə tutulmuşdur.

Vəlvələçay-Taxtakörpü kanalının başlanğıcında Vəlvələçayda dib səviyyəsi 229,8 m, sonunda Taxtakörpü su anbarına tökülən yerdə dib səviyyəsi 189,0 m-dir. Kanal beton üzlük çəkilmiş trapes en kəsik şəkillidir. Sərfi saniyədə 75 kub m, uzunluğu 44,5 km, yamaclıq əmsalı m=1,5; dibdən eni 5 m, inşaat dərinliyi 4,2 m, suyun dərinliyi 3,6 m, maillik 0,0005, axının sürəti saniyədə 2,28 m-dir.

Taxtakörpü su anbarının texniki göstəriciləri. Anbara yığılmış sudan su təchizatında, suvarmada və elektrik enerjisinin istehsal olunmasında istifadə ediləcək. Su anbarının ümumi həcmi 268,9 mln. kub m, faydalı həcmi 218,9 mln.kub m, ölü həcmi 49,5 mln.kub m, anbarda maksimal su səviyyəsi 183 m, minimal istismar səviyyəsi 140 m, ölü həcmə uyğun səviyyəsi 130 m, aşağı byefin səviyyəsi 105 m-dir. Mərkəzi nüvə tipli bənddir. Bəndin hündürlüyü 137,5 m, bəndin üstdən eni 15 m, bəndin gövdəsinin həcmi 14 mln. kub m-dir. Suaşıranın tipi qapısız, sutullayanın sərfi saniyədə 84,3 kub m, suötürücü tunelin sərfi saniyədə 49,4 kub m, tunelin daxili diametri 5,2 m, uzunluğu 360 m-dir.

Taxtakörpü su elektrik stansiyasının texniki göstəriciləri. Maksimum su sərfi saniyədə 40 kub m, maksimum basqı 77 m, suqəbuledicinin dib səviyyəsi 115 m, tunelinin diametri 4,5 m, uzunluğu 270 m, SES-in gücü 25,0 MW, turbinin sayı 2 ədəd, 1 turbinin gücü 12,5 MW, turbinin növü - Fransa istehsalı, transformatorların sayı 2 ədəd, generatorun gücü 14 MW.

Taxtakörpü-Ceyranbatan kanalının uzunluğu 112 km, sərfi saniyədə 40 kub m, yamaclıq əmsalı 1,5, mailliyi 0,0003, dibdən eni 4 m, inşaat dərinliyi 3,5 m, suyun dərinliyi 3,12 m, axının sürəti saniyədə 1,48 m-dir. Yarımqazma-yarımtökmədə olan hissələrdə kanalın beton üzlüyünün qalınlığı 15 sm, tam tökmədə olan hissələrdə beton üzlüyünün qalınlığı 20 sm qəbul edilmişdir.

Respublikamız üçün həyati əhəmiyyət daşıyan bu obyektlərin layihə-sənədləri xarici şirkətlərlə birlikdə institutumuzun əməkdaşları tərəfindən bazar iqtisadiyyatının tələblərinə müvafiq hazırlanmışdır.

Respublikamızın bazar iqtisadiyyatına keçməsi, torpaq üzərində yeni mülkiyyət formasının yaranması, su obyektlərinin istifadəsi və mühafizəsi ilə bağlı yaranmış yeni münasibətlər dövlətin su siyasətini dəyişdi və su təsərrüfatının yeni iqtisadi şəraitə uyğun idarə edilməsi zəruriyyətini yaratdı.

Mövcud su ehtiyyatlarından və torpaq sahələrindən səmərəli istifadə etmək məqsədi ilə Avropa Şurası Parlament Assambleyasının su idarəçiliyi sahəsində qəbul etdiyi siyasətə uy-



Perspektivdə suvarılması nəzərdə tutulan torpaq sahələri
(1992-ci ildə yerinə yetirilmiş sənədlər əsasında)

s/s	Torpaqdan istifadəçilərin adları	Təhkim olunmuş torpaqların ümumi sahəsi	Ümumi suvarılan sahə	Həmcinin			Ümumi torpaqlardan həmcinin					Kənd təsərrüfatı yaraşmış sahələr cəmi	Meşə zolağı
				İstifadə edilən torpaqlar	Əkin yeri	Cəsillik əkinlər	Üzümlük	Tut ağacı	Subtropik bitkilər	Otlaqlar			
1	Xırdalan süd təsərrüfatı	3804	768	-	744	-	-	-	-	-		744	24
2	Zirə süd təsərrüfatı	5369	1505	-	1035	423	-	-	423	-		1658	47
3	Donuzları kökəltmə təsərrüfatı	1079	562	16	529	-	-	-	-	-		529	33
4	Maştağa təravəz-süd təsərrüfatı	1755	882	-	853	-	-	-	-	10		863	19
5	R.Əliyev adına 1 saylı damazlaq təsərrüfatı	1158	1086	8	847	-	-	-	-	205		1052	34
6	Buzovna təravəz-süd təsərrüfatı	1495	985	5	705	244	-	-	244	-		949	36
7	Donuz istehsalı üzrə Abşeron birliyi	141	84	-	81	-	-	-	-	-		81	3
8	Hovsan süd təsərrüfatı	2085	955	10	814	3	-	-	3	100		917	38
9	Məmmədli süd təsərrüfatı	3671	1133	55	944	-	-	-	-	100		1044	89
10	Tovuzuluq təsərrüfatı № 2	2667	808	10	722	50	-	-	50	-		772	36
11	Maştağa zələrən təsərrüfatı	1176	797	-	506	256	-	-	256	-		762	35
12	Maştağa subtropik təsərrüfatı	717	886	10	1014	430	-	-	430	-		844	42
13	Zabrat şişəbəndə yetişdirilən kombinatı	493	225	-	111	99	47	-	52	-		210	15
14	Zeytunculuq təsərrüfatı № 1	1890	1254	-	103	1125	-	-	1125	-		1210	44
15	Zeytunculuq təsərrüfatı № 3	2743	1599	-	187	1356	-	-	1356	-		1543	56
16	Abşeron meşəçilik ilişiyi	284	186	-	69	37	-	11	86	-		166	20
17	Saray üzüm təsərrüfatı	3534	1725	84	1335	226	226	-	-	21		1582	143
18	Abşeron üzüm təsərrüfatı (Mehdiabad)	1474	1108	16	243	774	774	-	-	-		1017	91
19	Novxanı üzüm təsərrüfatı	2132	1011	-	522	454	422	-	32	-		976	35
20	Türkan üzüm təsərrüfatı	2673	1071	8	531	497	176	-	321	-		828	243
21	Bakı qaş fabriki (Xırdalan qasabası)	374	54	-	82	-	-	-	-	-		52	2
22	Goradil qaş fabriki	145	66	-	63	-	-	-	-	-		63	3
23	Abşeron qaşçuluq təsərrüfatı	962	476	-	458	-	-	-	-	-		458	18

Abşeron kanalının sxematik planı

ğun olaraq müvafiq qanunlar, normativ-hüquqi aktlar, sərəncam və qərarlar qəbul edildi. Yaradılmış hüquqi baza əsasında meliorasiya və su təsərrüfatı sahəsində islahatlar aparıldı.

Azərbaycan Respublikasında ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə olunması üçün müəyyən qanunvericilik bazası yaradıldı.

Torpaq islahatı haqqında Azərbaycan Respublikasının Qanunu (16.06.1996) qəbul edildikdən sonra keçmiş kolxoz və sovxozların balansında olan torpaqlar özəlləşdirildi və yeni fermer təsərrüfatları, birliklər yaradıldı. Beləliklə, sovet dövründə olan böyük təsərrüfat sahələri çox kiçik təsərrüfat sahələrinə bölündü.

Azərbaycan Respublikasında torpaqların özəlləşdirilməsi proqramını sürətləndirmək məqsədilə 1996-cı ildə Xaçmaz, Salyan, Lənkəran, Ucar, Bərdə və Şərur rayonlarının hər birində nümunəvi özəl kəndli-fermer təsərrüfatları yaradıldı.

Torpaqların özəlləşdirilməsi təcrübəsi göstərdi ki, əkin sahələrinin müəyyən hissəsi istifadəsiz qalır və torpaqlardan səmərəli istifadə olunmur. Mövcud suvarma sistemlərinin istismarında və təmir-bərpa işlərində problemlər üzə çıxdı. Kənd təsərrüfatı bitkilərindən nəzərdə tutulmuş məhsuldarlığın əldə edilməsi mümkün olmadı. Aqrar sahədə problemlər yarandı.

MDB ölkələri arasında ilk dəfə Azərbaycanda meliorasiya sahəsində fəaliyyətin hüquqi əsasını müəyyən edən "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanunu 1996-cı ilin sentyarbın 14-də qəbul edildi.

Su obyektlərinin istifadəsi və mühafizəsi ilə bağlı hüquqi münasibətləri tənzimləyəcək Azərbaycan Respublikasının Su məcəlləsi Qanunu isə 26 dekabr 1997-ci ildə qəbul edildi.

Qəbul edilmiş qanunda əsasən aşağıdakı məsələlər öz əksini tapmışdır:

- su obyektlərinin istifadəyə verilməsi qaydaları, müddətləri, su istifadəçilərinin hüquq və vəzifələri;
- sudan istifadənin ləğv edilməsinin əsasları və qaydaları;
- su obyektləri üzərində mülkiyyət formaları;
- su obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təşkili;
- əhaliyə içməli su və məişət ehtiyacları üçün verilən sudan digər məqsədlərlə istifadə olunmasına qoyulan məhdudiyyətlər;
- müalicə-kurort, sağlamlaşdırma, istirahət, idman məqsədləri üçün su obyektlərindən istifadə;
- su obyektlərindən kənd təsərrüfatında istifadə;
- sudan sənaye və hidroenergetika məqsədləri üçün istifadə;
- sudan nəqliyyat ehtiyaclarını ödəmək məqsədilə istifadə;
- su obyektlərinin istifadəsi və mühafizə tədbirlərinin iqtisadi tənzimlənməsi;
- sudan pullu istifadə, su obyektlərinin istifadəsi və mühafizə sahəsində mübahisələrin həll edilməsi, qanunvericiliyin pozulmasına görə məsuliyyət və digərləri.

Suyun idarə olunması ilə bağlı "Hidrometeorologiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1998);

"Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanunu (1999);

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (1999);

"Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu (1999);

"Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının Qanunu (2002);

"Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu (2002) və digər qanunlar.

Azərbaycan Respublikası ətraf mühitə dair 15-dən çox beynəlxalq konvensiyaya, o cümlədən "Transsərhəd su axarlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsinə dair konvensiya"ya (17 mart 1992, Helsinki) qoşuldu və Milli Məclisdə 14 mart 2000-ci il tarixdə ratifikasiya olundu.

Transsərhəd çaylarının su ehtiyatlarının istifadəsi və mühafizəsi sahəsində beynəlxalq su yurisdiksiyasına əsaslanmış dövlət siyasəti aparıldı.

Azərbaycanda su ehtiyatları dövlətin mülkiyyətindədir. Su ehtiyatlarının istifadəsi və mühafizəsinin idarə olunması, su münasibətlərinin tənzimlənməsi, su idarəçiliyi ilə bağlı qanunlar və onların əsasında qəbul edilmiş normativ-hüquqi sənədlərə əsaslanaraq həyata keçirilir.

Ölkədə formalaşan yeni iqtisadi münasibətlərin tələbinə uyğun olaraq 1996-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında əsasnamə"yə görə 1 yanvar 1997-ci ildən başlayaraq suvarma suyundan pullu istifadəyə keçilmişdir (I mərhələ). Su istifadəçilərinin və sahibkarların hüquq və mənafelərini qorumaq, su ehtiyatlarından səmərəli istifadə olunmasını təmin etmək məqsədilə ölkədə "Sudan İstifadə Edənlər Assosiasiyaları (SİEA)" yaradılmışdır. Hazırda respublikanın suvarma aparılan topaqlarının 60 faizindən çoxunda torpaq mülkiyyətçilərinin təşəbbüsü ilə və Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin metodik köməkliyi ilə 585-dən çox "Sudan İstifadə Edənlər Assosiasiyaları" yaradılmışdır.

Heydər Əliyev Yenikənd SES-nın açılışında. 2000

Heydər Əliyev Vayxır su anbarının tikintisində. 2002

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin məlumatına görə, respublikanın kənd təsərrüfatına yararlı 4514473 hektar torpaq sahəsinin 1927247 hektarı dövlət mülkiyyətində saxlanılmışdır ki, bunun da 190652 hektarı suvarılan torpaqlardır. Odur ki, respublikada torpaq islahatı tam başa çatdıqdan və təsərrüfatların maliyyə imkanları artdıqdan sonra sudan pullu istifadənin II mərhələsinə keçilməsi və suyun tarifinin tədricən artırılması nəzərdə tutulur (2006-2010-cu illər).

Ulu öndər Heydər Əliyevin ölkədə meliorasiya və su təsərrüfatının inkişafına göstərdiyi diqqət və qayğını, hazırkı vaxtda möhtərəm Prezident İlham Əliyev uğurla davam etdirir və yeni formalarla zənginləşdirir.

Çox fərəhli haldır ki, Ümummilli lider Heydər Əliyev tərəfindən 1970-1982-ci və müstəqilliyimizin ilkin illərində təməlini qoyduğu genişmiqyaslı meliorasiya və su təsərrüfatı layihələri Prezident İlham Əliyev tərəfindən verilmiş tapşırıq əsasında müvəffəqiyyətlə başa çatdırılır və yeni layihələrlə zənginləşdirilir.

Dövlət başçısı İlham Əliyev 2004-cü ildə Samur-Abşeron suvarma sisteminin yenidən qurulması sxeminə daxil olan Xanarx kanalının tikintisi ilə tanış olmuş, 2005-ci il dekabr ayında isə Heydər Əliyev adına Vayxır su anbarının istifadəyə verilməsi münasibəti ilə təşkil olunmuş tədbirdə iştirak etmişdir.

Məlumdur ki, respublikamızda nəzərdə tutulan "Ərzaq təhlükəsizliyi Dövlət Proqramı"nın həyata keçirilməsi və aqrar sahənin inkişafı bilavasitə meliorasiya və su təsərrüfatı layihələrinin uğurla həyata keçirilməsindən asılıdır.

İqtisadi sahədə aparılan uğurlu siyasət nəticəsində Azərbaycanda büdcə gəlirləri ilbəil artdığına görə, meliorasiya və su təsərrüfatı sahəsində layihə işlərinə ayrılan vəsait də hər il artır.

Möhtərəm Prezident İlham Əliyevin 1 sentyabr 2005-ci ildə "Respublikamızda su təchizatı və meliorasiya sahəsində görülən işlər və perspektiv layihələrlə bağlı" və 29 aprel 2008-ci

Xanarx kanalının tikintisi ilə tanış olmaga gəlmiş Prezident İlham Əliyevi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə qarşılayır. 2004

Prezident İlham Əliyevə tikinti haqqında məlumat verilir.

Prezident İlham Əliyevə layihə haqqında məlumat verilir.

Prezident İlham Əliyevə tikinti haqqında məlumat verilir.

Prezident İlham Əliyevə tikinti haqqında məlumat verilir.

Prezident İlham Əliyev tikinti ilə tanış olur.

Xanarx kanalının tikintisi

Xanarx kanalı

Kanalın tikintisi

Prezident İlham Əliyev Naxçıvan MR-də Vayxır su anbarının açılışında. 18 dekabr 2005-ci il

Vayxır su anbarında tikinti işləri aparılır.

Prezident İlham Əliyev Vayxır su anbarının açılışında.

Vayxır su anbarında inşaat işləri tamamlanmaq üzrədir

Samur çaydakı Baş suqəbuledici

Samur çaydakı Baş suqəbuledici

ildə "Ölkəmizdə su təchizatı, meliorasiya, irriqasiya və kanalizasiya sistemlərinin inkişafı ilə bağlı layihələrə dair" keçirdiyi müşavirələrdə verdiyi göstərişlər və tapşırıqlar son illərdə bu sahənin geniş miqyasda inkişafına böyük təkan vermişdir.

Azərbaycan Respublikası "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına (2004-2008-ci illər)" daxil edilmiş və respublika büdcəsindən ayrılmış vəsait hesabına, Dünya Bankının, İslam İnkişaf Bankının, Asiya İnkişaf Bankının və digər maliyyə qurumlarının krediti hesabına 2006-cı ildə Baş Mil-Muğan kollektorunda və 2006-cı ildə Naxçıvan Muxtar Respublikasında Vayxır su anbarında yarımçıq qalmış tikinti işləri, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində 2002-ci ildə Samur Baş suqəbuledici qurğusunun bərpası, 2006-cı ildə Baş su durulducusunun tikintisi və 187 km uzunluğunda təsərrüfatlararası kanalların yenidən qurulması, 2006-cı ildə İslam İnkişaf Bankının vəsaiti hesabına layihə sənədləri "Azdövsutəslayihə" İnstitutu və Türkiyənin "SU-YAPI" firması əməkdaşları tərəfindən birgə hazırlanmış, uzunluğu 67,2 km olan Xanarx kanalının tikintisi, 2007-ci ildə isə Samur-Abşeron kanalının ilk 50 km-lik hissəsinin bərpası başa çatdırılmışdır.

Uzunluğu 44,5 km olan Vəlvələçay-Taxtakörpü kanalının tikintisinin maliyyələşdirilməsinə İslam İnkişaf Bankı, Səudiyyə İnkişaf Fondu və OPEK Fondu tərəfindən kredit ayrılması barədə saziş imzalanmışdır. Bu kanalın tikilməsində əsas məqsəd yaranan əlverişli şəraitdə regiondakı 6 çayın su ehtiyatından səmərəli istifadə etməkdir.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi" çərçivəsində ümumi sututumu 269 mln. kub m olan "Taxtakörpü su anbarının SES-lə birlikdə layihələndirilməsi və tikintisi", "Taxtakörpü-Ceyranbatan kanalının layihələndirilməsi və tikintisi" obyektləri üzrə işlərin həyata keçiriləməsinə 2006-cı ildə başlayaraq Dövlət Neft Fondundan vəsait ayrılmışdır.

İqtisadi baxımdan bu layihələr çox sərfəlidir. Layihədə nəzərdə tutulmuş işlər başa çatdırıldıqdan sonra Taxtakörpü-Ceyranbatan kanalı anbardan qəbul etdiyi suyu öz axını ilə Ceyranbatan gölünə verəcək. Beləliklə, Samur-Abşeron kanalı üzərində, Sitalçayda və Ceyranbatanda mövcud olan nasos stansiyaları ləğv ediləcəkdir.

Tikintisi vacib sayılan üçüncü obyekt Naxçıvan Muxtar Respublikasında, Babək, Şahbuz və Culfa rayonlarında 6,9 min hektar yeni əkin sahələrinin suvarılması və 9,9 min hektar mövcud əkin sahəsində su təminatının yaxşılaşdırılmasına imkan yaradacaq Vayxır su anbarı idi.Vayxır su anbarının layihə sənədləri "Azdövsutəslayihə"

Prezident İlham Əliyevin yanında müşavirə. 1 sentyabr 2005-ci il

İnstitutunda işlənmişdir. Tikintisinə 1983-cü ildə başlanmış və vəsait olmadığına görə tikinti dayandırılmışdır.

Ulu öndər Heydər Əliyev 2002-ci ildə Naxçıvan MR-da olarkən Vayxır su anbarında tikintinin davam etdirilməsi barədə verdiyi göstərişdən sonra 2003-cü ildə yarımçıq qalmış tikintidə işlər başlanmış və 2006-cı ildə başa çatdırılmışdır.

Dövlət başçısı İlham Əliyevin iştirakı ilə 2009-cu ilin may ayında təməli qoyulan Şəmkirçay su anbarının layihə sənədləri Türkiyənin "TƏMƏLSU" şirkəti və institutun əməkdaşları ilə birgə işlənmişdir.

Azərbaycan dünyanın təbii fəlakətlərə ən çox məruz qalan regionlarından biridir. Respublikamızda 154 selgətirən çay var ki, bunlardan da 61-i ən təhlükəlisidir. Selgətirən çaylardan Kişçay, Talaçay, Gurmuxçay, Dəmiraparançay, Katexçay, Bumçay, Muxaxçay, Girdimançay,

Prezident İlham Əliyevin yanında müşavirə. 29 aprel 2008-ci il

Naxçıvan MR-də Vayxır su anbarı.

Samur Baş su qəbuledicidəki dürulducu

Vayxır su anbarında inşaat işləri aparılır



Vayxır su anbarında qəza sutullayıcısı.

Prezident İlham Əliyevə Taxtakörpü su anbarı haqqında məlumat verilir.
Şabran (Dəvəçi)8 noyabr 2007 ci il

Prezident İlham Əliyev Taxtakörpü su anbarının bəndin təməlqoyma mərasimində.

Taxtakörpü su anbarında bəndin özülünə beton verilir.

Prezident İlham Əliyevə Taxtakörpü su anbarındakı SES haqqında məlumat verilir. 8 noyabr 2007 ci il

Prezident İlham Əliyev Taxtakörpü su anbarındakı SES binasının təməlqoyma mərasimində.

SES-in binasının özülünə beton verilir.



LAYİHƏ ÜZRƏ SUVARILAGAQ TORPAQLAR

S/S	Rayonlar adı	Layihə sərhəddi daxilində ümumi sahə ha	Mövcud dövrdə suvarılan ha	Layihə üzrə suvarılan sahə ha	O cümlədən:	
					Su təminatının yaxşılaşdırılması ha	Yeni suvarılan ha
1	2	3	4	5	6	7
1	Şəmkir	26884,4	16266,8	22410,5	16266,8	6143,7
2	Göygöl	4120,4	1814,5	3924,7	1814,5	2110,2
	Cəmi:	31004,8	18081,3	26335,2	18081,3	8253,9

Şəmkirçay su anbarının təsir zonasında olan ərazidə suvarma sisteminin sxematik planı

Şəmkirçay su anbarı yaradılacaq ərazi. 2009

Araz və Kür çayları ən təhlükəlidir. Bu çaylarda baş verən daşqınlar demək olar ki, müxtəlif illərdə ölkəyə külli miqdarda ziyan vurmuşdur. Balakən, Zaqatala, Qax, Şəki, Qəbələ, Oğuz, İsmayıllı, Göyçay, Ağsu, Dəvəçi, Quba, Qusar, Ordubad, Neftçala, Salyan rayonları daşqın təhlükəsinə daha çox məruz qalmışdır.

Uzun illər ərzində əkin sahələrini və yaşayış məntəqələrini çayların daşqın və sel sularından qorumaq məqsədilə Araz və Kür çaylarının sahillərində 1700 km uzunluğunda torpaq-mühafizə bəndləri, dağlıq ərazilərdəki çayların sahillərində isə 126 km uzunluğunda daş-beton və beton mühafizə bəndləri tikilmişdir ki, bunların da layihə-smeta sənədləri "Azdövsutəslayihə" İnstitutunda hazırlanmışdır.

Sellər, daşqın və subasmalar nəticəsində hər il ölkə iqtisadiyyatına xeyli miqdarda zərər vurulur.

2004-cü ildə Azərbaycan hökuməti ilə Asiya İnkişaf Bankı arasında "Selə qarşı tədbirlər" layihəsinin maliyyələşdirilməsi üzrə kredit sazişi imzalanmış, 12 rayonun ərazisindəki 23 çayda 28 km uzunluğunda qoruyucu bəndlərin tikilməsinə vəsait ayrılmışdır. 2005-ci ildən həyata keçirilən layihədə "Azdövsutəslayihə" İnstitutu da yaxından iştirak etmişdir.

Respublikamızın ərazisindəki 1025 min hektar qış otlaq sahələrində saxlanılan heyvanların suya olan tələbatını ödəmək məqsədilə borular üzərində quraşdırılmış 5322 ədəd qurğulardan, müxtəlif materiallardan hazırlanmış 2930 km uzunluğunda fərqli diametrli borulardan tikilmiş mövcud su təminatı sistemlərinin layihə-smeta sənədləri də "Azdövsutəslayihə" İnstitutunda hazırlanmışdır.

Prezident İlham Əliyevə Şəmkirçay su anbarı haqqında məlumat verilir. 25 may 2009-cu il

Prezident İlham Əliyevə Şəmkirçay su anbarının layihəsi haqqında məlumat verilir. 2009

Prezident İlham Əliyev Şəmkirçay su anbarında bəndin təməlqoyma mərasimində.

Şəmkirçay su anbarında bəndin özülünə beton verilir.

Göytəpə su anbarı. Cəlilabad rayonu. 2010



Prezident İlham Əliyevə Göytəpə su anbarı haqqında məlumat verilir.

Prezident İlham Əliyev Göytəpə su anbarının açılışında. Cəlilabad rayonu. 16 aprel 2010-cu il

Prezident İlham Əliyev Taxtakörpü su anbarında. 2011

Əhməd Əhmədzadə Araz çayı sahil mühafizə bəndinin tikinti sahəsində. 2005

ASC-nin rəhbərliyi Şəmkirçay su anbarının tikinti sahəsində. 2012

Layihəçilər Baş Mil-Muğan kollektorunun tikintisinə baxış keçirir. 2000

Azdovsutəslayihə institutunun strukturu 2013



"Azdövsutəslayihə" institutu sentyabr 2009-cu ildən İ.Dadaşov küçəsi 70a ünvanında fəaliyyət göstərir



Tovuzçay su anbarının baş planı.

Tovuzçay su anbarının tikintisindən görünüş

Tovuzçay su anbarında suburaxan qurğunun tikintisi

Xanarx kanalı

Artezian quyusu

Qış otlaq sistemlərindəki şəbəkəyə tələb olunan su, 18 nasos stansiyasından və 20 subartezian quyusundan verilir.

"Azdövsutəslayihə" İnstitutunda hazırlanmış layihə sənədləri əsasında Göytəpə su anbarında (Cəlilabad rayonu) tikinti işlər başa çatıb. Hazırda Tovuz rayonunda Tovuzçay su anbarının, Qazax rayonunda Coğazçay su anbarının, Quba rayonundakı Qırmızı Qəsəbə kanalının Baş sugötürücü qurğusunun, Baş Şirvan kollektorunun Şirvan (keçmiş Əli Bayramlı) şəhərindən keçən hissəsində, Göyçay çayında Baş sugötürücü qurğunun və digər obyektlərdə tikinti işləri aparılır.

Son illərdə "Azdövsutəslayihə" İnstitutunun əməkdaşları tərəfindən Beyləqan rayonunda Yuxarı Mil kanalının, Neftçala rayonunda Neftçala magistral kanalının və nasos stansiyasının, Şəmkir rayonunda Şəmkir maşın kanalının birinci növbəsinin son 3,7 km hissəsinin, Şəki rayonunda Cəyirli su anbarının və Əlican çayında 14 km uzunluğunda kanalın, Ağstafa rayonu ərazisində Candar kanalının, Ağsu rayonunda Yuxarı Şirvan kanalının maşın qolunun, Salyan rayonu ərazisində Akuşa kanalının, Kürdəmir rayonunda Axtaçı-Ərəbqubalı kanalının yenidən qurulması, Salyan şəhəri yaxınlığında Kür çayının məcrasının düzləndirilməsi və digər obyektlər üzrə layihə-smeta sənədləri hazırlanaraq tikinti aparan təşkilatlara tələb olunan müddətlərdə təhvil verilmişdir.

Mil-Muğan kollektorunun Kür çayının sağ sahili boyu davamına çevirilmiş "Mil-Qarabağ kollektorunun yenidənqurulma layihəsi" üzrə layihə-smeta sənədləri hazırlanaraq tikinti təşkilatına verilmişdir. Layihənin baş mühəndisi Akif Qara oğlu Sultanovdur.

Əkin sahələrini suvarmaq və əhalini içməli su ilə təmin etmək məqsədilə 2005-ci ildə 45, 2006-cı ildə 104, 2007-ci ildə 180, 2008-ci ildə isə 160 subartezian quyuları qazılaraq istismara verilmişdir. Hazırkı dövrdə meliorasiya və su təsərrüfatı sahəsində 7352 ədəd subarte-



İnstitutun direktoru Elbrus Paşayev

zian quyusundan istifadə olunur ki, bu qurğuların da layihə-smeta sənədləri müxtəlif illərdə layihə institutunun əməkdaşları tərəfindən tərtib olunmuşdur.

Hazırda Kür, Araz və digər çaylarının, təbii və süni yaradılmış su anbarlarının, magistral kanalların və kollektorların üzərində layihə-smeta sənədləri institutda hazırlanmış 931 ədəd müxtəlif markalı nasoslardan istifadə olunur.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ölkəmizdə görülən meliorasiya və su təsərrüfatı işlərinin sifarişçisi, istifadəyə verilmiş obyektlərdə istismar tədbirlərinin icraçısı kimi fəaliyyəti həyata keçirir. Tabeçiliyində olan sahələrdə iqtisadi islahatları təmin edir, sudan istifadəyə və onun mühafizəsinə dövlət nəzarətini yerinə yetirir. Sosial-iqtisadi inkişafın əsas istiqamətlərini müəyyənləşdirir, normativ sənədlər tərtib edir, təqvim ili və perspektiv illər üçün proqnozlar hazırlayır, bu sahəyə investisiyaların cəlb olunmasını təşkil edir, meliorasiya və su təsərrüfatı sahəsində qanunvericilik bazasının genişləndirilməsi və onun daha da təkmilləşdirilməsi istiqamətində müvafiq işlər aparır.

Ölkənin ərzaq təminatının davamlı olaraq yaxşılaşdırılmasına təminat verən meliorasiya və su təsərrüfatı sahəsində Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi məqsədyönlü siyasətə və möhtərəm Prezident İlham Əliyevin göstərişinə uyğun olaraq tikintisi vacib olan obyektlərin düzgün seçilməsi, elmi baxımdan əsaslandırılaraq layihə sənədlərinin hazırlanması və tikintinin tələb olunan səviyyədə həyata keçirilməsi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin aparatında və onun tabeçiliyində olan müəssisələrdə işləyən çoxsaylı insanların gərgin əməyi hesabına reallaşır.

Ölkəmizdə ərzaq təhlükəsizliyinin qarantı olan meliorasiya və su təsərrüfatında tikintisi vacib olan obyektlərin seçilməsində, aparılan məqsədyönlü siyasətin müəyyən edilməsində, dövlət rəhbərliyi tərəfindən tikintisinə qərar verilmiş obyektlərin layihə-smeta sənədlərinin hazırlanmasında və nəzərdə tutulmuş layihələrin uğurla həyata keçirilməsində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Cuma oğlu Əhmədzadənin təşəbbüskarlığını, idarəçilik qabiliyyətini, gərgin əməyini bu sahəni yüksək səviyyədə bilən mütəxəssislər yekdilliklə müsbət dəyərləndirirlər.

Ə.Əhmədzadənin 23 fevral 2008-ci ildə "Respublika" qəzetində "Görülən işlər və qarşıda duran vəzifələr", Ulu öndər Heydər Əliyevin anadan olmasının 85 illiyi münasibətilə 11 aprel 2008-ci ildə "Respublika" qəzetində "Ölkəmizdə meliorasiya və su təsərrüfatının inkişafı Ümummilli liderin adı ilə bağlıdır", 5 iyun 2008-ci ildə "Respublika" qəzetində "Suvarılan torpaqların meliorativ vəziyyəti və onun yaxşılaşdırılması" sərlövhəli, genişhəcmli

İnstitutun Baş mühəndisi Yusif Qaziyev

məqalələrində Azərbaycan iqtisadiyyatında, xüsusən kənd təsərrüfatının inkişafında mühüm rol oynayan meliorasiya və su təsərrüfatı sahəsində həyata keçirilən layihələrin, tikintisi davam edən obyektlərin və gələcəkdə görüləcək işlərin çox əhatəli şəkildə təhlili verilmişdir.

"Azdövsutəslayihə" İnstitutunda 2007-ci ildə layihə-smeta işlərinin hazırlanmasına ayrılan vəsait 1997-ci illə müqayisədə 10 dəfə artmışdır.

Tapşırılan layihələrin tələbata uyğun hazırlanmasında və sifarişçi təşkilatlara vaxtında çatdırılmasında xüsusi əməyi olan əməkdaşlardan, **İnstitutun baş mühəndisi** Qaziyev Yusif Cəbrayıl oğlunun, **Texniki şöbədən** Novruzov Lətif Qənbər oğlunun, Quliyeva Fatimə Mixaylovnanın; Abdullayev Rəşad Əlimuxtar oğlunun, **1 saylı layihə şöbəsindən** Həbibov Vilayət Məhəbbət oğlunun, Sultanov Akif Qara oğlunun, Həbibov Fizuli Rzayeviçin, Niya-

zova Rəfiqə Yaqub qızının, Əfəndiyeva Ziyafət Şakir qızının, **2 saylı layihə şöbəsindən** Məmmədov Adil Məmməd oğlunun, Hüseynov Mürsəl Mirsüleyman oğlunun, Rəhimov Zahir Sudef oğlunun, Abdullayev Kənan Şəfaqət oğlunun, Mövsümov Ələkbər Vəli oğlunun, Adilov Qasım İbrahim oğlunun, Nazullayeva Nabatxanım Ocatulla qızının, Talıbov Hafiz Bahyəddin oğlunun; **3 saylı layihə şöbəsindən** Mustafayev Rövşən Şakir oğlunun, Əsgərov Ədalət Həzrətqulu oğlunun, Baloğlanov Sahib Şərif oğlunun, Novruzov Abbas Qənbər oğlunun, Əliyev Rəhman Əli oğlunun, Rəhimova Həqiqət Vahid qızının, **Su anbarı və bəndlər şöbəsindən** Hacıyev Arif Səlim oğlunun, Tağızadə Esmira Məmməd qızının; **Hidrotexniki qurğular şöbəsindən** İsayev Rauk Məmməd oğlunun, Şahməmmədov Şahməddin Bayram oğlunun, Mahmudova Müqibət Heybət qızının, İskəndərov Zeynalabdin Xanlar oğlunun, Süleymanova Şəvəqqət Heybət qızının, Məmmədova Əzizə Xankişi qızının, Pirbabayeva Ofelya Camal qızının, Əskərova Firəngiz Əlihüseyn qızının, Əskərov Samir Rasim oğlunun, **Memar-inşaat sektorundan** Barxalov Osman Paşa oğlunun, **Torpaq Meliorativ Axtarış və kənd təsərrüfatı layihələndirmə şöbəsindən** Mahmudov Fərhad Mahmud oğlunun, Qasımov Mehman İdris oğlunun, Rəfizadə Tərənə Tahir qızının, Hacıyev Varaşil İsa oğlunun, **Torpaq ayırma şöbəsindən** Hüseynov Fazil Bakir oğlunun, Hüseynov Həzərxan Şahüseyn oğlunun, İsmayılov Nəbi Binnət oğlunun, **Hidrologiya sektorundan** Əliyev Fikrət Məmməd Rza oğlunun, **Elektrotexnika şöbəsindən** Nəbiyeva Aidə Fərəc qızının, **Topoqrafiya-axtarış şöbəsindən** İskəndərov İdrak Sabir oğlunun, Novruzov Zakir Mustafa oğlunun, Vəliyev Akif Cahanbaş oğlunun, **Mühəndis-geologiya və hidrogeologiya şöbəsindən** Axundov Murad Bəhram oğlunun, g.m.e.n. Məmmədov Ramiz Yusif oğlunun, Fərəcova Ulduz Məmməd qızının, Əzimov Eldar Sadıx oğlunun, Babayev Vaqif Allahverdi oğlunun, İsmayılova Zemfira Əlibala qızının, Məmmədov Nail Abdı oğlunun; **Nasos stansiyası və metal konstruksiyaları şöbəsindən** Qasımov Sabir İskəndər oğlunun, Kərimova Ruqiyə Nəsib qızının, Nəcəfova İradə Məmmədiyə qızının, **Tikinti Təşkilinin Layihələndirilməsi və smeta şöbəsindən** Ağacanov Rüstəmzal Məmməd oğlunun, Hüseynova Şərqiyyə Siracəddin qızının, Baxşəliyeva Ruxsarə Məmməd qızının, Cəfərova Aida Höccət qızının, Rüstəmov Rakif Böyükağa oğlunun, Mustafayev Ravil Rasim oğlunun, **Layihələrin tərtibatı və buraxılışı şöbəsindən** Abdullayev Əlimuxtar Xudaverdi oğlunun, Rzayev Elxan Əmrah oğlunun, Sultanova Gülşən Yusif qızının, Bağırova Səliməxanım Hüseyn qızının, **Təsərrüfat şöbəsindən** Paşayev Mehdi Paşa oğlunun, Əliyev Rafiq Süleyman oğlunun, **Kadrlar sektorundan** Rüstəmova Rəna Şamil qızının, **Maliyyə-iqtisadiyyat və mühasibat uçotu şöbəsindən** Məmmədova Rəna Höccət qızının, **Mülki müdafiə və təhlükəsizlik texnikası** üzrə mühəndis Yaqubov Zahid Rüstəm oğlunun, **Arxivdən** Quliyev İslam Həsən oğlunun, Abdullayeva Laləzar Mirzə Qədir qızının, **Dəftərxanadan** Məmmədova Zemfira Zahid qızının və başqalarının adlarını çəkmək istərdik.

Qeyd etmək istərdik ki, hazırda "Azdövsutəslayihə" institutunda çalışan 4 əməkdaşın elmi dərəcəsi var.

Texniki şöbə

Texniki şöbənin rəisi Lətif Novruzov

Texniki şöbənin işçilərindən bir qrup

Texniki şöbədə baş mütəxəssis Fərzəli Həsənov

Texniki şöbənin işçilərindən bir qrup

1 saylı şöbə

1 saylı şöbənin rəisi Vilayət Həbibov

1 saylı şöbənin işçilərindən bir qrup

1 saylı şöbədə layihə baş mühəndisi Akif Sultanov

Həmkarlar təşkilatı

Təşkilatın sədri Zahid Yaqubov komitə üzvlərilə

2 saylı şöbə

2 saylı şöbənin rəisi Adil Məmmədov

2 saylı şöbənin işçilərindən bir qrup

2 saylı şöbədə layihə baş mühəndisi Mürsəl Hüseynov

2 saylı şöbədə layihə baş mühəndisi Zahir Rəhimov

3 saylı şöbə

3 saylı şöbənin rəisi Rövşən Mustafayev

3 saylı şöbənin işçilərindən bir qrup

3 saylı şöbədə layihə baş mühəndisi Ədalət Əsgərov

3 saylı şöbədə layihə baş mühəndisi Sahib Baloğlanov

Su anbarları və bəndlər şöbəsi

Su anbarları və bəndlər şöbəsinin rəisi Arif Hacıyev



Su anbarları və bəndlər şöbəsinin işçiləri

Hidrotexniki qurğular şöbəsi

Hidrotexniki qurğular şöbəsinin rəisi Rauk İsayev

Hidrotexniki qurğular şöbəsinin işçilərindən bir qrup

Hidrotexniki qurğular şöbəsində layihə baş mühəndisi Şahməddin Şahməmmədov

Hidrotexniki qurğular şöbəsində layihə baş mühəndisi Zeynalabdin İskəndərov

Hidrotexniki qurğular şöbəsində layihə baş mühəndisi Müqibət Mahmudova

Memar-inşaat sektoru

Memar-inşaat sektorunun rəisi Osman Barxalov

Torpaq meliorativ axtarış və kənd təsərrüfatı layihələndirmə şöbəsi

TMA və kənd təsərrüfatı layihələndirmə şöbəsinin rəisi Fərhad Mahmudov

TMA və kənd təsərrüfatı layihələndirmə şöbəsinin işçilərindən bir qrup

Torpaq ayırma şöbəsi

Torpaq ayırma şöbəsinin rəisi Fazil Hüseynov şöbənin işçiləri ilə

Hidrologiya sektoru

Hidrologiya sektor rəhbəri Fikrət Əliyev

Elektrotexnika şöbəsi

Elektrotexnika şöbəsinin rəisi Aidə Nəbiyeva

Elektrotexnika şöbəsinin işçilərindən bir qrup

Topoqrafiya-axtarış şöbəsi



Topoqrafiya-axtarış şöbəsinin rəisi İdrak İskəndərov

Topoqrafiya-axtarış şöbəsinin işçilərindən bir qrup

Mühəndis-geologiya və hidrogeologiya şöbəsi

Mühəndis-geologiya və hidrogeologiya şöbəsinin rəisi Murad Axundov

Mühəndis-geologiya və hidrogeologiya şöbəsinin işçilərindən bir qrup

Geotexniki və kimyəvi analiz labaratoriyası



Geotexniki və kimyəvi analiz labaratoriyasının rəisi Ulduz Fərəcova

Geotexniki və kimyəvi analiz labaratoriyası

Nasos stansiyası və metal konstruksiyaları şöbəsi

Nasos stansiyası və metal konstruksiyaları şöbəsinin rəisi Sabir Qasımov

Nasos stansiyası və metal konstruksiyaları şöbəsinin işçilərindən bir qrup

Tikinti təşkilinin layihələndirilməsi və smeta şöbəsi

TTL və smeta şöbəsinin müdiri Rüstəmzal Ağacanov

TTL və smeta şöbəsinin işçilərindən bir qrup

Layihələrin tərtibatı və buraxılışı şöbəsi

Layihələrin tərtibatı və buraxılışı şöbəsinin müdiri Əlimuxtar Abdullayev

Layihələrin tərtibatı və buraxılışı şöbəsinin işçilərindən bir qrup

Təsərrüfat şöbəsi

Təsərrüfat şöbəsinin müdiri Mehdi Paşayev bir qrup işçiləri ilə

Arxiv

Arxiv müdiri İslam Quliyev və Laləzar Abdullayeva

Kadrlar sektoru

Kadrlar sektorunun müdiri Rəna Rüstəmova və Rəna Budaqova

Maliyyə iqtisadıyyat və mühasibat uçotu şöbəsi



Maliyyə iqtisadiyyat və mühasibat uçotu şöbəsinin işçilərindən bir qrup

“AZDÖVSUTƏSLAYİHƏ” İNSTİTUTUNUN FƏALİYYƏT DÖVRÜNÜN QISA XRONOLOGİYASI

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nəzdində fəaliyyət göstərən, Su təsərrüfatı obyektlərinin layihələndirilməsi üzrə Azərbaycan Dövlət İnstitutu “Azdövsutəslayihə”, 1930-cu il yanvar ayının 15-də Azərbaycanda su təsərrüfatı obyektlərinin layihələndirilməsi və axtarışı üzrə layihə şöbəsi kimi Azərbaycan Su Təsərrüfatı İdarəsində yaradılmışdır (“Азводхоз”). Layihə qrupunun ilk işçiləri: şöbə rəhbəri E.İ. Zdobnov, mühəndislər Z.Litinski, M.Voronin, qrafiki cizgiləri çəkənlər N.Əzizova və M.Oqanezova olmuşlar.

Tələb olunan layihə-axtarış iş çoxluğunu və su təsərrüfatı sahəsində aparılacaq iş həcmlərinin artacağını nəzərə alaraq 1933-cü ilin aprel ayında Azərbaycan Su Təsərrüfatı İdarəsinin “Layihə Şöbəsi” əsasında Azərbaycanda Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi və Axtarışı üzrə trest səlahiyyəti verilmiş idarə “Azvodproiz” təşkil olunmuşdur.

Abbasov Mehdi Əli oğlu layihə idarəsinin müdiri vəzifəsinə, 1930-cu ildən fəaliyyət göstərən layihə şöbəsinin rəhbəri E.İ. Zdobnov baş mühəndis vəzifəsinə təyin olunmuşlar.

Qeyd etmək lazımdır ki, 1932-ci ildən Azərbaycanın da daxil olduğu Zaqafqaziya Sovet Sosialist Federativ Respublikasının mərkəzi Tiflis şəhərində Zaqafqaziyada su təsərrüfatı obyektlərinin layihələndirilməsi və axtarışı üzrə trest (Zakvodproiz) fəaliyyət göstərmişdir. Yəni, Azərbaycan ərazisində tikilən bəzi su təsərrüfatı obyektlərinin layihə sənədləri bu trestin əməkdaşları tərəfindən işlənmişdir. “Zakvodproiz” tresti 1936-ci ildə əmlakı və əsas işçiləri Tiflis şəhərindən Bakıya köçürülməklə “Azvodproiz” idarəsinə birləşdirilmişdi və “Zakqiprovod” adlandırılmışdır. Bakı şəhərində fəaliyyət göstərən “Zakqiprovod” idarəsində Azərbaycan, Gürcüstan və Ermənistan Respublikaları ərazilərindəki bütün su təsərrüfatı obyektlərinin tikintisi üçün tələb olunan axtarış işləri aparılmış və layihə sənədləri hazırlanmışdır.

“Azsutəs” idarəsinin şöbəsi olaraq əsası qoyulan “Azdövsutəslayihə” İnstitutu yarandığı gündən hazırkı dövrə kimi, ayrı-ayrı illərdə müxtəlif adlar altında fəaliyyət göstərmişdir:

Azərbaycan Su Təsərrüfatı İdarəsi (Азводхоз) 1930-1933;

Azərbaycanda Su Təsərrüfatı Obyektlərinin Layihələndiriləməsi və Axtarışı üzrə İdarə “Azvodproiz” (1933-1936);

Zaqafqaziya Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi və Axtarışı üzrə İdarə “Zakqiprovod” (1936-1945);

Azərbaycan Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi və Axtarış üzrə İdarə “Azvodproiz” (1945-1948);

Azərbaycanda Suvarma Sistemlərinin və Qurğularının Layihələndirilməsi və Axtarışı üzrə İdarə “Азводпроект” (1948-1951);

Zaqafqaziyada İrriqasiya Qurğularının və Kənd Elektrik Stansiyalarının Layihələndirilməsi “Закгипроводхлопок” (1951-1953);

Azərbaycan Dövlət İrriqasiya Qurğularının və Kənd Elektrik Stansiyalarının Layihələndirilməsi İnstitutu “Азгипроводхоз” (1953-1956);

Azərbaycan Dövlət Su Təsərrüfatı Obyektlərinin Layihələndirməsi İnstitutu "Азгипроводхоз" (1956-1997);

Azərbaycan Dövlət Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi üzrə Layihə-Axtarış Birliyi "Azdövsutəslayihə" LAB (1997-2005);

Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi üzrə Azərbaycan Dövlət İnstitutu "Azdövsutəslayihə" (2005- ci ildən hazırkı vaxta kimi).

"Azdövsutəslayihə" İnstitutuna rəhbərlik etmiş şəxslər:

Direktorlar

1. Nəzirov 15.01.1933-8.04.1933
2. Abbasov Mehdi Əli oğlu 8.04.1933 – 11.07.1964
3. Səlimbəyov Cəfər Vahab oğlu 11.07.1964 – 17.04.1972
4. Musayev Zülfüqar Fətulla oğlu 17.04.1972 – 24.10. 1975
5. Paşayev Paşa Sirac oğlu 15.04.1976 – 16.05.1983
6. Əliyev Rahib Oruc oğlu 16.05.1983 – 21.04.2008
7. Paşayev Elbrus Paşa oğlu 21.04.2008-ci ildən

Baş mühəndislər:

1. Zdobnov E.İ. 08.04. 1933 – 1934
2. Qovert A.R. 1934-1935
3. Manzon Aron İosifoviç 1935 – 1938
4. Dobronravov Vasili Alekseyeviç 01.04.1938 – 01.07 .1950
5. Rudman İsrail Azikoviç 01.07.1950 –01.03.1961
6. Bağırov Zülfüqar Əli oğlu 01.03.1961 – 15.02.1963
7. Tabasaranski Bəybala Əlimərdanoviç 15.02.1963 – 25.04.1978
8. Bağırov Zülfüqar Əli oğlu 13.04.78 – 05.01.1982
9. Mirzəxanov Əli Cəbrayıl oğlu 01.11.1982 – 07.04.2003
10. Musayev Telman Mir Məsim oğlu 20.05.2003 – 01.05.2007
11. Paşayev Elbrus Paşa oğlu 01.05.2007 – 21.04.2008
12. Qaziyev Yusif Cəbrayil oğlu 27.05.2008-ci ildən

MİLLİ QƏHRƏMANIMIZ

"Azdövsutəslayihə" institutunun əməkdaşlarından:

Nəsrəddinov Rafiq Hüseyn oğlu, Atakişiyev Məmməd İslam oğlu, Hüseynov Fazil Bakir oğlu, Yusifov Vüqarlı Camal oğlu, Tağıyev Mehman Musarza oğlu və Orucov Niyaz Tofiq oğlu Qarabağ uğrunda gedən döyüşlərdə iştirak ediblər.

"Azdövsutəslayihə" institutunun kollektivi şəhidlik zirvəsinə yüksəlmiş Azərbaycanın Milli Qəhrəmanı mühəndis-hidroloq Rafiq Hüseyn oğlu Nəsrəddinovla fəxr edir. O, 1961-ci il mart ayının 18-də Bakı şəhərində fəhlə ailəsində dünyaya göz açıb. 1978-ci ildə Nərimanov rayonundakı 39 saylı orta məktəbi bitirib. 1978-ci ildə Bakı şəhərindəki 12 saylı Peşə məktəbində soyuducu avadanlıqları üzrə usta peşəsinə yiyələnib. 1979-cu ildə hərbi xidmətə çağırılıb. 1981-ci ildə tank qoşunları hərbi hissəsində xidməti borcunu başa vurub. 1982-ci ildə Bakı Dövlət Universitetinin coğrafiya fakultəsinə daxil olub və 1987-ci ildə həmin universiteti müvəffəqiyyətlə bitirib. Ali təhsil diplomu ilə bərabər leytenant hərbi rütbəsinə də yiyələnib.

"Azdövsutəslayihə" institutunda 10.IX.1987-ci ildən 1992-ci ilə kimi mühəndis-hidroloq vəzifəsində işləyib. O, institutda işlədiyi müddətdə kollektivin böyük hörmət və rəğbətini qazanıb.

Leytenant Rafiq Hüseyn oğlu 1992-ci ildə Milli Ordu sıralarına çağırılıb. Ağdərə rayonunun erməni düşmənlərindən təmizlənməsi ilə bağlı əməliyyatlarda yaxından iştirak edib. Baş leytenant Rafiq Hüseyn oğlu 6 sentyabr 1992-ci ildə Ağdərə rayonunun Qızılqaya kəndi uğrunda gedən döyüşlərdə cəsarətlə vuruşaraq qəhrəmancasına həlak olub. Məzarı Bakı şəhərində Şəhidlər xiyabanındadır. Ailəli idi, iki qız övladı var.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə baş leytenant Nəsrəddinov Rafiq Hüseyn oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib.

Qəhrəman Rafiq Hüseyn oğlu Nəsrəddinovun xatirəsi əbədiləşdirilib. Hazırda təhsil aldığı 39 saylı orta məktəb onun adını daşıyır, məktəbdə büstü qoyulub və yaşadığı binanın önünə xatirə lövhəsi vurulub.

“AZDÖVSUTƏSLAYİHƏ” İNSTİTUTUNUN DİREKTORLARI:

ABBASOV MEHDİ ƏLİ OĞLU

Mehdi Əli oğlu Abbasov 1898-ci ildə Qərbi Azərbaycanın İrəvan şəhərində pinəçi ailəsində anadan olmuşdur. 1909-1911-ci illərdə İrəvan şəhərindəki Rus-Tatar məktəbində, 1911-1913-cü illərdə isə şəhər ibtidai məktəbində təhsil almışdır. 1912-ci ildə anası, 1913-cü ildə isə atası vəfat edən Mehdi Abbasov təhsilini yarımçıq qoyaraq, çörək pulu qazanmaq üçün işləmək məcburiyyətində qalmışdır. Əmək fəaliyyətinə 1913-cü ildə İrəvandakı quberniya nəşriyyatında cildçi-fəhləlikdən başlamışdır. 1916-1917-ci illərdə nəşriyyatda usta köməkçisi işləmiş, 1917-1918-ci illərdə isə şəhər məhkəməsində katiblik etmişdir.

Erməni daşnaklarının 1918-ci ildə şəhərdə törətdiyi vəhşiliklər nəticəsində yerli əhalinin yaşayış səviyyəsi ağırlaşdığına görə doğma şəhərini tərk edərək, əvvəlcə Tiflis şəhərinə, oradan da Gəncə şəhərinə gəlmişdir. Bir müddət yeməkxanada çayçı, 1919-cu ildən isə Xankəndində yerləşən Atıcı diviziyasında katiblik etmişdir. Diviziyanın mollası Mirzə Cəlal və xəstəxananın baş həkimi Marqulisin köməkliyi ilə 1920-ci ildə Xankəndinə gələn, dövrünün tanınmış inqilabçıları Çingiz İldırım və Serqo Orconikidze ilə tanış olmuşdur. Bu görüşdən az sonra ona Şuşa şəhərində yerləşmiş hərbi komissarlıqda katiblik işini aparmaq tapşırılmışdır. 1920-ci ilin 2-ci yarısında Şəmkirdəki hərbi komissarlıqda tərcüməçi işləmişdir. Bölgədə söz sahibi olan Müseyib Axundovla, Şəmkir milis rəisi Rüstəm Əliyevlə birgə fəaliyyət göstərmiş, 1920-ci ildə Şəmkirdə Sovet İttifaqı Kommunist Partiyası üzvlüyünə qəbul olunmuşdur. Gəncə şəhərindəki 1-ci atıcı alayda komissar köməkcisi işləmiş, 1921-1922-ci illərdə Bakı şəhərində hərbi məktəbin müdavimi olmuşdur. Müdavim olduğu müddətdə diviziya komandiri Qanboy Vəzirovun rəhbərliyi altında Ağdamda və Göycayda banditlərə qarşı aparılan döyüşlərdə iştirak etmişdir. Azərbaycan SSR Mərkəzi İnqilab Komitəsinin sədri Səmədağa Ağamalı oğlunu 1921-ci ildə Respublika bölgələrinə səfərlərdə müşayiət etmişdir.

Azərbaycan KP MK-nın qərarı ilə 1922-ci ildə Moskva şəhərinə, Şərq Zəhmətkeşlərinin Kommunist Universitetinə təhsil almağa göndərilmişdir. 1923-cü ildə Azərbaycan KP MK-dan verilən göstərişə əsasən Mehdi Abbasov Moskva Timiryazov adına Kənd Təsərrüfatı Akademiyası nəzdində yaradılmış işçi kadrlar hazırlayan məktəbə köçürülmüş və 1926-cı ilə kimi burada oxumuşdur. 1926-1931-ci illərdə Moskvada Su Təsərrüfatı Mühəndisləri İnstitutunda təhsil almış və mühəndis-hidrotexnik ixtisasına yiyələnmişdir. Tələbə olarkən, 1927-ci ildə çağırılmış Sovet İttifaqı Kommunist Partiyasının XV qurultayının iştirakçısı olmuşdur.

1931-ci ilin mayından avqust ayına kimi Azərbaycan Su Təsərrüfatı İdarəsinin layihə-axtarış şöbəsində mühəndis işləmişdir. 1931-ci ilin avqust ayında Gəncə şəhərindəki Zaqafqaziya Mühəndis Meliorasiya İnstitutunda fakültə dekanı vəzifəsinə təyin olunmuşdur. 1932-

ci ilin noyabr ayından 1933-cü ilin mart ayına kimi Gəncə Mühəndis Meliorasiya İnstitutunda rektor vəzifəsini icra etmişdir. 1933-cü ilin mart ayında Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Dövlət Planlaşdırma Komitəsində qısa vaxt ərzində su təsərrüfatı sahəsinə baxan məsul şəxs kimi fəaliyyətdən sonra, yeni yaradılmış trest səlahiyyətli Azərbaycan Su Təsərrüfatı Layihə-Axtarış İdarəsinə rəis təyin olunmuşdur. 1937-cı ildən Zaqafqaziya Su Təsərrüfatı Layihə-Axtarış adlanan trest uzun illər Azərbaycan, Gürcüstan və Ermənistan Respublikalarının ərazilərində su təsərrüfatı obyektlərinin layihə işlərini yerinə yetirmişdir. 1953-cü ildə Su Təsərrüfatı Layihə-Axtarış tresti Azərbaycan Dövlət Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi İnstitutuna çevrilmişdir.

Mehdi Əli oğlu Abbasov 1964-cü ilin iyul ayına kimi, 31 il "Azdövsutəslayihə" İnstitutuna rəhbərlik etmişdir. "Azdövsutəslayihə" İnstitutundakı fəaliyyətindən sonra fəxri təqaüddə olmuşdur.

Azərbaycan Respublikası ərazisində 1933-cü ildən 1964-cü ilə kimi tikilmiş dövlət əhəmiyyətli bütün meliorasiya və su təsərrüfatı tikintilərinin layihə sənədlərinin hazırlanmasında Mehdi Əli oğlu Abbasovun xüsusi əməyi olmuşdur. Onun rəhbərliyi dövründə Mingəçevir su anbarının, Muğan və Salyan düzlərində suvarma və meliorasiya sistemlərinin, Samur-Dəvəçi kanalının 1-ci və 2-ci növbələrinin, Yuxarı Şirvan və Yuxarı Qarabağ kanallarının, Bəhrəmtəpə hidroqovşağının, Baş Muğan kanalının, Gəncə-Qazax bölgəsində suvarma sistemlərinin, Lənkəran subtropik bölqəsində suvarma sistemlərinin, Ağstafaçay və Xaçınçay su anbarlarının və digər yüzlərlə obyektlərin layihə sənədləri hazırlanmışdır.

Azərbaycan Su Təsərrüfatı Layihə-Axtarış İdarəsində işə başlayarkən 25-30 əməkdaş olduğu halda, "Azdövsutəslayihə" İnstitutunda rəhbərlikdən gedərkən 900-dən çox işçi çalışırdı. Fəaliyyət göstərən əməkdaşlardan 600 nəfəri mühəndis-texniki işçilər idi.

Xatırlatmaq yerinə düşərdi ki, layihə təşkilatının rəhbəri M.Ə.Abbasovun aylıq vəzifə maaşı SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalinin 1951-ci il 17 dekabrda imzaladığı 5183 saylı sərəncamla təyin edilmişdir. Dövlət rəhbəri tərəfindən qəbul edilmiş bu qərar, o dövrdə Azərbaycan Su Təsərrüfatı Layihə-Axtarış İdarəsində görülən işlərə və onun rəhbərinin şəxsiyyətinə verilmiş ən böyük qiymət kimi dəyərləndirilmişdir.

Əmək fəaliyyəti dövründə M.Abbasov "Qırmızı Əmək Bayrağı" ordeni, 2 medal, Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı, 2 dəfə "SSRİ Kənd Təsərrüfatı Nazirliyin əlaçısı" döş nişanı, kənd təsərrüfatındakı nailliyyətlərinə görə 3 dəfə Xalq Təsərrüfatı Sərgisinin bürünc medalı ilə təltif olunmuşdur.

Abbasov Mehdi Əli oğlu 1979-cu ildə Bakı şəhərində, 81 yaşında vəfat etmişdir. Yasamal rayonu ərazisində yerləşən köhnə qəbiristanlıqda dəfn olunmuşdur.

Allah ona rəhmət eləsin!

SƏLİMBƏYOV CƏFƏR VAHAB OĞLU

Cəfər Vahab oğlu Səlimbəyov 18 sentyabr 1906-ci ildə Bakı şəhərində doğulmuşdur. 1914-1918-ci illərdə 3-cü Rus-Tatar məktəbində, 1918-1923-cü illərdə isə 2-ci Bakı Realnı məktəbində təhsil almışdır. Əmək fəaliyyətinə 14 yaşında olarkən, 1920-ci ildə məktəbdə oxuduğu illərdə başlamışdır. 1920-1923-cü illərdə Azərbaycan SSR Daxili İşlər Xalq Komissarlığında tərcüməçi işləmişdir. 1923-cü ildə Azərbaycan KP MK-nın qərarı ilə Moskva şəhərinə, Lomonosov adına Moskva Dövlət Universitetinə oxumağa göndərilmişdir. 1924-cü ildə Timiryazov adına Kənd Təsərrüfatı Akademiyasına köçürülmüş və 28 fevral 1930-cu ildə akademiyanı bitirərək mühəndis-hidrotexnik ixtisasına yiyələnmişdir.

Ali məktəbi bitirdikdən sonra 1930-1933-cü illərdə Moskva şəhərində SSRİ Əkinçilik Xalq Komissarlığının Su Təsərrüfatı Baş İdarəsində çalışmışdır. 1933-1944-cü illərdə Azərbaycan su təsərrüfatı sistemində çalışmış, Azərbaycan Su Təsərrüfatı Obyektlərinin Layihə-Axtarış idarəsində böyük mühəndis, layihə baş mühəndisi, layihə kontorunun başçısı, Samur-Dəvəçi kanalının tikintisini həyata keçirən idarədə rəis müavini işləmişdir. SSRİ Müdafiə Nazirliyinin 1941-1942-ci illərdə Mozdok və Rostov şəhərlərinin 5 rayonunda yaratdığı müdafiə obyektlərinin tikintisində baş mühəndis olmuşdur. 1942-1945-ci illərdə Azərbaycan SSR Su Təsərrüfatı Nazirliyinin baş mühəndisi vəzifəsini icra etmişdir. 1945-1946-cı illərdə Kür-Araz Baş Su Tikinti İdarəsində rəis müavini, 1946-1950-ci illərdə Azərbaycan SSR Su Təsrrüfatı Nazirliyində baş mühəndis, 1950-1962-ci illərdə Samur-Abşeron kanalının tikintisində rəis, Azərbaycan SSR Tikinti Nazirliyinin Baş İdarəsində baş mühəndis, rəis müavini vəzifələrində çalışmışdır. 1962-1964-cü illərdə Azərbaycan SSR Tikinti nazirinin müavini olmuşdur.

Səlimbəyov Cəfər Vahab oğlu 11 iyul 1964-cü ildən 17 aprel 1972-ci ilə kimi "Azdövsutəslayihə" İnstitutunun direktoru vəzifəsində işləmişdir. 1972-ci ildən respublika əhəmiyyətli təqaüdçü olmaqla yanaşı, Azərbaycan Mühəndis İnşaat İnstitutunda (indiki AzMİU) hidrotexniki qurğular və hidravlika kafedrasında baş müəllim kimi çalışmışdır.

Cəfər Vahab oğlu Səlimbəyov əmək fəaliyyəti dövründə daşıdığı vəzifə səlahiyyətlərindən əlavə, tapşırılan çoxsaylı işləri də layiqincə yerinə yetirmişdir. 1937-1950-ci illərdə Azərbaycan Su Təsərrüfatı İdarəsində və Azərbaycan SSR Su Təsərrüfatı Nazirliyində Elmi-Texniki Şuranın elmi katibi, 1942-1950-ci illərdə Azərbaycan SSR Su Təsərrüfatı Nazirliyinin kollegiya üzvü olmuşdur. 1934-cü və 1938-ci illərdə Bakı şəhər Oktyabr (Yasamal) rayon sovetinin deputatı seçilmişdir. 1950-ci ildə 3-cü çağırış, 1952-ci ildə 4-cü çağırış Bakı şəhər Sovetinin deputatı olmuşdur. 1951-ci ildə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. 1952-ci ildə Azərbaycan KP Bakı şəhər komitəsinin üzvü olmuşdur.

Cəfər Vahab oğlu Səlimbəyov Samur-Dəvəçi kanalının 1-ci və 2-ci növbələrinin tikintisində layihə müəlliflərindən biri idi. Onun Samurçay hidroqovşağının, Bəhrəmtəpə hidroqovşağının, Yuxarı Qarabağ, Yuxarı Şirvan magistral kanallarının, Xaçınçay su anbarının və digər su təsərrüfatı tikintilərinin istifadəyə verilməsində böyük əməyi olmuşdur.

Səlimbəyov Səfər Vahab oğlunun əmək fəaliyyəti dövlət tərəfindən ardıcıl olaraq qiymətləndirilmişdir. 2 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni ilə (1940; 1958), "Şərəf nişanı" ordeni (1966), "Rəşadətli əməyə görə" medalı (1967), "Qafqazın müdafiəsi" medalı, "1941-1945 illərdə Böyük Vətən müharibəsində əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur. Azərbaycan SSR Ali Sovetinin 3 dəfə (1943, 1956, 1960) Fəxri Fərmanını almışdır. "Azərbaycan SSR Əməkdar İrriqatoru" fəxri adına layiq görülmüşdür.

Səlimbəyov Cəfər Vahab oğlu 1979-cu ilin mart ayında, 73 yaşında vəfat etmişdir. Bakı şəhərindəki 2-ci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Allah ona rəhmət eləsin!

MUSAYEV ZÜLFÜQAR FƏTULLA OĞLU

Zülfüqar Fətulla oğlu Musayev 20 iyun 1932-ci ildə Sabirabad şəhərində anadan olmuşdur. 1941-ci ildə orta məktəbin 1-ci sinfinə getmiş və 1951-ci ildə orta məktəbi bitirmişdir. 1951-1956-cı illərdə Azərbaycan Politexnik İnstitutunun (indiki AzTU) inşaat fakültəsində "Su təsərrüfatı və kanalizasiya" ixtisası üzrə təhsil almışdır. Mühəndis-hidrotexnik ixtisasına yiyələnmişdir. 1956-cı ildə Azərbaycan Kənd Tikintisi Layihə İnstitutunda mühəndis vəzifəsində əmək fəaliyyətinə başlamış və şöbə rəisi vəzifəsinədək yüksəlmişdir. 1967-1970-ci illərdə Ümumittifaq Su- Kanal Layihə İnstitutunun Bakı filialında şöbə rəisi işləmişdir. 1970-1972-ci illərdə "İmumittifaq-sukanallayihə" İnstitutunun Bakı filialının direktoru olmuşdur. Bu illərdə Kür çayından Bakı şəhərinə su kəmərinin çəkilməsində yaxından iştirak etmişdir və Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

1972-ci il aprelin 15-də Azərbaycan Dövlət Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi İnstitutuna direktor təyin edilmiş və bu vəzifədə 24 oktyabr 1975-cı ilə kimi işləmişdir. "Azdövsutəslayihə" İnstitutuna rəhbərlik etdiyi dövrdə Arpaçay su anbarının, Baş Mil kanalının, Tərtər çayından sugötürən magistral kanalın və digər obyektlərin layihələrinin hazırlanmasında xüsusi əməyi olmuşdur.

Zülfüqar Musayev 1976-cı ildən 1988-ci ilə kimi Azərbaycan KP MK-da Su təsərrüfatı şöbəsinin müdiri vəzifəsində işləmişdir. Bu illərdə Azərbaycan ərazisində meliorasiya və su təsərrüfatı sahəsində aparılan bütün tədbirlərin həyata keçirilməsində yaxından iştirak etmiş, görülməsi nəzərdə tutulan işlərin təşkilatçılarından biri olmuşdur. 1988-1992-ci illərdə Azərbaycan Hidrometeoloji Xidmət İdarəsində rəis müavini, 1992-ci ildən müstəqil Azərbaycan Respublikasında Dövlət Hidrometeorologiya Komitəsində sədr vəzifəsinə təyin edilmişdir. 1994-cü ildə Ümumdünya Meteorologiya Təşkilatında (ÜMT) ölkəmizin daimi nümayəndəsi seçilmişdir. ÜMT-nin Xəzər dənizinin Hidrometeorologiya və Çirklənməsinin Monitorinqi üzrə 1994-cü ildə Tehranda, 1997-ci ildə Bakıda keçirdiyi müşavirələrdə Koordinasiya Komitəsinin sədri seçilmişdir.

Musayev Zülfüqar Fətulla oğlu 2004-ci ildə, 72 yaşında vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Allah ona rəhmət eləsin!

PAŞAYEV PAŞA SİRAC OĞLU

Paşa Sirac oğlu Paşayev 1924-cü ildə Ağdaş rayonunun Ərəbocaq kəndində anadan olmuşdur. 1942-ci ildə Ağdaş şəhərində orta məktəbdə buraxılış imtahanlarını verdikdən sonra alman faşistləri ilə döyüşmək üçün könüllü olaraq müharibəyə yollanmışdır. Azərbaycanlılardan təşkil olunmuş 416-cı Taqanroq atıcı diviziyasının tərkibində Mozdok, Melitopol, Kerç şəhərləri uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. 1944-cü ildə Mariupol şəhərində 6 aylıq hərbi məktəbi bitirmişdir. Berlin şəhəri uğrunda gedən döyüşlərdə iştirak etmiş və 1946-cı ildə ordudan tərxis olunmuşdur.

P.Paşayev 1947-ci ildə Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun hidromeliorasiya fakültəsinə qəbul olmuş və 1952-ci ildə institutu bitirərək "mühəndis-hidrotexnik" ixtisasına yiyələnmişdir. Əmək fəaliyyətinə 1952-ci ildə təhsil aldığı institutda assistent vəzifəsindən başlamışdır. 1953-1956-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı Elmi Tədqiqat Pambıqçılıq İnstitutunun əyani şöbəsinin aspirantı olmuşdur.

1956-1962-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Elmi Tədqiqat Pambıqçılıq İnstitutunun Şirvan zonası üzrə Ucardakı təcrübə stansiyasının direktoru vəzifəsində işləmişdir. 1958-ci ildə dissertasiya işini müdafiə edərək kənd təsərrüfatı elmləri namizədi elmi dərəcəsini almışdır. 1962-1963-cü illərdə Göyçay, 1963-1965-ci illərdə Ucar rayonlarında İstehsalat İdarəsinin rəisi, 1965-1967-ci illərdə isə Azərbaycan KP Zərdab Rayon Partiya Komitəsində birinci katib vəzifəsində çalışmışdır. 1967-1976-cı illərdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı nazirinin birinci müavini, 1976-1983-cü illərdə Azərbaycan Dövlət Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi "Azdövsutəslayihə" İnstitutunun direktoru, 1983-1988-ci illərdə, yenidən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı nazirinin müavini vəzifəsində çalışmışdır.

Paşa Sirac oğlu Paşayevin 1967-1988-ci illərdə meliorasiya və su təsərrüfatı sistemində rəhbər vəzifədə işlədiyi 22 il müddətində yüzlərlə su təsərrüfatı obyektlərinin layihə sənədlərinin hazırlanmasında və tikilməsində, ərazilərdəki suvarma və kollektor- drenaj sistemlərinin yenidən qurulmasında, Kür-Araz düzənliyində şorlaşmış torpaqların duzlardan təmizlənməsi üçün meliorasiya tədbirlərinin həyata keçirilməsində xüsusi xidmətləri olmuşdur.

Azərbaycan Respublikasında meliorasiya elminin inkişafında, elmi nəticələrin istehsalatda tətbiq edilməsində, 1976-1983-cü illərdə AzMİU-da Dövlət Attestasiya Komissiyasının sədri olmaqla "meliorasiya mühəndis sistemlərinin tikintisi" ixtisası üzrə gənc mütəxəssislərin hazırlanmasında da yaxından iştirak etmişdir. "İrriqasiya və drenaj" sahəsində 1972-ci ildə Bolqarıstanda, 1974-cü ildə isə İspaniyada keçirilmiş Ümumdünya Konqresinin iştirakçısı olmuşdur.

"Azdövsutəslayihə" İnstitutunun direktoru işlədiyi illərdə (1976-1983), onun rəhbərliyi ilə yüzlərlə obyektlərin layihə sənədləri vaxtında hazırlanmış və tikintisinə nəzarət həyata keçirilmişdir. Bunlardan: Fizuli rayonunda Aşağı Köndələnçay su anbarının, Tovuz rayonunda

üçpilləli nasos stansiyasının, Dağlıq Qarabağ Muxtar Vilayətində suvarma sistemlərinin yenidən qurulmasının, Zəngilan rayonunda ikipilləli Yazı düzü nasos stansiyasının, Baş Şirvan kollektorunun yenidən qurulmasının, Lənkəran və Astara rayonlarında suvarma sistemlərinin, Baş Mil kanalının və digərlərinin layihələrini göstərmək olar.

Paşa Sirac oğlu Paşayevin Vətənə xidmətləri və səmərəli əmək fəaliyyəti dövlət tərəfindən mütəmadi olaraq qiymətləndirilmişdir. 1942-1946-cı illərdə hərbi hissələrdə göstərdiyi fədakarlığa, meliorasiya və su təsərrüfatı sahəsində səmərəli fəaliyyətinə görə 5 orden və 7 medala layiq görülmüşdür.

Paşayev Paşa Sirac oğlu 6 fevral 2000-ci ildə Bakı şəhərində, 76 yaşında vəfat etmiş və Goradil kənd qəbiristanlığında dəfn olunmuşdur.

Allah ona rəhmət eləsin!

ƏLİYEV RAHİB ORUC OĞLU

Rahib Oruc oğlu Əliyev 20 fevral 1937-ci ildə Lənkəran şəhərində anadan olmuşdur. 1955-ci ildə Lənkəran şəhər 3 saylı orta məktəbi bitirmişdir. 1955-ci ildə Azərbaycan Politexnik İnstitutunun (indiki AzTU) hidromeliorasiya fakültəsinin "Su elektrik stansiyaları və çay qurğularının hidrotexniki tikintisi" ixtisasına qəbul olunmuş və 1960-cı ildə institutu bitirərək mühəndis-hidrotexnik ixtisasına yiyələnmişdir. Gənc mütəxəssis kimi göndəriş əsasında 1960-cı il iyul ayının 8-də Bəhrəmtəpədəki 10 saylı inşaat idarəsində tikintidə usta vəzifəsində əmək fəaliyyətinə başlamışdır. 1963-cü ilə kimi iş icraçısı, tikintiyə nəzarətçi vəzifələrində çalışmışdır. 1963-1965-ci illərdə Lənkəran rayonundakı 8 saylı inşaat idarəsində baş iş icraçısı, 1965-1966-cı illərdə idarənin baş mühəndisi, 1966-1969-cu illərdə idarənin rəisi vəzifələrində işləmişdir. 1969-1970-ci illərdə Yəmən Ərəb Respublikasının Xodeyda şəhərində su təsərrüfatı sahəsində tikinti işlərini aparan sovet mütəxəssis qrupunun rəhbəri olmuşdur. 1970-1973-cü illərdə "Azərsutikinti" Baş İdarəsinin Lənkəran şəhərində yerləşən 2 saylı trestinin müdiri, 1973-1975-ci illərdə Bakı şəhərində "Azərsutikinti" Baş İdarəsində qrup rəhbəri, "Su tikintisinin təşkili və texnologiyası" trestində 1975-ci ildə şöbə müdiri, 1976-1983-cü illərdə isə trestin müdiri vəzifəsində çalışmışdır.

Rahib Oruc oğlu Əliyev 1983-cü ildən 21.04.2008-ci ilə kimi "Şərəf nişanı" ordenli Azərbaycan Dövlət Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi İnstitutunun, "Azdövsutəslayihə"nin direktoru vəzifəsində işləmişdir.

Lənkəran rayonunda inşaat işlərini aparan idarənin baş mühəndisi, rəisi və trest müdiri olaraq Rahib Əliyevin Masallı rayonunda "Babasər", "Viləşçay, I növbə", Astara rayonunda "Ləvain", Biləsuvar rayonunda "Bolqarçay", Lənkəran rayonunda "Yuxarı Xanbulançay" su anbarlarının tikintisində və bölgədəki 10 min hektardan artıq əkin sahələrində suvarma sistemlərinin tikilib istifadəyə verilməsində böyük əməyi olmuşdur.

1983-cü ildən 2008-ci ilə kimi respublikamızın ərazisində tikilmiş meliorasiya və su təsərrüfatı obyektlərinin layihələri R.O.Əliyevin rəhbərliyi ilə işlənmişdir.

Bu layihələrdən aşağıdakıları göstərmək olar:

Baş Şirvan kollektorunun yenidən qurulması layihəsi; Şəki rayonunda Əyriçay su anbarının layihəsi; Lənkəran rayonunda Təngərüd-Lənkəran çayları arasındakı ərazidə suvarma sistemlərinin layihəsi; Baş Mil-Muğan kollektorunun layihəsi; Naxçıvan Muxtar Respublikasında "Vayxır" su anbarının layihəsi; Şəmkir maşın kanalının layihəsi; Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi və s.

İstehsalatda apardığı tikinti işlərində qazandığı zəngin təcrübə Rahib Əliyevi hazırlanmış layihə hesabatlarını nəzəri əsaslarla təhlil etməyə, yeni, səmərəli həll variantlarını tapmaq istiqamətində elmi-tədqiqat işləri aparmağa yönəltmişdir. 1975-ci ildə "Hidrotexniki qurğuların hesabatında hissəciklərin hidravlik böyüklüyünün yayılmasının qanunauyğunluğu" mövzusunda yazdığı namizədlik dissertasiya işini Tbilisi şəhərində müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsini almışdır.

1991-ci ildə isə "Dağ və dağətəyi regionlarda meliorasiya sistemlərinin və hidrotexniki qurğuların yaradılması və tikilməsi problemləri mövzusunda" yazdığı doktorluq dissertasiya işini Tbilisi və Moskva şəhərlərində müdafiə edərək texnika elmləri doktoru alimlik dərəcəsini almışdır.

Respublika və beynəlxalq səviyyələrdə keçirilən elmi konfranslarda R.Əliyev müntəzəm olaraq iştirak etmişdir. 1991-ci və 1997-ci illərdə Türkiyə Cümhuriyyətinin İstanbul və Ankara şəhərlərində, 1995-ci ildə Hollandiyanın Haaqa şəhərində keçirilən beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir.

Respublikamızda mütəxəssis kadrların hazırlanması sahəsində də R.Əliyevin böyük xidmətləri var. 1983-2000-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində "Hidrotexniki tikinti" ixtisası üzrə Dövlət Attestasiya Komissiyasının sədri olmuşdur. 1995-ci ildə müsabiqə yolu ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Bünövrələr, özüllər və yeraltı qurğular" kafedrasında professor vəzifəsinə seçilmişdir. O, nəşr olunmuş 100-ə yaxın elmi əsərin, 12 ixtiranın, 2 dərs vəsaitinin, 3 monoqrafiyanın, mərkəzi qəzetlərdə çap olunmuş çoxsaylı elmi-publisistik məqalələrin müəllifidir.

R.O.Əliyevin rəhbərliyi altında 6 aspirant və dissertant dissertasiya işlərini yazaraq, müxtəlif elmi şuralarda müvəffəqiyyətlə müdafiə etmiş və elmlər namizədi alimlik dərəcəsini almışdır. O, 2000-ci ildə Altunin adına Rusiya Beynəlxalq Ekologiya və Təbiətdən İstifadə Akademiyasının həqiqi üzvü seçilmişdir.

Azərbaycan MEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunda doktorluq dissertasiya işlərinin müdafiəsi üzrə fəaliyyət göstərən Elmi Şuranın, 2005-ci ildən nəşr olunan "Ekologiya və su təsərrüfatı" elmi-texniki və istehsalat jurnalının redaksiya heyətinin üzvüdür.

R.O.Əliyevin məhsuldar əməyi müxtəlif dövrlərdə müntəzəm olaraq dövlət tərəfindən qiymətləndirilmişdir. Azərbaycan Prezidentinin fərmanı ilə 2007-ci ildə ona "Azərbaycan Respublikasının Əməkdar Mühəndisi" fəxri adı verilmişdir. "Şərəf nişanı" ordeni (1971), "SSRİ Xalq Təsərrüfatı Naliyyətləri sərgisinin" bürünc medalı (1977). "Su təsərrüfatı obyektlərinin tikintisinin əlaçısı" (1975), "SSRİ ixtiraçısı" döş nişanları ilə təltif olunmuşdur. 1987-ci ildə SSRİ Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin "Fəxri Fərmanı"nı almışdır.

Azərbaycan KP-nin XXVIII qurultayının iştirakçısı olmuşdur. Lənkəran rayon sovetinin 1983-1984, 1984-1987-ci illərdə deputatı seçilmişdir. Hal-hazırda fəxri təqaüdçüdür.

PAŞAYEV ELBRUS PAŞA OĞLU

Elbrus Paşa oğlu Paşayev 4 fevral 1957-ci ildə Gəncə şəhərində, dövrünün tanınmış ziyalılarından biri, Azərbaycanda meliorasiya və su təsərrüfatı sahəsində böyük əməyi olan Paşa Sirac oğlu Paşayevin ailəsində anaban olmuşdur. Bakı şəhərindəki 20 saylı orta məktəbi 1974-cü ildə bitirmişdir. 1974-1979-cu illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun (indiki AzMİU) Hidromeliorasiya fakültəsində hidrotexniki tikintilər ixtisası üzrə ali təhsil almışdır. 1979-cu ildə "Azərkəndtikintisuçəkiliş" Tikinti Birliyində gənc mütəxəssis kimi mühəndis-hidrotexnik vəzifəsində əmək fəaliyyətinə başlamışdır.

Paşayev E.P. 19.11.1979-30.04.1981-ci illərdə hərbi xidmətdə olmuşdur. Ordudan tərxis olandan sonra 30.04.1981-30.01.1983-cü illərdə "Azərkəndtikintisuçəkiliş" Tikinti Birliyində mühəndis-hidrotexnik vəzifəsində əmək fəaliyyətini davam etdirmişdir.

E.P. Paşayev 31.12.1982-31.12.1985-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "Qruntlar mexanikası, bünövrələr və özüllər" kafedrasının əyani şöbəsinin aspirantı olmuşdur. Aspiranturada təhsilini başa çatdırdıqdan sonra göndəriş əsasında AzMİU-nun "Hidrotexniki qurğular və hidravlika" kafedrasında assistent vəzifəsində pedaqoji fəaliyyətə başlamışdır.

1986-1991-ci illərdə assistent, 1991-1995-ci illərdə baş müəllim, 1995-ci ildən dosent vəzifəsində çalışır. 1988-ci ildə dünyaşöhrətli alim, professor Abbas Əli oğlu Mustafayevin rəhbərliyi altında "Qrunt suyunun səviyyəsinin qalxması nəticəsində lyosvari qruntlarda əlavə çökmənin proqnozlaşdırılması" mövzusunda tamamladığı dissertasiya işini müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsini almışdır.

Tədqiq etdiyi elmi işlərin yekunları haqqında keçmiş SSRİ və müstəqil Azərbaycan Respublikasında keçirilmiş çoxsaylı elmi konfranslarda və beynəlxalq simpoziumlarda məruzələr edərək çox saylı məqalələr çap etdirmişdir. Ümumilikdə 70 adda çap olunmuş elmi əsərlərin müəllifidir.

Azərbaycan Memarlıq və İnşaat Universitinin nəzdində 16.05.2005-ci ildən fəaliyyətə başlayan "İnşaat" kollecinin ilk direktoru olaraq, yeni təhsil müəssisəsinin maddi-texniki bazasını yaratmış və tədrisi təşkil etmişdir.

Elbrus Paşa oğlu Paşayev 01.03.2007-21.04.2008-ci illərdə "Azdövsutəslayihə" İnstitutunun baş mühəndisi vəzifəsində işləmişdir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndə heyətinin tərkibində, 2007-ci ilin dekabr ayında Nyu-York şəhərində keçirilən "Birlikdə dünyanı daha məhsuldar məkana çevirmək uğrunda" I Qlobal İnfrastruktur Forumunda iştirak etmişdir. Forum iştirakçıları olan sərmayəçilərə "Yuxarı Şirvan kanalının yenidən qurulması" və "Ağsuçay su anbarının tikintisi" layihələrini təqdim etmişdir.

Paşayev Elbrus Paşa oğlu 21.04.2008-ci ildən "Azdövsutəslayihə" İnstitutunun direktoru vəzifəsində çalışır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Əhmədzadə Ə.C. Heydər Əliyev və Azərbaycanın su təsərrüfatı. Bakı, 2003.
2. Əhmədzadə Ə.C., Həşimov A.C. Meliorasiya və su təsərrüfatı sistemlərinin kadastrı. Bakı, 2006.
3. Аббасов М.А. Краткий обзор 35-летней деятельности проектного института "Азгипроводхоз" (за период 1930-1964 гг.). Москва, Гипроводхоз, 1964.
4. Абдулрагимов Т.И. Водное хозяйство Азербайджана. Баку, 1969.
5. Алиев Р.О. Гидротехническое и мелиоративное строительство в условиях предгорных равнин. Москва, 1991.
6. Бехбудов А.К. Экспериментальные основы проведения мелиорации засоленных земель Кура-Араксинской низменности. Баку, 1977.
7. Бехбудов А.К., Джафаров Х.Ф. Мелиорация засоленных земель, Москва, 1980.
8. Bünyadov Teymur və başqaları. Azərbaycan etnoqrafiyası. 2-ci cild. Bakı, 2007
9. Əzizov Q., Həsənəliyev Ə. Azərbaycanda suvarmanın tarixi. Bakı, 2001.
10. Məmmədov R.P., Həşimov A.C. Azərbaycan Elmi Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunun 50 illik elmi fəaliyyəti. Bakı, 1994.
11. Talıbzadə İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə. Bakı, 1980.
12. Azərbaycan Sovet Ensklopediyası (ASE), IX cild. Bakı, 1986.
13. Авдеев М. Мугань и Сальянская степь. Население-землепользование-водное хозяйство (обследование, 1925 г).
14. Маевский И.А. Орошение переселенческих участков на Мугани. Тифлис, 1902 г.
15. Рума Л. Очерки и исследование из жизни и колонизации Муганьской степи. Выпуск I. Петербург, 1913 г.
16. Саваренский Ф.П. Гидрологический очерк Муганьской степи. ЗОИИВХ. Тифлис, 1931 г.
17. Сумбат-заде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку, 1958 г.
18. Paşayev E.P. Ümummilli lider Heydər Əliyevin göstərdiyi yol. "Kredo" qəzeti, 26 aprel 2008-ci il.
19. Paşayev E.P., Həsənov F.H. Çar Rusiyası dövründə Azərbaycanda meliorasiya və su təsərrüfatı sahəsində həyata keçirilmiş layihələr. "Ekologiya və su təsərrüfatı" jurnalı. Bakı, 2009, № 3, səh. 23-29.
20. Paşayev E.P. Meliorasiya və su təsərrüfatı sahəsində uğurlu dövlət siyasəti bəhrəsini verir. "Xalq qəzeti", 5 iyun 2009-cu il.
21. Həsənov F.H. Kür-Araz düzənliyində irriqasiya, kollektor-drenaj sistemləri və ekoloji vəziyyət. "Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri fakültəsinin elmi əsərləri toplusu". №7. Bakı, 2003, səh. 145-151.
22. Həsənov F.H. Mingəçevir su anbarı, suvarma sistemləri və ətraf mühit. "Ruzgar" ekoloji cəmiyyəti. Kür hövzəsinin su anbarları, 2-ci kitab.Bakı, 2003, səh.49-58.
23. Həsənov F.H. Kür-Araz düzənliyində meliorasiya tikintiləri və ekoloji vəziyyət. EKO-İN-TER. İctimai - siyasi beynəlxalq jurnal. Bakı, 2005, yanvar-fevral və mart nömrələri.

24. Həsənov F.H. Araz çayının aşağı hissəsində su qəbul edən irriqasiya sistemləri və ekoloji vəziyyət. “Ruzgar” ekoloji cəmiyyəti. Araz çayı, hidrologiya, irriqasiya. Bakı, 2006, səh.58-69.
25. Həsənov F.H., Mahmudov T.M. Kür və Araz çaylarının su ehtiyatlarından səmərəli istifadə olunurmu? “Ekologiya və Su Təsərrüfatı” elmi-texniki və istehsalat jurnalı. Bakı, 2008, №3, səh.85-86.
26. Paşayev E.P. Həsənov F.H. “Azdövsutəslayihə” institunun tarixi və inkişaf yolu. Bakı, 2010.
27. AzərTAc Fotoxronika
28. Paşayev E.P. Meliorasiya və Su Təsərrüfatı sahəsində yeni inkişaf mərhələsi “Respublika qəzeti”, 11 oktyabr 2011-ci il.

Kompüter səhifələyici: **Allahverdi Kərimov**

Üz qabığının dizaynı: **Elçin Cəfərov**

Korrektor: **Gülnar Mustafazadə**

Operator: **Rəşad Abdullayev**

İnstitutun ünvanı: AZ1125, Bakı şəhəri,İ. Dadaşov 70a.
e-mail: az_dstl@mail.ru
Əlaqə telefonları: (99412) 563 60 54

Çapa imzalanmışdır 01.03.2013.
Formatı 54x84 $^{1}/_{8}$. Fiziki çap vərəqi 25.
Ofset çap üsulu. Tiraj 500. Sifariş

Kitab "Şərq-Qərb" mətbəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi 17.